Xalqın qəzeti!

# Xalq qəzeti

№ 80 (31049) 8 may 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Almaniyada keçirilən Qlobal Nəqliyyat Forumuna Azərbaycan sədrlik edir



**Bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil. Hazırda bizim ərazimizdən Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri keçir. Bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır.**

**Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradılmışdır və ortaq müəssisələr, müştərək müəssisələr qurulmuşdur. Bir sözlə, bu gün Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Fransanın ikili siyasəti və Azərbaycanın suverenlik mövqeyi



Səhifə ⇨ 4

## Azərbaycanda həyat rəqəmsallaşır




Səhifə ⇨ 15

## ASB-nin İrəvan toplantısı



Səhifə ⇨ 4

## "Dayanıqlı nəqliyyatın maliyyələşdirilməsi"



Səhifə ⇨ 9

## "Maşınlarımızı harada saxlayaq?"




Səhifə ⇨ 10

## Qarabağda "görünməz cəbhə" ölüm saçmaqda davam edir




Səhifə ⇨ 10

## Heydər Əliyev fenomeni: siyasi portretin miqyası və şəxsiyyətin missiyası



Səhifə ⇨ 7

## Gerçəyi diplomatik ədalarla, hay-küylə pərdələmək olmaz



Səhifə ⇨ 3

## "Reform UK" Britaniya siyasətini necə silkələyir?




Səhifə ⇨ 3

## İrəvanda "sülhü yenidən öyrənmək" dərsləri



Səhifə ⇨ 4

## Avropanın "hay ləyaqəti" və Ermənistandakı ruspərəst davakarlar

*Bu iki kəsim Qarabağ avantürasına siyasi sərmayə yatırırsa...*



**Məlum olduğu kimi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okampo və onun oğlu Tomasın daxil olduğu, rüşvət və kriminal əlaqələr üzərində formalaşmış şəbəkə vasitəsilə regional və qlobal siyasətə mənfi təsirlərini sübuta yetirən videomateriala münasibət bildirib. Hazırda qurumun münasibətinə Ermənistanda göstərilən reaksiyaların şahidiyik.**

*(ardı 5-ci səhifədə)*

## İki gün gizli saxlanılan səfər




Səhifə ⇨ 5

# "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında

## *Azərbaycan Respublikasi Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ictimai nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin qarşılıqlı inteqrasiyasının və fəaliyyətin əlaqələndirilməsinin gücləndirilməsi, habelə əhalinin şəhərdaxili hərəkətinin (mobilliyinin) daha keyfiyyətli təşkil edilməsi məqsədilə **qərara alıram:**

**1.** "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin ona qoşulması formasında yenidən təşkil edilsin.

**2.** Müəyyən edilsin ki:

2.1. Cəmiyyət ictimai nəqliyyat sahəsində (metro, avtobus, tramvay, taksi) sərnişindaşıma üzrə xidmətlər göstərilməsini, onların keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsini, həmin xidmətlərin təşkili və gediş haqqının ödənilməsi üzrə innovativ və rəqəmsal həllərin tətbiqini, habelə bu sahədə yeni nəqliyyat infrastrukturu obyektlərinin (metro, tramvay, avtomobil nəqliyyatı üzrə avtovağzalların (avtostansiyaların), terminalların və digər qurğuların, eləcə də taksi və avtobuslara texniki xidmət göstərən texniki-təmir sahələrinin və stansiyalarının) layihələndirilməsini və tikintisini, maddi-texniki bazanın gücləndirilməsini və müasirləşdirilməsini, həmçinin müxtəlif nəqliyyat növləri (metro, avtobus, tramvay, taksi) üzrə xidmətlərin qarşılıqlı inteqrasiyasını, vahid mərkəzdən idarə olunmasını və əlaqələndirilməsini təmin edən kommersiya hüquqi şəxsidir;

2.2. Cəmiyyət "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi varisidir, onların bütün hüquqları və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir;

2.3. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.4. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 5 (beş) üzvdən – sədr və onun 4 (dörd) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

**3.** Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

3.1.2. Cəmiyyətin icra orqanının yaradılması;

3.1.3. Cəmiyyətin İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a):

3.2.1. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş digər məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi;

3.2.2. bu Fərmanın 3.1-ci bəndində və 3.2.1-ci yarımbəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

**4.** Cəmiyyətin Müşahidə Şurası aşağıdakı səlahiyyətləri həyata keçirir:

4.1. Cəmiyyətin inkişaf strategiyasına və onun icrası ilə bağlı tədbirlər planına, habelə əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsinə və biznes planına dair Ümumi Yığıncağa təkliflər vermək;

4.2. Cəmiyyətin gəlirlər və xərclər smetalarını, o cümlədən büdcə proqnozlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək və icrasını təmin etmək;

4.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Ümumi Yığıncağa təkliflər vermək;

4.4. fəaliyyətinin səmərəliliyini artırmaq üçün etika, strateji planlaşdırma, risklərin idarə edilməsi və s. üzrə yardımçı komitələr yaratmaq və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə etmək;

4.5. Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin maliyyə planlaşdırılmasını təsdiq etmək və icrasını təmin etmək;

4.6. Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin nizamnamələrini təsdiq etmək;

4.7. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə Cəmiyyət tərəfindən hüquqi şəxslərin yaradılması, eləcə də onların idarəetmə orqanlarının üzvlərinin (rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;

4.8. Ümumi Yığıncağın razılığı ilə Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin strukturunu, işçilərinin say həddini, əməkhaqqı sistemini və əməyin ödənişi fondunu, ştat cədvəlini təsdiq etmək;

4.9. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək;

4.10. Cəmiyyətin daxili audit bölməsini təşkil etmək və onun əsasnaməsini Ümumi Yığıncaqla razılaşdırmaqla təsdiq etmək, əməkdaşlarını vəzifəyə təyin və vəzifədən azad etmək;

4.11. bu Fərmanın 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və Cəmiyyətin nizamnaməsi ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**6.** Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON):

6.1. Cəmiyyətin yeni nizamnaməsini və strukturunu üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 11, maddə 1196; 2025, № 8, maddə 749) ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı"nın 6-cı hissəsi və 8.5-ci bəndi ləğv edilsin.

**8.** "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 289 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 177 (Cild I) 3-cü və 4-cü hissələri ləğv edilsin.

**9.** "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2550 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 255 (Cild I); 2024, № 2, maddə 172) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**10.** "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 258 (Cild I); 2024, № 7, maddə 880) ləğv edilsin.

**11.** "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2554 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 259 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 may 2026-cı il**

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002 ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasova Mətanət Nizami qızı
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Mətləb Fətəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Axundov Əbülfəz Dadaş oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Aşurov Mustafa Əhməd oğlu
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva İnarə Əhməd qızı
Bayramov Təyyar Allahverdi oğlu
Behbudov Əşrəf Məhərrəm oğlu
Canbaxşiyev Səməd Canbağış oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Rasim Valeh oğlu
Cəfərov Samir Qadir oğlu
Cəfərzadə Fatimə Üzeyir qızı
Dubovitskaya Mariya Aleksandrovna
Eres Mətanət İslam qızı
Eyvazova Ayan Fuad qızı
Əfəndi Elçin Fərahim oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov Elşad Eldar oğlu
Əhmədov İbrahim Çingiz oğlu
Əhmədov İlyas Əhməd oğlu
Əkbərov Mir Qabil Qafil oğlu
Əliyev Abdulqəni Zəhmət oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyeva Arzu Qurban qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Ülviyyə Fərhad qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əlizadə Əli Oqtay oğlu
Əlizadə Şəhla Seidşah qızı
Əmiraslanlı Rəvanə Bahadur qızı
Əsədov İlham Əsəd oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əsgər Əkbər oğlu
Əskərov Emil Firuzəddin oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Ferştandt Anton Sergeyeviç
Fətullayev Aslan Miri oğlu
Gözəlova Maytab Valeh qızı
Hacıbabayev Elşən Atababa oğlu
Hacıyev Əli Yusif oğlu
Hacıyev Fuad Əhəd oğlu
Hacıyev Hacı Şamil oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyev Vüqar Aydın oğlu
Hacıyeva Fidan Hacıağa qızı
Hacıyeva Sevil İnşalla qızı
Heybətov Anar Mithət oğlu
Heydərova Elnarə Rafiq qızı
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Kərim Abbas oğlu
Həsənov Nicat Yusif oğlu
Həsənov Zaman Hüseyn oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynli Rauf Eyyub oğlu
Hüseynov Fizuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Fəridə Malik qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Xanəhmədov Səməd Budaq oğlu
Xanlarov Habil Tehran oğlu
Xəlilov Səbuhi Ağababa oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbrahimov Cavid Zəfər oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İsmayılov Vilayət Hidayət oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimduxt Rövşən Ramazan oğlu
Kərimova Nərgiz Faiq qızı
Klimaşeva Bella Vladislavovna
Kuxmazova Yulizana Şəfiyevna
Qarayev Elnar Cəfər oğlu
Qədiyev Seymur Ağaddin oğlu
Qəhrəmanov Abbas Əhməd oğlu
Qəribova Nargilə Dursun qızı
Qubadov Ceyhun Şahbala oğlu
Qulamov Samir Ceyhun oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Kamran Yusif oğlu
Quliyeva Şəlalə Şahvələt qızı
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mansurov Elxan Bəhram oğlu
Mansurova Səriyyə Mansur qızı
Mehdiyev İlkin İsgəndər oğlu
Mehdiyeva İrina Yurmiz qızı
Mehdiyeva Şarud Mehdi qızı
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədov Anar Vaqif oğlu
Məmmədov Asim Fərman oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Emil Əfrasiyab oğlu
Məmmədov Məmməd Əvəz oğlu
Məmmədov Murad Məmməd oğlu
Məmmədova Dinara Bəxtiyar qızı
Məmmədova Lalə Mirzəli qızı
Mikayılov Anar Şamil oğlu
Mikayılov Mikayıl Şamil oğlu
Miltıx Aleksey Leonidoviç
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəzadə Nicat Qərib oğlu
Musabəyli Nuridə Musa qızı
Mustafayev Arzu Əhməd oğlu
Nəbiyev Cəbrayıl Fərrux oğlu
Novruzov Əfsər Dilavər oğlu
Nuriyeva Sədaqət Məmmədağa qızı
Orucova Almaz Ədil qızı
Orucova Naidə Mülük qızı
Orucova Sevda Nəbi qızı
Osmanov Fuad Tacəddin oğlu
Osmanova Ayla Bəhram qızı
Ömərov Gümrah Rza oğlu
Poladov Əkram Nicad oğlu
Rəcəbli Məmməd Qüdrət oğlu
Rəcəbli Vidadi Həsən oğlu
Rəhimov Teymur Əsgər oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rzayev Ramin Sultan oğlu
Rzayeva Sevinc Əziz ağa qızı
Rzayeva Vəfa Əliseyran qızı
Salahov Əbülfət Yusif oğlu
Salamov İqrar Zakir oğlu
Seyidova Ceyla Uran qızı
Səfərova Kəmalə Mazanovna
Səlimli Mirbala Seyidəsgər oğlu
Səlimov Ruslan Xanbala oğlu
Səmədov Şükür Hacıbala oğlu
Səttərova Günay Nazim qızı
Süleymanova Ulduz İbrahim qızı
Şioşvili Leri Qiorqiyeviç
Şirinov Aslan Adil oğlu
Vəliyev Ramiz Hidayət oğlu
Vəliyeva Ləman Vəli qızı
Yahyayev Taleh Saleh oğlu
Yəhyayev Elgün Hafiz oğlu
Yusifova Təranə Əbülfəz qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zeynalov Cümşüd Nəriman oğlu
Zəki Mehriban Mürvət qızı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 may tarixli 589 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 5, maddə 475) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 may 2026-cı il**

# Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abbasov Adil Möhsün oğlu
Bağırova Sənubər Yusufovna
Həkimova Svetlana Calal qızı
Hüseynov Rövşən Maqsud oğlu
Mehdiyev Cahangir Yaqub oğlu
Məlik-Aslanov Ramiz Lütfəli oğlu
Məmmədov Alim Tahir oğlu
Məmmədova Rimma Şahbabayevna
Mustafayev Mustafa Şura oğlu
Nəsirova Hicran Fətəli qızı
Rəhimova Adilə Teymurovna.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 may 2026-cı il**

# Milli Məclisə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilib






**Mayın 7-də Aralıq Dənizi Parlament Assambleyasına üzv və tərəfdaş ölkələrin parlament sədrlərinin 1-ci Sammiti keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova Sammitdə iştirak edib.**

Tədbirdə çıxış edən Sahibə Qafarova son 20 il ərzində Aralıq Dənizi Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, strateji əhəmiyyətə malik regionda dialoqun, qarşılıqlı anlaşmanın, sülh və sabitlik naminə ortaq məsuliyyətin təşviqi baxımından mühüm platforma kimi özünü təsdiqlədiyini vurğulayıb. Azərbaycanın coğrafi baxımdan Aralıq dənizi regionunun bir hissəsi olmasa da, Aralıq dənizi hövzəsi və Körfəz ölkələri ilə uzunmüddətli əlaqələrə və konstruktiv münasibətlərə malik olduğunu bildirən Milli Məclisin Sədri deyib ki, ölkəmiz enerji marşrutlarının və təchizatının şaxələndirilməsi vasitəsilə regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfə verir.

Milli Məclisin Sədri parlamentlərin beynəlxalq münasibətlərdə getdikcə daha mühüm rol oynadığını və parlament diplomatiyasının dialoqun təşviq edilməsi, şəffaflığın artırılması və dövlətlər arasında etimadın möhkəmləndirilməsi vasitəsilə ənənəvi diplomatik kanalları tamamladığını söyləyib. O, parlament diplomatiyasının etibarlı, inklüziv olmasının və beynəlxalq hüquqa, demokratik prinsiplərə, eləcə də qarşılıqlı anlaşmaya əsaslanmasının vacibliyini vurğulayıb. O deyib ki, parlament diplomatiyası fikir ayrılıqlarının olduğu hallarda belə konstruktiv əməkdaşlıq üçün platforma təqdim etməlidir. Azərbaycan Milli Məclisi bu yanaşmanı dəstəkləyir və çoxtərəfli parlament platformaları çərçivəsində əməkdaşlığa xüsusi önəm verir. Bu kontekstdə Assambleyanın həm Azərbaycanın, həm də Ermənistanın parlamentlərinə müşahidəçi statusu verməsi qərarını müsbət qiymətləndirəm.

***XQ***

# Vilayət Eyvazov vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 6-da və 7-də İmişli rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə rayonda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında İmişli, Füzuli, Beyləqan, Xocavənd, Saatlı, Sabirabad və Kürdəmir rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 264 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 216 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# WUF13-ün Təşkilat Komitəsinin iclası




**Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halını aldığını bildirib. Samir Nuriyev WUF13-ün Azərbaycanın müasir şəhərsalma baxışının, dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələrin, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq modelinin beynəlxalq miqyasda təqdimatı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Cari 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin WUF13-ün əhəmiyyətini daha da artırdığı qeyd olunub. Belə ki, forumun bu çərçivədə il ərzində həyata keçirilən tədbirlərin məntiqi davamı və əsas beynəlxalq mərhələsi kimi çıxış etdiyi diqqətə çatdırılıb.

Samir Nuriyev forumda iştirak üçün bu günədək 177 ölkədən 28 mindən çox şəxsin qeydiyyatdan keçdiyini, onların təxminən yarısının xarici nümayəndələr təşkil etdiyini bildirərək, bunun WUF13-ə beynəlxalq marağın yüksək göstəricisi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçiriləcək Liderlərin Bəyanatları seqmentinin forumun siyasi və substantiv baxımdan əsas yeniliklərindən biri olduğunu, bu toplantının şəhərsalma və dayanıqlı məskunlaşma məsələlərini ali səviyyəli qlobal müzakirə predmetinə çevirəcəyini diqqətə çatdırıb.

Liderlər seqmentinə, həmçinin Azərbaycanın sədrliyi ilə keçiriləcək WUF13 Nazirlər Görüşünə, Azərbaycan tərəfindən təşkil olunacaq Xüsusi Sessiyaya, Azərbaycan pavilyonunda nəzərdə tutulan tədbirlərə və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin təqdimatına hazırlığın xüsusi diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, protokol, nəqliyyat və təşkilati-logistika sahələrində görülmüş işlər, habelə gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, WUF13-ün Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi sahəsində formalaşmış müsbət təcrübəsinin növbəti uğurlu nümunəsinə çevriləcəyinə əminliyini bildirib.

Samir Nuriyev WUF13-ə hazırlıq prosesinin yekun mərhələsində aidiyyəti qurumlar tərəfindən müvafiq məsələlərin operativ və uzlaşdırılmış qaydada həll edilməsi, həmçinin bütün istiqamətlər üzrə işlərin daha da intensivləşdirilməsi və başa çatdırılması barədə tapşırıqlar verib.

*XQ*

# "Reform UK" Britaniya siyasətini necə silkələyir?

## *Naycel Fərəc yenidən gündəmin mərkəzinə qayıdır*

**Uzun illər sabit parlamentarizm modeli ilə seçilən Böyük Britaniya dərin siyasi parçalanmanın yeni mərhələsinə daxil olub. Naycel Fərəcin rəhbərlik etdiyi "Reform UK" partiyasının sürətlə populyarlaşması Britaniya siyasi sistemində ciddi silkələnmə yaradıb. Bunun əsas səbəbi isə bir neçə il əvvəl kiçik qüvvə hesab edilən partiyanın bu gün həm Mühafizəkarların, həm də Leyboristlərin elektoratına təsir göstərməsidir. Xülasə, "Reform UK" artıq sistemə alternativ qüvvə kimi təqdim olunur. Hazırkı vəziyyət seçkiqabağı atmosferdə gərginliyi artırır, ideoloji qütbləşməni dərinləşdirir və Britaniya cəmiyyətində uzun müddətdir mövcud olan narazılıqları üzə çıxarır.**




İlk növbədə, qeyd edək ki, Naycel Fərəc Britaniya siyasətində yeni sima deyil. O, illərlə Avropa İttifaqına qarşı sərt mövqeyi, antiimmiqrasiya ritorikası və populist çıxışları ilə tanınıb. Əslində, Brexit prosesinin ideoloji memarlarından biri məhz Fərəc sayılır. Bir vaxtlar Britaniyanın Avropa İttifaqından çıxmasının mümkünsüz olduğunu düşünənlər sonradan onun siyasi kampaniyasının nə qədər böyük ictimai təsir yaratdığını gördülər. İndi oxşar dinamika yenidən müşahidə olunur. Fərq ondadır ki, bu dəfə söhbət bütövlükdə Britaniya siyasi sisteminə qarşı etimadsızlıqdan gedir. "Reform UK" partiyasının yüksəlişinin arxasında uzun illər ərzində yığılan sosial, iqtisadi və psixoloji narazılıqlar dayanır. Britaniyada inflyasiya, enerji qiymətlərinin artması, yaşayışın bahalaşması, səhiyyə sistemində böhran və qeyri-qanuni miqrasiya ilə bağlı narahatlıqlar əhalinin mühüm hissəsində mərkəzi hakimiyyətə inamsızlıq yaradıb. Həm Mühafizəkarlar, həm də Leyboristlər həmin problemlərin həllində kifayət qədər effektiv görünmədikcə, radikal ritorika daha çox diqqət cəlb etməyə başlayır.

Mühafizəkar Partiyasının vəziyyəti xüsusilə mürəkkəbdir. Çünki "Reform UK" ən çox məhz sağ elektoratı parçalayır. Uzun illər Britaniya sağının əsas dayağı olan Mühafizəkarlar Brexitdən sonra ciddi ideoloji böhran yaşamağa başladılar. Partiya daxilində fərqli qanadların toqquşması, tez-tez dəyişən baş nazirlər, iqtisadi problemlər və uğursuz qərarlar seçicilərin bir hissəsini uzaqlaşdırdı. Bu boşluğu isə Fərəc doldurmağa başladı. O, özünü "britaniyalıların səsi" kimi göstərir, siyasi elitanı xalqdan uzaq olmaqda, London mərkəzli siyasət yürütməkdə və milli maraqları qorumaqda zəif davranmaqda ittiham edirdi. Bu ritorika xüsusilə kiçik şəhərlərdə, sənaye bölgələrində və iqtisadi çətinlik yaşayan təbəqələr arasında rezonans doğurdu. Ənənəvi partiyalara etiraz edən seçicilər üçün "Reform UK" bir növ sistemə qarşı üsyan platformasına çevrildi. Lakin problemlər sadəcə iqtisadi çətinliklərlə bitmədi. Milli kimlik mövzusu da getdikcə daha həssas siyasi məsələyə çevrildi. Hazırda miqrasiya, multikulturalizm və təhlükəsizlik mövzuları ətrafında aparılan debatlar cəmiyyət daxilində emosional parçalanmanı artırır. "Reform UK" məhz sözügedən emosional boşluqdan istifadə edir. Partiya sərhədlərin daha ciddi qorunmasını, miqrasiya siyasətinin sərtləşdirilməsini və "Britaniya dəyərlərinin" müdafiəsini əsas prioritetlərdən biri kimi təqdim edir. Tənqidçilər hesab edirlər ki, bu ritorika cəmiyyətdə yadlaşmanı və dözümsüzlüyü gücləndirə bilər. Onların fikrincə, sosial problemlərin səbəbini yalnız miqrasiya ilə əlaqələndirmək populist yanaşmadır və uzunmüddətli həll təklif etmir. Fərəc tərəfdarları isə bildirirlər ki, illərlə problemlər barədə danışmaq siyasi düzgünlük adı altında tabu hesab olunsa da, indi sadəcə insanların real narahatlıqları dilə gətirilir.

Leyboristlər partiyası üçün də vəziyyət asan deyil. İlk baxışda "Reform UK" əsasən sağ seçiciləri cəlb etdiyi üçün Leyboristlər bundan faydalana bilərmiş kimi görünür. Amma reallıq daha mürəkkəbdir. Çünki partiyanın yüksəlişi ümumi siyasi sistemə qarşı narazılığı artırır və seçkilərin proqnozlaşdırılmasını çətinləşdirir. Bundan başqa, fəhlə sinfinə mənsub seçicilərin hakim siyasi dairələrə ritorikaya meyillənməsi Leyboristlər üçün risk yaradır. Nəzərə alınmalıdır ki, Britaniya siyasətində uzun müddət sinfi identiklik əsas rol oynayıb. İşçi sinfi daha çox Leyboristlərə, biznes və mühafizəkar təbəqələr isə Mühafizəkar Partiyaya səs verirdi. İndi isə mədəni və milli kimlik əsaslı siyasət sosial-iqtisadi bölgünü arxa plana keçirir. İnsanlar artıq milli kimlik, təhlükəsizlik, miqrasiya və qlobalizm kimi mövzulara münasibət əsasında siyasi seçim edirlər. Sözügedən dəyişikliklər Britaniyada siyasi dilin də sərtləşməsinə səbəb olub. Sosial şəbəkələrin təsiri, emosional kampaniyalar və populist çıxışlar ənənəvi siyasi debatları kölgədə qoyur. Naycel Fərəc həmin kommunikasiya mühitində daha rahat hərəkət edir. Bu isə siyasi sistemdən yorulan seçicilər üçün daha cəlbedici görünür.

Yeri gəlmişkən, bəzi analitiklər "Reform UK"nin yüksəlişini Brexit sonrası dövrün davamı hesab edirlər. Onların fikrincə, Brexit Britaniya cəmiyyətində dərin narazılığın siyasi partlayışı idi. Həmin narazılıq indi yeni formada yenidən ortaya çıxır. Fərq ondadır ki, əvvəl hədəf Brüssel idisə, indi hədəf birbaşa Britaniya siyasi sistemidir.

Sonda qeyd edək ki, ifrat sağın yüksəlişi demokratiya üçün müəyyən risklər də yaradır. Populist qüvvələr cəmiyyətin emosiyalarından istifadə edərək mürəkkəb problemləri həddindən artıq sadələşdirir və siyasi qütbləşməni artırırlar. Xüsusilə miqrasiya kimi həssas mövzuların aqressiv siyasi alətə çevrilməsi cəmiyyət daxilində qarşıdurma riskini yüksəldir.

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Naycel Fərəcin rəhbərlik etdiyi "Reform UK" partiyasının yüksəlişi Böyük Britaniyada ənənəvi iki partiyalı siyasi sistemin ciddi təzyiq altında olduğunu göstərir. Xüsusilə miqrasiya, yaşayış xərclərinin artması, milli kimlik və təhlükəsizlik məsələləri üzərindən aparılan populist kampaniyalar cəmiyyət daxilində narazılığı daha görünən edib. "Reform UK" uzun müddət əsasən etiraz elektoratının partiyası kimi qəbul olunsa da, artıq Mühafizəkar Partiyasının klassik seçici bazasına birbaşa təsir göstərməyə başlayıb. Bu isə sağ elektoratın parçalanmasına səbəb olur və nəticədə həm mühafizəkarların zəifləməsi, həm də parlament daxilində daha fraqmentləşmiş siyasi mənzərənin formalaşması ehtimalını artırır. Digər tərəfdən, Leyboristlər hakimiyyət perspektivini gücləndirsə də, ifrat sağ ritorikanın gündəmi müəyyən etməsi onları da daha sərt miqrasiya və təhlükəsizlik siyasətinə yaxınlaşmağa məcbur edə bilər.

Əsas risk isə cəmiyyət daxilində siyasi və sosial qütbləşmənin dərinləşməsidir. Son illərdə Brexit sonrası iqtisadi çətinliklər, regionlararası inkişaf fərqləri və dövlət institutlarına inamın zəifləməsi populist qüvvələr üçün münbit zəmin yaradıb. Əgər iqtisadi problemlər davam edərsə və ənənəvi partiyalar effektiv sosial-iqtisadi model təqdim edə bilməzsə, gələcəkdə "Reform UK" kimi qüvvələrin təsiri daha da arta bilər. Bu isə Britaniya siyasətində daha sərt milliyyətçi ritorikanın güclənməsi, miqrantlara münasibətin sərtləşməsi və küçə səviyyəsində radikal qrupların fəallaşması riskini artırır. Paralel olaraq, Şotlandiya və Şimali İrlandiya kimi regionlarda mərkəzi hakimiyyətə qarşı siyasi narazılıqların yenidən güclənməsi ehtimalı var ki, bu da Böyük Britaniyanın daxili siyasi sabitliyi üçün uzunmüddətli çağırış yarada bilər.

*Nəzrin ELDARQIZI*
*XQ*

**Üstündən 4 gün keçsə də, İrəvanın ev sahibliyi etdiyi "Avropa Siyasi Birliyi"nin 8-ci Sammiti hökumət və media dairələrində "tarixi diplomatik təntənə" kimi vəsf olunur. Ermənistanın, guya, nəhayət, Rusiyanın təsir orbitindən çıxması, "yeni Avropa arxitekturası"nın bir hissəsinə çevrilməsi tezisləri gündəmdən çıxmaq bilmir. Belə irimiqyaslı siyasi tədbirlərin keçirilməsini İrəvanın beynəlxalq səviyyədə tanınması, ölkə üçün az qala "geosiyasi dönüş anı" kimi təqdim edilir. Amma "Zirvə"lərin zahiri bər-bəzəyinin arxasından maraqlı olduğu qədər də real mənzərə boylanır. Həmin reallığın atributları Ermənistanın müstəqilliyinin təsdiqindən daha çox ölkənin yenidən xarici güc mərkəzləri arasında mübarizə meydanına çevrildiyinin növbəti isbatıdır. İrəvan "suveren seçim"dən nə qədər ucadan danışırsa, köhnə problem bir o qədər kəskin şəkildə özünü büruzə verir. Bu, Ermənistan dövlətinin xarici himayədarsız mövcud ola bilməməsi problemidir.**

# Gerçəyi diplomatik ədalarla, hay-küylə pərdələmək olmaz

Problemin mahiyyətində bu kiçik dövlətin "böyük güc"dən asılılığının klassik quruluşu dayanır. Həm bu, həm də ASB-nin İrəvan sammitində səslənən fikirlərə, eləcə də 2026-cı ilin aprelinin Azərbaycan diplomatiyası üçün yaddaqalan hadisələrlə zəngin ay olması ilə bağlı məsələlərə **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** yerli media seqmentinə verdiyi müsahibəsində aydınlıq gətirir.



***– Rasim müəllim, "Avropa Siyasi Birliyi"nin İrəvanda keçirilən səkkizinci sammiti sizin üçün nə ilə yadda qaldı?***

– Hər halda, birmənalı deyə bilərik ki, sammit iştirakçıları İrəvana Ermənistan–Azərbaycan münasibətlərini müzakirə etmək üçün toplaşmamışdılar. Məhz bu baxımdan deyə bilərik ki, sammit qarşıdakı parlament seçkilərində Nikol Paşinyana dəstək məqsədini daşıyırdı. Bundan çıxış edərək onu da əminliklə nəzərə çatdırım ki, İrəvan Zirvə görüşü nə regional və qlobal problemlərin ciddi siyasi müzakirəsi, nə də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Paşinyana dəstək aksiyası kimi "Avropa Siyasi Birliyi"nin müasir tarixində heç bir iz buraxmayacaq. İndi gözləyək görək, Avropa siyasiləri sammitin tribunasından dediklərini, heç olmasa, Ermənistan kontekstində, maddiləşdirməyi bacaracaqlarmı?



***– Bəli, hamıya məlum idi ki, Birliyin bu cür yarımformat sammitinin təşkili və keçirilməsi Makronun ideyası olub və o, İrəvan müzakirələrində özünü "əsərin qəhrəmanı" kimi aparırdı. Çıxışlarında isə Ermənistanın Rusiyadan uzaqlaşdığı, Avropanı seçdiyi barədə danışırdı. Bu barədə nə deyə bilərsiniz?***

– Makron böyük planlardan, yüksək dəyərlərdən danışmağı çox xoşlayır. Bəs reallıq nə deyir? Reallıq ondan ibarətdir ki, Azərbaycanın Türkiyənin timsalında strateji müttəfiqi var. Biz artıq bu müttəfiqliyin maddiləşdirilmiş aspektlərini əyani şəkildə göstərə bilərik. Mən bunu deyəndə həm ortaq neft-qaz kəmərlərini, həm də qarşılıqlı investisiya layihələrini nəzərdə tuturam. Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard dollar, qardaş ölkə də ölkəmizdə müxtəlif sahələrə 18 milyard dollara yaxın sərmayə qoyub. Hərbi sahədə əməkdaşlığa gəldikdə isə, ikitərəfli layihələrin həcmi Ermənistanın Fransa ilə imzaladığı hərbi-texniki sazişlərində nəzərdə tutulan maliyyədən on dəfələrlə çoxdur. Tutaq ki, onlar İrəvanda ikitərəfli əməkdaşlığa dair növbəti kağızı imzaladılar, nə olsun? Fransa Ermənistanın xarici ticarət partnyorları içərisində heç ilk "beşlik"də yer almır. İrəvanın Tehranla ticarət mübadiləsinin həcmi Fransa ilə ticarətindən qat-qat çoxdur. Əsl reallıq bundan ibarətdir. Baxmayaraq ki, Makron çıxışlarında pafosla dərin münasibətlərdən, əməkdaşlıqdan danışır, Paşinyan isə ona "züy tuturdu". Aydın məsələdir ki, seçki ərəfəsində bu təmaslar, çıxışlar Paşinyan üçün olduqca vacibdir. İkitərəfli strateji əməkdaşlıq müqaviləsi, təhlükəsizlik vədləri və sair öz yerində qalsın, real ölçüdə isə, təkrar edirə, İrəvan – Paris əlaqələrini Bakının Ankara ilə bütün sahələr üzrə sıx əməkdaşlığını müqayisə etmək mümkün deyil.

***– "Avropa Siyasi Birliyi"nin sammiti çərçivəsində başqa bir tədbir – Avropa İttifaqı–Ermənistan sammiti keçirildi və Birgə Bəyannamə imzalandı. Həmin sənəddə Avropa institutunun Paşinyanın "Sülh kəsişməsi", eləcə də TRIPP layihəsinə dəstəyindən də bəhs edilir. Müqayisəyə gəlməyən bu iki ifadənin yanaşı işlədilməsi nədən xəbər verir?***

– TRIPP marşrutunu yönləndirən və idarə edən Birləşmiş Ştatlardır və Vaşinqton bu məqsədlə artıq 140 milyon dollar vəsait ayırıb. Əgər onlar TRIPP-i, sadəcə, bərpa ediləcək dəmir yolu, yüksək buraxıcılıq qabiliyyətinə malik nəqliyyat qovşağı kimi deyil, gələcəkdə həm Naxçıvanı, həm də qismən Ermənistanı "mavi yanacaq"la təmin edən qaz boru xəttinin çəkilişini də nəzərdə tuturlarsa, bu, başqa məsələdir. Onu da istisna etmək olmaz ki, əgər bu marşrutdan, misal üçün, Türkmənistanın böyük həcmdə qazının Azərbaycandan və Türkiyədən keçməklə Avropaya nəqli baş verərsə, təbii ki, bu zaman yeni boru kəmərinə ehtiyac yaranacaq. Əlbəttə, bu, bizim istəyimizdən asılı olan məsələ deyil. Əgər Mərkəzi Asiyadan qaz Azərbaycandan tranzitlə nəql olunarsa, bu, Türkmənistan – Avropa İttifaqı layihəsi adlanacaq. Yalnız bu halda Avropa İttifaqı TRIPP layihəsində dediyimiz, yaxud digər formada iştirak edə bilər. Bilirsiniz əsas sual nədən ibarətdir? Sual odur ki, Ermənistanın dəmir yolu şəbəkəsini hələ də Rusiya Dəmir Yolu Şirkəti idarə edir. Bu şirkət isə Avroparlamentin sanksiyaları altındadır. Paşinyanın ortaya atdığı həmin "Sülh kəsişməsi" ideyası isə Ermənistanın həm Türkiyə, həm də Azərbaycanla dəmir yolu infrastrukturunun bərpasını və təzələnməsini tələb edir. Avropa İttifaqı bu yol qovşaqlarının bərpasına maliyyə vəsaiti ayıra bilərmi? Ən böyük sual budur. Bu zaman Avropa İttifaqı Naxçıvan dəmir yolunun işlək hala gətirilməsi üçün də maliyyə vəsaiti ayırmalı olacaq. Yalnız bu variantda birlik TRIPP layihəsinin reallaşmasında iştirak edə bilər.

***– Aprel diplomatik cəbhədə Azərbaycan üçün çox zəngin və əhatəli ay oldu. Yüksək səviyyəli qəbullar, görüşlər, tədbirlər və bir sıra xarici ölkələrin dövlət və hökumət başçılarının, o cümlədən Şimali avropalıların səfərləri. Bu müstəvidə Baltikyanı ölkələrin Azərbaycana meyillənməsi maraq doğurur. Siz bunun səbəbini nədə görürsünüz?***

– Azərbaycanın enerji resurslarının Baltikyanı ölkələrə çatdırılması dolayısı ilə mümkün ola bilər. Zənnimcə, onları maraqlandıran, misal üçün, Neft Fondumuzda böyük miqdarda toplanmış ehtiyatlardır. Bəli, Azərbaycan bu ehtiyatları ən etibarlı ünvanlara yönəltmək, yerləşdirmək barədə düşünür. Aydın məsələdir ki, Baltikyanı respublikaların rəhbərliyi bu vəsaiti investisiya formasında öz iqtisadiyyatlarına cəlb etmək istəyirlər. Vaxt var idi ki, həm Baltikyanı, həm də Şərqi Avropa ölkələrinin büdcələrinin 40-45 faizini Avropa İttifaqının köməyi ilə formalaşırdı. Bu mərhələ artıq başa çatıb. İndi onlar illərlə yaratdıqları sosial infrastrukturu saxlamaqdan ötrü kənarda maliyyə təminatı axtarırlar. Əgər təqdim etdikləri layihələr Bakı üçün cəlbedici və faydalı olarsa, əlbəttə, qarşılıqlı münasibətləri bu istiqamətdə də inkişaf etdirmək mümkündür. Niyə də olmasın?

*İmran BƏDİRXANLI*
*XQ*

# Fransanın ikili siyasəti və Azərbaycanın suverenlik mövqeyi

**Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baronun Fransa Senatında Azərbaycan əleyhinə səsləndirdiyi iddialar və buna cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin verdiyi sərt reaksiya Cənubi Qafqaz ətrafında formalaşan yeni geosiyasi mübarizənin növbəti epizodu kimi qiymətləndirilə bilər.**

Fransanın xarici işlər naziri tərəfindən "Dağlıq Qarabağ" ifadəsinin yenidən işlədilməsi, əslində, ciddi siyasi və diplomatik məzmun daşıyır. Heç bir beynəlxalq hüquqi sənəddə "Dağlıq Qarabağ" ayrıca siyasi subyekt və ya müstəqil status vahidi kimi tanınmayıb. Əksinə, beynəlxalq sistemin əsas aktorları uzun illər boyu Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi qəbul etdiklərini rəsmi şəkildə bildiriblər. 2020-ci ildən sonra yaranmış yeni geosiyasi reallıq isə bu məsələni faktiki və hüquqi baxımdan tam şəkildə yekunlaşdırıb.

Belə bir şəraitdə rəsmi Parisin köhnə terminologiyanı davam etdirməsi onun regiona münasibətdə hələ də postmünaqişə reallığını tam qəbul etmədiyini göstərir. Burada əsas məqam ondan ibarətdir ki, terminologiya üzərindən aparılan siyasət gələcək diplomatik diskursun çərçivəsini müəyyənləşdirir. Yəni "Dağlıq Qarabağ" ifadəsinin istifadəsi dolayısı ilə bölgənin status məsələsinin hələ də açıq olduğu görüntüsünü yaratmağa xidmət edir. Halbuki Azərbaycan mövqeyinə görə status məsələsi artıq tarixə çevrilib və regionda əsas müzakirə predmeti reinteqrasiya, təhlükəsizlik və kommunikasiyaların açılmasıdır.

Parisin ritorikasında müşahidə olunan selektiv yanaşma onun daha çox müəyyən siyasi xəttin tərəfdarı kimi çıxış etdiyini göstərir. Son illər Fransa Senatında qəbul olunan anti-Azərbaycan qətnamələri, Ermənistanla hərbi əməkdaşlığın genişləndirilməsi və Avropa platformalarında Bakıya qarşı siyasi təzyiq cəhdləri bu tendensiyanın davamı kimi qiymətləndirilir. Digər mühüm məqam isə informasiya-siyasi müstəvidə legitimlik uğrunda mübarizədir. Hər hansı bölgənin necə adlandırılması onun hüquqi və siyasi statusuna dair beynəlxalq təsəvvür formalaşdırır. Buna görə də Azərbaycan "Qarabağ iqtisadi rayonu", "Azərbaycanın Qarabağ bölgəsi" kimi ifadələrin istifadəsini təşviq etməklə, yeni siyasi reallığın beynəlxalq diskursda möhkəmlənməsinə çalışır. Fransanın köhnə terminologiyaya qayıtması bu prosesə siyasi müqavimət elementi kimi görünür.

Burada daha dərin geosiyasi aspekt də mövcuddur. Fransa Cənubi Qafqazda öz təsir imkanlarını saxlamaq üçün Ermənistan faktorundan istifadə etməyə çalışır. Xüsusilə Avropa İttifaqı daxilində geosiyasi aktivliyini artırmaq istəyən Paris regionda özünü əsas siyasi aktorlardan biri kimi təqdim etməyə çalışır.

Azərbaycan Xarici İşlər Nazirliyinin reaksiyasında diqqətçəkən əsas məqamlardan biri Fransanın açıqlamalarının beynəlxalq hüquqa zidd və regionda yeni gərginlik yarada biləcək təhrikedici ritorika kimi təqdim olunmasıdır. XİN-in açıqlaması göstərir ki, Bakı artıq Qarabağ məsələsinə keçmiş münaqişə prizmasından deyil, dövlət suverenliyinin tam bərpası və hüquqi legitimliyin təmin olunması çərçivəsindən yanaşır.

Məhz bu kontekstdə açıqlamada istifadə olunan "haqq-ədalət müharibəsi" ifadəsi siyasi və ideoloji yük daşıyır. Azərbaycan bu termin vasitəsilə 2020-ci il Vətən müharibəsini beynəlxalq hüququn pozulmuş normalarının bərpası prosesi kimi təqdim edir. Əslində, Bakı son illər diplomatik diskursunu sistemli şəkildə dəyişir. Əvvəllər beynəlxalq platformalarda əsas vurğu "münaqişənin həlli" üzərində qurulurdusa, indi "postmünaqişə reallığı", "regional reinteqrasiya", "suverenliyin tam təmin olunması" və "ərazi bütövlüyünün bərpası" anlayışları ön plana çıxarılır. Fransanın ritorikasına sərt cavab verilməsi məhz bu narrativin müdafiəsi ilə bağlıdır. Bakı hesab edir ki, regionda status məsələsini yenidən gündəmə gətirməyə çalışan və ya köhnə siyasi terminologiyanı saxlayan yanaşmalar yeni geosiyasi reallığa uyğun deyil və sülh prosesinə mənfi təsir göstərir. Digər mühüm aspekt isə Azərbaycanın beynəlxalq hüquqa istinad etməklə öz mövqeyini legitimləşdirməsidir. XİN-in reaksiyası göstərir ki, Bakı öz fəaliyyətini BMT Nizamnaməsi, dövlətlərin ərazi bütövlüyü prinsipi və beynəlxalq hüququn fundamental normaları ilə əsaslandırmağa çalışır. Fransanın mədəni irs məsələsini yenidən gündəmə gətirməsinin arxasında isə daha geniş siyasi və geosiyasi məqsədlərin dayandığı müşahidə olunur. Son illər Paris Qarabağ məsələsində humanitar, dini və mədəni irs mövzularını ön plana çıxarmaqla regiondakı proseslərə normativ-humanitar çərçivədən təsir göstərməyə çalışır. Fransanın ritorikasında xüsusilə erməni dini-mədəni irsinin taleyi ilə bağlı vurğuların ön plana çəkilməsi diqqət çəkir. Paris bu mövzu üzərindən beynəlxalq ictimaiyyətdə müəyyən emosional və siyasi həssaslıq formalaşdırmağa çalışır. Xüsusilə Qərb siyasi dairələrində "mədəni irsin təhlükə altında olması" narrativi insan hüquqları və humanitar təhlükəsizlik kontekstində daha sürətli rezonans doğurduğundan, Fransa bu mövzudan aktiv diplomatik alət kimi istifadə edir. Lakin Azərbaycanın reaksiyası bu yanaşmanın selektiv xarakterini ön plana çıxarmağa hesablanıb. Rəsmi Bakı haqlı olaraq Ermənistanın işğalı dövründə Azərbaycan ərazilərində yüzlərlə məscidin, türbənin, qəbiristanlığın və tarixi-mədəni abidələrin dağıdıldığını xatırladır. Bu arqumentin əsas siyasi gücü ondadır ki, Azərbaycan Fransanın humanitar ritorikasındakı ikili standartları göstərməyə çalışır.



Azərbaycan uzun illər işğal altında olan ərazilərə beynəlxalq missiyaların göndərilməsini tələb etdiyini vurğulayaraq, əslində beynəlxalq təşkilatların passivliyini və bəzi hallarda siyasi təsirlər altında fəaliyyət göstərdiyini nümayiş etdirməyə çalışır. Fransa isə əksinə, postmüharibə dövründə mədəni irs məsələsini ön plana çıxarmaqla siyasi gündəliyi humanitar çərçivədə formalaşdırmağa çalışır. XİN-in açıqlamasında UNESCO məsələsinə xüsusi vurğu edilməsi Azərbaycanın son illərdə beynəlxalq təşkilatlarla bağlı formalaşdırdığı siyasi yanaşmanın mühüm elementlərindən biridir.

Azərbaycanın əsas arqumenti ondan ibarətdir ki, işğal dövründə Qarabağ və ətraf ərazilərdə mədəni və dini irsin dağıdılması ilə bağlı beynəlxalq missiyaların göndərilməsi təşəbbüsləri illərlə nəticəsiz qalıb. Bakı dəfələrlə UNESCO-nu həmin ərazilərə faktaraşdırıcı və qiymətləndirmə missiyası göndərməyə çağırsa da, bu təşəbbüslər müxtəlif siyasi maneələrlə qarşılaşıb. Azərbaycan tərəfi hesab edir ki, həmin dövrdə beynəlxalq təşkilatların passivliyi regionda baş verən mədəni vandalizm faktlarının lazımi səviyyədə beynəlxalq gündəmə çıxmasına mane olub. Azərbaycanın vurğuladığı digər mühüm məqam isə ikili standartlar problemidir. Rəsmi Bakı hesab edir ki, işğal dövründə dağıdılmış Azərbaycan mədəni irsi ilə bağlı beynəlxalq reaksiyanın zəif olması, lakin postmüharibə dövründə erməni irsi məsələsinin daha fəal şəkildə gündəmə gətirilməsi balanssız yanaşma təsiri yaradır. Baş verənlər daha geniş geosiyasi kontekstdə də qiymətləndirilməlidir. Fransa son illərdə Cənubi Qafqazda öz təsir imkanlarını artırmağa çalışır. Xüsusilə Ermənistanla hərbi-siyasi əməkdaşlığın genişləndirilməsi, İrəvana silah tədarükü və anti-Azərbaycan ritorikasının intensivləşməsi Parisin regionda balanslı vasitəçi statusundan uzaqlaşdığını göstərir. Bu isə Fransanın ATƏT-in Minsk qrupu dövründən qalan vasitəçilik legitimliyinə ciddi zərbə vurur.



Son olaraq qeyd edək ki, mövcud proseslər göstərir ki, postmünaqişə mərhələsində informasiya müharibəsi və diplomatik narrativlər ən az hərbi və siyasi faktorlar qədər əhəmiyyətlidir. XİN-in çevik reaksiyası da məhz bu yeni mərhələdə Azərbaycanın beynəlxalq informasiya məkanında mövqelərini müdafiə etmək strategiyasının tərkib hissəsi kimi qiymətləndirilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# ASB-nin İrəvan toplantısı

## *Zirvəyə çıxarmaq, yoxsa zirvədən yıxmaq?*

**Əlbəttə, "Avropa Siyasi Birliyi"nin Ermənistanda keçirilmiş VIII Zirvə toplantısı böyük hadisədir. Hər halda, yaşadığımız Cənubi Qafqaz coğrafiyasında belə bir miqyaslı tədbirin təşkili, "köhnə qitə" liderlərinin bir araya gəlib mühüm müzakirələr aparmaları adi məsələ sayıla bilməz. Heç şübhəsiz, 2028-ci ildə Bakıda düzənlənəcək X Zirvə toplantısı da əlamətdar səciyyə daşıyacaq. İndilik isə Ermənistandakı tədbirlə bağlı bəzi məqamların vurğulanmasına ehtiyac var. O məqamlar ki, özündə xeyirdən çox, zərər daşıyır.**

Əvvəlcə onu bildirək ki, Ermənistan heç vaxt müstəqil siyasət aparmayıb. Uzun müddət ölkə Rusiyanın forpostu olub, 2018-ci ildə Baş nazir Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra isə Qərbin peyki rolunda çıxış edib. Halbuki, belə olmamalı idi... Axı məhz forpostluq ampluası erməni dövlətinin inkişafına mane olub. Üstəlik, erməni amili tarixən böyük güclər üçün məkrli ssenarilərinin, Cənubi Qafqazda və bütövlükdə regionda nifaq və təfriqənin aləti olub. Nəticədə kvaya, obrazlı desək, yem kimi bəsləyirlər. Eynilə Ukrayna kimi.

Axı Rusiya-Ukrayna müharibəsi birincinin ikincinin ərazi bütövlüyünə və suverenliyinə qəsbi reallığını daşısa da, bu savaş yekun nəticə etibarilə Qərbin Kiyevi və Moskvanı eyni dərəcədə sürüklədiyi girdabdır. Hər halda, tərəflərin danışıb mübahisəli məsələləri öz aralarında həll etmələri üçün imkanlar olub və hələ də var. Ancaq Rusiya-Ukrayna müharibəsi 2022-ci ildən başlayaraq, hər gün



yüzlərlə can almaqda, faciələrə, məhrumiyyət və acılara, misli görünməmiş dağıntılara yol açmaqdadır. İki qardaş xalq bir-birinin qanını içir və bu durum həm də Ermənistana toplaşmış Avropa liderlərinin vicdanına yazılmalıdır.

Bəli, Qərb "Avropa Siyasi Birliyi"nin İrəvan zirvəsindən Rusiyada qıcıq yaratmaq üçün geninə-boluna istifadə etdi. Toplantı çərçivəsində institutsional məsələlərdən çox, Ermənistanın demokratik dövlət obrazının təbliğatı aparıldı. Bu dövlətin "avtoritar Rusiyaya qarşı mübarizə potensialı" ortaya qoyuldu. Halbuki, qıcıq qondarmağa əsla ehtiyac yox idi. Bu yerdə, istər-istəməz, Gürcüstan parlamentinin sədri Şalve Papuaşvilinin bu yaxınlarda açıqladığı fikirlər yada düşür. Cənab Papuaşvili Qərbin ölkəsini Kremlə qarşı qaldırmaq niyyətlərindən söz açmış və bildirmişdi ki, bunun qarşılığında ölkəyə heç bir real dəstək, onun itirəcəklərinin təzminatına yönələn hansısa konkret vəd verilmir, sadəcə, Gürcüstan Rusiya ilə tam perspektivsiz münaqişəyə çəkilirdi. İndi Ermənistana verilən vədlər də söz yığınından başqa bir şey deyil. Bu mənada, kifayət qədər geniş məzmuna malik Ermənistan–Aİ Birgə Bəyannaməsi gerçək faydaları mücərrəd qalan kağız parçasıdır. Bu sənəd, el dilində deyildiyi kimi, susuz quyuya su tökməklə onu doldurmaq cəhdi və ya balıq tutmağı öyrətmək yox, hazır balıq vədidir.

Ermənistana və erməni toplumuna hazır balıq yox, balıq tutmağı öyrənmək lazımdır. Bunun yolu region ölkələri, xüsusən, Azərbaycan və Türkiyə ilə səmimiyyətdən, əməkdaşlıqdan, ən başlıcası, möhkəm və dayanıqlı sülhdən keçir. Sülh üçün isə sərsəm siyasi klişelərdən, yəni Qarabağ avantürasından, bütövlükdə münaqişə məntiqindən uzaq durmaq şərtdir. Hazırda Paşinyan iqtidarı bu yolu tutsa da, xaricdən Ermənistan üçün tamamilə başqa gündəmin formalaşdırılması cəhdlərini görürük. Söhbət Fransanın buyruq quluna çevrilmiş Avropa Parlamentinin Qarabağ ermənilərinin bölgəyə təhlükəsiz qayıdışı ritorikasından gedir. O ritorika ki, zamanında rəsmi İrəvan tərəfindən də irəli sürülmüşdü və məqsədi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək idi.

Aydındır ki, təhlükəsiz və ləyaqətli qayıdış deyimlərinin arxasında Qarabağı Azərbaycanın tərkibində olsa da, əlahiddə statusda rəsmiləşdirmək, durumu beynəlxalq ictimai rəyə "yedirtmək" istəyi dayanırdı və yenə də dayanmaqdadır. Bu istək isə Qarabağ avantürası üçün gələcək formalaşdırmaq, ölkəmizin daxilinə saat mexanizmli bomba yerləşdirmək məqsədinin ifadəsidir. Başqa cür düşünmək üçün əsas yoxdur.

Ona görə başqa cür düşünmək mümkünsüzdür ki, Azərbaycan dövləti həm 2023-cü ilin sentyabrına qədər, həm də ondan sonra Qarabağ ermənilərinin Azərbaycanda qalmaları, onların təhlükəsiz şəkildə ömür sürmələri üçün hər cür şərait yaradılacağını bəyan etmişdi. Lakin Ermənistan hakimiyyəti, habelə onun xaricdəki havadarları məsələnin belə qoyuluşu ilə razılaşmadılar və Qarabağdan erməni köçünə start verildi. Elə isə sual yaranır: əgər ermənilər bölgədə qalmaq istəyirdilərsə, nə üçün yaşadıqları yerləri tərk etdilər? Yaxud Qarabağdakı ermənilərin bölgədə qalmaları arzulanırdısa, nəyə görə tez bir zamanda ərazidən çıxarıldılar? Sözümüz ondadır ki, Fransa və Qərb dünyasını böyük ölçüdə nə Ermənistan, nə Qarabağ ermənilərinin qayıdışı, nə də real təhlükəsizlik məsələləri maraqlandırır. Əsas istək Ermənistanın köməyi ilə Cənubi Qafqazda Rusiyanın mövqelərini zəiflətmək və regionda möhkəmlənməkdir. Ən qəribəsi isə budur ki, Qərbdə bu məqsədə çatmaq üçün keçmişin üfunət qoxuyan klişelərinə baş vurulur. Yəni canını tapşırmış "Qarabağ kartı"nın yenidən işə salınmasına cəhdlər göstərilir. Elə zənn edilir ki, ermənilər üçün həssas məsələ sayılan Qarabağ mövzusu onların hazırkı anti-Rusiya dirənişində də mühüm halqaya, mənəvi istinadgaha çevriləcək. Təxminən belə: Qarabağın ermənilərə məxsus olmasını istəməyən Rusiyadır, Ermənistanı müharibə meydanında tək qoyan Moskvadır. Makron İrəvanda 2020-ci ilin 44 günlük müharibəsini məhz buna görə yada saldı. Nəinki yada saldı, hətta ağ yalan danışaraq bildirdi ki, guya, savaş zamanı Ermənistanı və erməni xalqını dəstəkləyən yalnız Fransa olub.

hay cəmiyyətində dövlətçilik şüur və təfəkkürü axsayıb. Ermənilər həmişə kimlərinsə onlar üçün nə isə edəcəkləri təsəvvürü ilə yaşayıblar ki, 44 günlük müharibədən sonrakı proseslər bu sayaq gözləntilər üçün, bir növ, ölüm hökmü çıxardı.

Erməni toplumu ancaq özünə güvənərək yaşamağı öyrənməlidir. Baş nazir Paşinyan son illər bu baxışın cəmiyyətə hakim kəsilməsi üçün bir sıra işlər görür. Onun mövcud istiqamətdə durmadan təbliğat apardığı diqqətdən yayınmır. Ancaq hesab edirik ki, "Avropa Siyasi Birliyi"nin İrəvan toplantısı region üçün hər nə qədər böyük miqyaslı hadisə olsa da, Paşinyanın vurğuladığımız təbliğatını heçə endirdi. Bu mənada, Fransa Prezidenti Emmanuel Makronun İrəvanda izdiham qarşısındakı nitqi vurğulanmalıdır. Makron, sanki, potensial elektorata deyil, balaca uşaqlara müraciət ünvanlayır, onlara çox primitiv tərzdə seçkidə Paşinyanı dəstəkləmələrinin zəruriliyini anladırdı. Fransa Prezidenti elə davranırdı ki, guya, ölkəsi və bütövlükdə Avropa erməniləri himayə altına alıb. O zaman sual olunur: Belə bir təqdimat nə üçündür? Yəni onun zərər trayektoriyasını görmək beləmi çətindir? Məgər Ermənistan və ermənilər dünyadan bu qədərmi təcrid durumdadırlar? Bəlkə Makron hayları fransız müstəmləkələrinin sakinləri ilə səhv salır? Suallar çoxdur, cavablar isə...

Əlrəqəz, Makronun və digər Avropa liderlərinin ortaya qoyduqları yaramaz və səmərəsiz ritorika sayəsində "Avropa Siyasi Birliyi"nin İrəvan toplantısı Qərbin Ermənistan üçün müdafiə çətiri görüntüsü yaratmaqdan başqa bir şey olmadı. Yəni tədbirin faydaları bu görüntünün altında əzilib qaldı. Ən əsası isə elə rəy formalaşdı ki, Qərb dairələri ölkəni yalnız geniş anti-Rusiya cəbhəsinin Cənubi Qafqaz səngəri kimi görür, onu Mos-

Sonda ümumiləşdirmə aparaq və onu da bildirək ki, "Avropa Siyasi Birliyi"nin İrəvanda keçirilmiş VIII Zirvə toplantısı fonundakı diqqətçəkən məqam Qərbin Ermənistanı qarşıdurma məkanı kimi təsəvvürə gətirməsidir. Açıq şəkildə Ermənistan-Rusiya ziddiyyətlərinə siyasi sərmayə yatırıldığı hiss olunmaqdadır. Halbuki, birinciyə ikinci ilə xoş münasibətlərin saxlanılması vacibdir. Ermənistanın Rusiya ilə həm xoş, həm də bərabərtərəfli əlaqələrinin qorunması üçün isə Moskvanın əminliyi şərtdir. Yəni Şimalda əmin olmalıdırlar ki, Cənubi Qafqaz Rusiyanın sivil şəkildə, klassik jandarm funksiyasından kənar təmsil olunacağı əməkdaşlıq məkanıdır və mövcud platformada hansısa qütbün, o cümlədən Kremlin özünün də dominantlığına imkan verilməyəcək. Bunun yolu Ermənistanın siyasi oyun qaydalarına ciddi şəkildə riayət etməsindən, xariclə məsafəli, yəni balanslı münasibət saxlamasından keçir.

*Ə.CAHANGİROĞLU*
*XQ*

**"İnkişaf yalnız sülhün bərqərar olduğu şəraitdə mümkündür. Cənubi Qafqazdakı mövcud vəziyyət burada böyük inkişaf potensialının olduğunu göstərir. Bu proses nəqliyyat infrastrukturunun təkmilləşdirilməsindən, regional nəqliyyat şəbəkəsinin blokadadan çıxarılmasına dair razılaşmaların icrasından və TRIPP layihəsi çərçivəsində yeni logistika marşrutlarının yaradılmasından başlayır. Öz növbəsində inkişaf da regionda sülhün möhkəmlənməsinə xidmət edəcək".**

# İrəvanda "sülhü yenidən öyrənmək" dərsləri

## *Baş diplomatın müavininin bu etirafı görünməyən mətləbləri də üzə çıxarır*




Bu fikirləri Ermənistan xarici işlər nazirinin müavini Robert Abisoqomonyan "İrəvan dialoqu" konfransında səsləndirib. Onun sözlərinə görə, nəqliyyat infrastrukturu həm Ermənistanın, həm də Azərbaycanın maraqlarının kəsişdiyi əsas nöqtədir: "Bu amil sülhü təmin etməklə yanaşı; inkişaf, daha dərin institusionallaşma və sülhün möhkəmlənməsi üçün zəmin yaradacaq. Müstəqilliyimizin 30 ili ərzində cəmiyyətimiz belə bir sülh görməyib. Biz sülh içində yaşamağın nə demək



olduğunu bilmirik və bunu öyrənməliyik".

Nazir müavini regional əməkdaşlığın dayanıqlı inkişafın təmin olunmasında həlledici faktor olduğunu vurğulayıb. Çıxışda xüsusilə struktur məhdudiyyətlərlə üzləşən ölkələr üçün sülh, sabitlik və kommunikasiyaların bərpasının həyati əhəmiyyəti qeyd olunub. Abisoqomonyan beynəlxalq donorlar və inkişaf agentlikləri ilə tərəfdaşlığın strateji əhəmiyyətini önə çəkərək, bu əlaqələrin yaxın gələcəkdə konkret və nəzərəçarpacaq nəticələr verəcəyini diqqətə çatdırıb.

*

Regionda onilliklər boyu davam edən münaqişələr qapalı kommunikasiya xətləri və dərin etimadsızlıq mühiti təkcə iqtisadi tərəqqini ləngitməyib, həm də xalqlar arasında ciddi psixoloji baryerlər yaradıb. Bu baxımdan, nazir müavininin səsləndirdiyi tezislər regionun gələcək arxitekturası ilə bağlı yeni və daha konstruktiv siyasi yanaşmanın formalaşdığından xəbər verir. Çıxışda sülhün və inkişafın ayrılmaz vəhdət şəklində təqdim olunması Cənubi Qafqazın cari geosiyasi reallıqlarını və tərəqqi ehtiyaclarını birbaşa əks etdirir.

Uzun illər region dövlətləri təhlükəsizlik məsələlərini iqtisadi əməkdaşlıqdan üstün tutmağa çalışıblar. Nəticədə nəqliyyat marşrutları bağlanıb, sərhədlər qapadılıb, regional layihələr isə siyasi gərginliyin girovuna çevrilib. Halbuki müasir dünya təcrübəsi göstərir ki, davamlı sülh yalnız iqtisadi inteqrasiya və qarşılıqlı asılılıq fonunda mümkündür. Abisoqomonyanın vurğuladığı kimi, inkişaf sülh şəraitində yaranır, eyni zamanda, inkişafın özü də sülhü möhkəmləndirən əsas amilə çevrilir. Bu fikir xüsusilə Cənubi Qafqaz kimi geosiyasi baxımdan həssas region üçün mühüm əhəmiyyət daşıyır.

Nazir müavininin çıxışında nəqliyyat infrastrukturu məsələsinə xüsusi diqqət ayrılması da təsadüfi deyil. Çünki regionun gələcəyi məhz kommunikasiya xətlərinin açılması, tranzit imkanlarının genişlənməsi və yeni logistika marşrutlarının formalaşması ilə sıx bağlıdır. Ermənistan və Azərbaycan arasında kommunikasiyaların bərpası yalnız iki ölkə üçün deyil, bütövlükdə regionun iqtisadi xəritəsi üçün yeni reallıq yaradır. Açıq yollar və inteqrasiya olunmuş nəqliyyat sistemi regionu beynəlxalq ticarətin mərkəzlərindən birinə çevirər.

*(ardı 5-ci səhifədə)*

# İki gün gizli saxlanılan səfər

## BCM rəhbərinin İrəvan səfərinin pərdəarxası məqamları

**Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) sədri Tomoko Akane mayın 5-də ilk dəfə Ermənistana səfər edib. Lakin onun səfəri və Ermənistanın ədliyyə naziri Srbui Qalyan, həmçinin baş prokuror Anna Vardapetyanla görüşü barədə yalnız mayın 7-də məlumat yayılıb.**

Ermənistan Baş Prokurorluğunun mətbuat xidmətinin məlumatına görə, Akane və Vardapetyan görüş zamanı ikitərəfli əməkdaşlığın inkişafının və institusional tərəfdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar. Xüsusilə beynəlxalq cinayətlərin təhqiqatı sahəsində prokurorların potensialının artırılması məsələsinə diqqət yetirilib. Cinayət prosesində sübutların toplanması, zərərçəkənlərin və şahidlərin müdafiəsi ilə bağlı məsələlər də müzakirə olunub. “Ermənistanın baş prokuroru Beynəlxalq Cinayət Məhkəməsi ilə birgə tədris proqramlarının




həyata keçirilməsində, texniki əməkdaşlığın genişləndirilməsində və təcrübə mübadiləsi mexanizmlərinin hazırlanmasında maraqlı olduğunu bildirib. Tərəflər səmərəli və şəffaf əməkdaşlıq mexanizmlərinin inkişaf etdirilməsinə və konstruktiv dialoqun davam etdirilməsinə hazır olduqlarını təsdiqləyiblər”, – deyə qurum bildirib. Görüşdə, həmçinin Ermənistanın Niderlanddakı səfiri Viktor Biyaqov, BCM ofisinin rəhbəri Hirad Abtahi və digər rəsmi şəxslər iştirak ediblər.

Ədliyyə Nazirliyindən bildirilib ki, Akane “İrəvan dialoqu” adlı üçüncü beynəlxalq konfransda iştirak etmək üçün Ermənistana gəlib. BCM rəhbəri Ermənistanın ədliyyə naziri ilə görüşdə İrəvanın Roma statutunun praktik tətbiqini sürətli və effektiv şəkildə təmin etməyə hazır olduğunu yüksək qiymətləndirib. Tərəflər Roma statutundan irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə ediblər. Məlumatda qeyd olunur ki, BCM ekspertləri Ermənistan qanunvericiliyinin Roma statutuna uyğunlaşdırılması prosesinə dəstək göstəriblər.

Dünən Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın da BCM sədri ilə görüşünə dair məlumat yayılıb. “Armenpress” agentliyinin XİN-in mətbuat açıqlamasına istinadən verdiyi məlumata görə, görüşdə Ermənistanla BCM arasında əməkdaşlıq, beynəlxalq hüquq normalarına riayət olunması və beynəlxalq səylərdə iştirak məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Ermənistan 2024-cü il fevralın 1-dən rəsmi olaraq BCM-in üzvü olub. Ölkə BCM-in yaradılmasına dair 1998-ci il iyulun 17-də İtaliyanın paytaxtı Romada keçirilən diplomatik konfransda qəbul olunan beynəlxalq müqaviləni (digər məsələlərlə yanaşı, məhkəmənin funksiyalarını, yurisdiksiyasını və strukturunu müəyyən edən müqavilə daha çox hüquqi terminlə statut adlandırılır–S.H.) 2023-cü ilin oktyabrında ratifikasiya edib.

Ermənistan rəhbərliyi o dövrdə BCM-ə qoşulmasını Azərbaycanı hansısa “hərbi cinayətlərə görə” məsuliyyətə cəlb etmək niyyəti ilə (?) əsaslandırmışdı. Lakin Roma statutunun ratifikasiyasından sonra bu istiqamətdə, demək olar ki, heç bir addım atılmayıb. Çünki ölkəmizi “hərbi cinayətlərdə” ittiham edənlər bununla bağlı iddialarına dair ortaya əsaslandırılmış sübutlar təqdim edə bilməyiblər. Beləliklə, qarşı tərəfin arzu və istəyi, necə deyərlər, ürəyində qalıb. Vəziyyətin belə olduğunu görən rəsmi İrəvan Azərbaycanla sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında saziş layihəsi üzərində işi intensivləşdiriblər. Bu isə son nəticədə, 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan Prezidenti və Ermənistan Baş naziri arasında sazişin paraflanmasına gətirib çıxarıb. Bunun əvəzində isə digər adı Haaqa məhkəməsi olan qurumun Rusiya Prezidenti Vladimir Putinin həbsi ilə bağlı order verməsi fonunda Moskva–İrəvan münasibətlərində gərginlik yaranıb.

*

BCM sədrinin İrəvana ilk səfəri “İrəvan dialoqu” adlı beynəlxalq konfransda iştirak kimi təqdim olunsa da, səfərin məzmunu və keçirilən görüşlərin xarakteri göstərir ki, əsas diqqət Ermənistanın Roma statutundan irəli gələn öhdəlikləri necə icra etməsinə yönəlib. Təsadüfi deyil ki, Ermənistanın Ədliyyə Nazirliyi və Baş Prokurorluğu ilə aparılan müzakirələrdə məhz “praktik tətbiq”, “institusional əməkdaşlıq”, “qanunvericiliyin uyğunlaşdırılması”, “beynəlxalq cinayətlərin təhqiqatı”, “sübutların toplanması” kimi məsələlər ön plana çıxarılıb. Bu isə onu deməyə əsas verir ki, BCM rəhbərinin səfəri sırf protokol xarakterli olmayıb.

Tomoko Akanenin Ermənistana gəlişinin ölkəmizdə diqqətlə izlənilməsi tamamilə təbiidir. Çünki rəsmi İrəvan uzun müddət BCM-ə üzvlüyünü Azərbaycan əleyhinə hüquqi-siyasi alət kimi təqdim etməyə çalışıb. Ermənistan hakimiyyəti yuxarıda qeyd etdiyimiz kimi, Roma statutunun ratifikasiyası dövründə açıq şəkildə bəyan edirdi ki, guya, Azərbaycanı “hərbi cinayətlərə görə” beynəlxalq məsuliyyətə cəlb etmək niyyətindədir. Lakin aradan keçən müddətdə bu istiqamətdə ciddi hüquqi nəticə ortaya çıxarmaq mümkün olmadı. Bunun başlıca səbəbi isə Ermənistan tərəfinin iddialarını təsdiqləyəcək əsaslı hüquqi sübut bazası formalaşdıra bilməməsidir. Başqa sözlə, siyasi ritorika ilə hüquqi reallıq arasında ciddi fərq özünü göstərib. Məhz buna görə də BCM rəhbərinin məlum səfəri diqqətdən kənarda qala bilməzdi. Çünki burada söhbət təkcə Ermənistanın beynəlxalq hüquqi institutlarla münasibətlərindən yox, həm də regionda formalaşan yeni siyasi konfiqurasiyadan gedir. Xüsusilə, Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasına qədər irəliləyiş əldə olunduğu bir vaxtda belə səfərlər əlavə suallar doğurur.

Diqqətçəkən məqamlardan biri də odur ki, Akanenin səfəri mayın 5-də baş tutsa da, bu barədə məlumat yalnız iki gün sonra – mayın 7-də ictimailəşdirildi. Diplomatik praktikada bu cür gecikmiş açıqlamalar adətən təsadüfi olmur. Bu, ya görüşlərin həssas xarakter daşıdığını, ya da tərəflərin ilkin reaksiyaları və mümkün siyasi rezonansı hesablamağa çalışdıqlarını göstərir. Ermənistan hakimiyyətinin BCM mövzusunda həm Moskvanın, həm də region ölkələrinin reaksiyasını nəzərə almağa çalışdığı istisna deyil. Xüsusilə nəzərə alsaq ki, Ermənistanın BCM-ə qoşulması Rusiyada ciddi narazılıq yaratmışdı və V.Putinin həbsi ilə bağlı order fonunda bu məsələ Moskva–İrəvan münasibətlərində əlavə gərginlik mənbəyinə çevrilmişdi.

Səfərlə bağlı başqa bir diqqətçəkən detal isə Ermənistan Baş nazirinin BCM rəhbərini qəbul etməməsidir. Halbuki söhbət sıradan beynəlxalq təşkilat rəhbərindən deyil, qlobal hüquq sisteminin ən mühüm institutlarından birinin sədrindən gedir. Üstəlik, Ermənistan hakimiyyəti son illərdə BCM üzvlüyünü mühüm siyasi qərar kimi təqdim edib. Belə olan halda Paşinyanın görüşdən kənarda qalması müxtəlif yozumlara yol açır. Bir ehtimal budur ki, rəsmi İrəvan BCM məsələsini bilərəkdən daha çox hüquqi-texniki müstəvidə saxlamağa çalışır və onu yüksək siyasi nümayiş predmetinə çevirmək istəmir. Digər ehtimal isə bundan ibarətdir ki, Paşinyan hakimiyyəti Moskva ilə onsuz da mürəkkəb olan münasibətləri daha da gərginləşdirməkdən yayınmağa çalışır.

Bütün hallarda, Tomoko Akanenin İrəvana ilk səfəri Ermənistanın BCM üzvlüyünün formal prosedur mərhələdən praktik icra mərhələsinə keçdiyini göstərir. Ermənistan qanunvericiliyinin Roma statutuna uyğunlaşdırılması, hüquq-mühafizə orqanlarının BCM standartlarına inteqrasiyası və institusional əlaqələrin genişləndirilməsi artıq konkret gündəm kimi ortaya çıxır. Bunun regionun siyasi və hüquqi balansına necə təsir göstərəcəyi isə qarşıdakı mərhələdə daha aydın görünəcək.

***Səxavət HƏMİD***
***XQ***

# İrəvanda “sülhü yenidən öyrənmək” dərsləri

*(əvvəli 4-cü səhifədə)*

Abisoqomonyanın “biz sülh içində yaşamağın nə demək olduğunu bilmirik və bunu öyrənməliyik” fikri isə adi siyasi bəyanat deyil, daha çox sosial etirafdır. Bu ifadə onilliklər boyu davam edən münaqişələrin təkcə dövlət sərhədlərini deyil, həm də cəmiyyətlərin şüur mənzərəsini necə parçaladığının göstəricisidir. Otuz illik qarşıdurma dövründə region xalqları şüuraltı səviyyədə bir-birini qonşu deyil, yalnız potensial təhlükə mənbəyi kimi görüb. “Müharibə psixologiyası” nəsillərin dünyagörüşünə elə dərin nüfuz edib ki, bu gün sülh anlayışı bir çoxları üçün tanış olmayan, hətta qeyri-müəyyənlik doğuran hissə çevrilib.

Əslində, nazir müavininin “sülh mədəniyyəti”nin inşası istəyi ciddi strateji çağırışdır. Beynəlxalq təcrübə göstərir ki, dayanıqlı sülh yalnız hərbi əməliyyatların dayandırılması deyil, həm də fərqliliklərlə birgə mövcud olmağın sosial mexanizmlərinin yaradılmasıdır. Beləliklə, region ölkələri üçün əsas hədəf sülhü sadəcə bir “pauza” kimi deyil, uzunmüddətli iqtisadi tərəqqi və regional sabitliyin başlıca şərti kimi qəbul etməkdir. Cənubi Qafqazın gələcəyi bu mürəkkəb psixoloji maneəni necə aşacağından və sülhü gündəlik həyatın bir parçasına necə çevirəcəyindən asılı olacaq.

*

Avropa da iki ölkə arasında əməkdaşlıqda maraqlıdır. Bu kontekstdə Avropa İttifaqı ilə Ermənistan arasında imzalanmış birgə bəyannamədə TRIPP layihəsinə verilən dəstək, regiona artan beynəlxalq marağın strateji göstəricisidir. Beynəlxalq aktorlar Cənubi Qafqaza artıq yalnız münaqişə prizmasından deyil, Avropa ilə Asiyanı birləşdirən mühüm iqtisadi və logistik qovşaq kimi yanaşırlar. Qara dəniz, Mərkəzi Asiya və Cənubi Qafqaz arasında nəqliyyat bağlılığının gücləndirilməsi Brüssel üçün enerji təhlükəsizliyi və ticarət yollarının şaxələndirilməsi baxımından əhəmiyyət kəsb edir. Lakin regional logistika sahəsində əsas məsələ gurultulu şüarlar deyil, real şəraitdə işləyə bilən mexanizmlərdir. Məhz burada bir disproporsiya diqqət çəkir: Avropa İttifaqı Ermənistanda “Sülh kəsişməsi” təşəbbüsünə üstünlük versə də, bu layihə 2023-cü ilin oktyabrından bəri infrastruktur təminatı və beynəlxalq zəmanətlər olmadan kağız üzərində qalan konsepsiyadır. Daha məntiqli yanaşma ötən ilin avqustunda “Tramp Marşrutu” üzrə əldə olunmuş razılaşmalara dəstək verməkdir. Çünki bu layihə real, strateji baxımdan hesablanmış təşəbbüs kimi regional logistikanın əsas dayaq konstruksiyasını formalaşdırır.

TRIPP layihəsinin əhəmiyyəti də məhz burada ortaya çıxır. Layihə region ölkələrini iqtisadi inteqrasiyaya cəlb etməklə, Cənubi Qafqazı qlobal sistemin mühüm halqasına çevirmək potensialına malikdir. İqtisadi asılılıq dərinləşdikcə münaqişə risklərinin azaldığı dünya təcrübəsi ilə sübut olunub.



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin müdiri Aqil Əsədov** bildirib ki, Cənubi Qafqazda davamlı sülh və əməkdaşlığın təmini üçün TRIPP dəhlizinin açılması zəruridir: “Dəhlizin açılması Azərbaycan və Ermənistanın xarici bazarlara çıxışını asanlaşdırmaqla yanaşı, iki ölkə arasında ticarət əlaqələrinin canlanmasına güclü təkan verəcək. Beynəlxalq yükdaşımaların intensivləşməsinə şərait yaradan bu marşrut dünya ticarətinin inkişafına və qlobal miqyasda mal dövriyyəsinin daha balanslı bölüşdürülməsinə mühüm töhfə olacaq, regionda sülhə xidmət edəcək”.

Ekspertin sözlərinə görə, Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində qəbul edilmiş davamlı və sistemli qərarlar nəticəsində bu gün ölkəmiz istənilən növ daşınmanı həyata keçirməyə, qəbul etməyə, saxlamağa və yola salmağa qadirdir.

Beləliklə, proseslər region ölkələrinin siyasi iradəsindən birbaşa asılıdır. Xarici aktorlar yalnız dəstək verə bilər, lakin real sabitliyi təmin edəcək əsas amil region dövlətlərinin qarşılıqlı etimad qurmaq bacarığıdır. Ermənistan rəsmisinin çıxışında Azərbaycanla münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanmasına dair fikirlərin xüsusi vurğulanması göstərir ki, artıq İrəvanda regional əməkdaşlığın alternativsiz olduğu açıq şəkildə qəbul edilir. Region ölkələri qarşıdurma siyasətindən əməkdaşlıq modelinə keçə bilsələr, Cənubi Qafqaz uzun illərdən sonra sabitlik və rifah məkanına çevrilmək şansı qazana bilər. Bu isə sülhün və əməkdaşlığın önəmini artırır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Avropanın “hay ləyaqəti” və Ermənistandakı ruspərəst davakarlar

*(əvvəli 1-ci səhifədə)*

Görünən odur ki, ölkədə bu il iyunun 7-də keçiriləcək parlament seçkiləri fonunda anti-Azərbaycan təmayül aktivləşməkdədir. O təmayül ki, özündə Qarabağ avantürasını daşıyır. O təmayül ki, Qarabağ ermənilərinin bölgəyə ləyaqətli qayıdışı kimi sərsəm tezisə əsaslanmaqla, erməni ictimai rəyini çaşdırmağa, sadə ermənilərdə qıcıq formalaşdırmağa və bu yolla onların səsini əldə etməyə hesablanıb.

Əslində, BMTM-nin münasibəti Avropa institutlarının diqqətini argentinalı dələduz Okamponun hərəkətlərinə çəkmək məqsədi daşımışdı. Ancaq o da vurğulanmışdı ki, sızdırılan görüntülər xarici lobbi aparatının Ermənistanın daxili siyasətinə təsir göstərərək ölkənin, eləcə də regionun maraqlarına xidmət etməyən, əksinə, davamlı münaqişədən qazanc əldə edənlərin gündəliyini dəstəklədiyini aşkara çıxarır: “Belə vəziyyətdə Avropa institutlarının reaksiyası sükut olmamalıdır”.



Milli Məclisin deputatı Elçin Mirzəbəylinin təbirincə desək, bu dəli sükut bir yetim təsəlli yoğura bilmir. Təəssüf ki, bəzi Avropa institutlarının ölkəmizə qarşı münasibətində müsbət təsəlli tutacağımız yoxdur. Bu azmış ki, Ermənistanda parlament seçkilərinə yaxınlaşdıqca, həmin institutların da anti-Azərbaycan köklənişi güclənir. Ona görə BMTM-nin açıqlamasında bildirilib ki, “Avropa Parlamentinin Ermənistan–Azərbaycan məsələlərinə dair qəbul etdiyi qətnamələr, xüsusilə aprelin 30-da qəbul edilən son sənəd sülh prosesindən daha çox rusiyameyilli müxalifətin siyasi ritorikasına uyğun ifadələr ehtiva edirsə, bu da yeni faktlar fonunda ciddi şəkildə nəzərdən keçirilməlidir”.

İstər-istəməz sual yaranır: Avropa Azərbaycan–Ermənistan sülhünü əngəlləmək üçün Baş nazir Nikol Paşinyanın seçki məğlubuna çevrilməsinədəmi razıdır? Görəsən, “köhnə qitə”dəkilərə Cənubi Qafqazda münaqişə ocağının qalması bu qədər vacibdir? Nəhayət, ortada daha böyük ziddiyyət var. Belə çıxır, Ukrayna müharibəsində qatı anti-Rusiya mövqeyinə malik Avropa Ermənistanla bağlı məsələdə Moskva ilə əlbirdir. Başqa cür düşünməyə əsas yoxdur. Bəlkə qitədəkilər 2018-ci ildə Ermənistanda həyata keçirdikləri inqilabın nəticələrini “dəfn etməyə” çalışırlar?

Əlqərəz, Ermənistanda yaxınlaşmaqda parlament seçkiləri fonunda “Qarabağ kartı”nın yenidən işə salındığının şahidiyik. Yəqin bununla bağlı anonsun Rusiya Prezidenti Vladimir Putin tərəfindən N.Paşinyan Moskvada olarkən verildiyinin fərqindəsiniz. İndiki durumda Avropanın məhz bu anonsdan irəli gələrək davrandığının şahidiyik. Haqqında söz açdığımız ən böyük paradoks da məhz budur.

Baxın, Avropa Parlamenti aprelin 30-də qətnamə yayır və həmin sənəddə Qarabağ ermənilərinin bölgəyə ləyaqətli qayıdışını ortaya atır. Ortaya başqa bir sual da çıxır: Ləyaqətli qayıdış nə deməkdir? Cavab sadədir: Ləyaqətli qayıdış Qarabağı Azərbaycanın tərkibində olsa belə, əlahiddə statuslu bir bölgə kimi vurğulamaq. Elə bir bölgə ki, daim onu ölkəmizdən qoparmaq mümkün olsun. Halbuki, erməni iqtidarı hazırda belə bir vəzifənin onun üçün heç bir əhəmiyyət daşımadığını dəfələrlə vurğulayıb. Ermənistandakı revanşist və şovinist kəsim isə Qarabağ avantürasını parlament seçkiləri ilə bağlı siyasi diskursa çevirib.

Qeyd edək ki, Ermənistandakı şovinist və revanşist kəsim öz baxışlarını, guya, Azərbaycanın Baş nazir Nikol Paşinyan iqtidarın müdafiə etməsi xüsusunda ortaya atır. Mövcud fonda elə təbliğat aparılır ki, sanki, Azərbaycan dövləti Nikola əks düşərgənin iqtidara yiyələnməsindən çəkinir. Halbuki, rəsmi Bakının nədənsə ehtiyatlanması mümkünsüzdür və bu barədə sonda söz açacağıq. Hələlik isə...

Yaxşı olar ki, kimlərsə qaranlıq otaqda qara pişik axtarışına çıxmasınlar. Həm də ona görə çıxmasınlar ki, o “pişiyi” Paşinyan və komandası 2020-2025-ci illərdə heç də az axtarmamış və tapa bilməmişdi. Konkret desək, hazırkı erməni iqtidarı həmin illərdə ən müxtəlif üsullarla Azərbaycana təzyiq göstərilməsinə nail olmağa, “Qarabağ kartı”nı yenidən dövriyyəyə atmaq naminə çalışmışdı.

Bəli, vaxt var idi, Avropa Parlamentinin qətnamələri Nikol və tərəfdarları tərəfindən açıq şəkildə dəstəklənirdi. Vaxt var idi, barəsində söz açdığımız Luis Morena Okampo İrəvanda yüksək səviyyədə qarşılanırdı. Yeri gəlmişkən, sonuncu dəfə belə bir qarşılanma 2024-cü ildə olmuşdu. Axı erməni iqtidarı bu beynəlxalq dələduzun Ermənistana Qarabağ avantürasının davamında dəstək göstərəcəyinə ümid bəsləyirdi.

Onu da deyək ki, Azərbaycan dövlətinin qətiyyəti sayəsində bütün bu kimi ümidlər “basdırıldı”. Hazırda okampoların vaxtilə qaldırdığı tezislər hay müxalifəti tərəfindən seçki ritorikasının vacib mövzusuna çevrilirsə, belə təəssürat var ki, xarici qüvvələr “Qarabağ kartı”nı əldə bayrağa çevirənlərin iqtidara yiyələnmələrində maraqlıdırlar. Daxildəki revanşistlərin anti-Azərbaycan təbliğata girişmələri, həmçinin onların ölkəmizin Paşinyanın qalibiyyətində maraqlı olmasına dair fikirlər tirajlamaları da məhz buna görədir.

Bəli, hazırda Ermənistanda “Qarabağ kartı”ndan uzaq duranlara münasibətdə antipatiya formalaşdırılır. Mövcud fonda bir daha bildirək ki, Azərbaycanın Ermənistanda hansı qüvvənin hakimiyyətə yiyələnməsi baxımından strateji baxışı yoxdur. Ölkəmiz sülhə və barışa köklənib. Rəsmi Bakı bu baxımdan Paşinyan və komandasını daha optimal sayır. Yəni Ermənistanda kimsə düşünməsin ki, yaşanacaq əks proseslər ölkəmizin ovqatına mənfi təsir göstərəcək. Çünki Azərbaycan bütün parametrlər üzrə Ermənistandan qat-qat yüksəkdədir.

Əgər İrəvanda hakimiyyətə iddialı hansısa qüvvə itirilmişlərin bərpasına, o cümlədən Qarabağ avantürasına yenidən start verməyə çalışsa, birmənalı şəkildə başı əziləcək. Yəni Prezident İlham Əliyevin təbirincə desək, həmin qüvvələr qarşılarında “dəmir yumruq” görəcəklər. Ona görə Avropa dairələri Ermənistan daxilindəki rusbaşlı revanşistlərin sərsəm musiqilərinə züy tutmaqdan uzaq dayanmalı, siyasi oyunbazlıqdan əl çəkməlidirlər. Onlar nəzərə almalıdırlar ki, ermənilərin ləyaqətli şəkildə yaşayacaqları Ermənistan Respublikası adlı dövlət var. O dövlət ki, sərhədləri bəllidir və indiki halda beynəlxalq hüquqla qorunur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Heydər Əliyev: liderliyin konseptual kodları



## III MƏQALƏ

### Azərbaycançılıq və müstəqillik

Təbii ki, Azərbaycan dövlətçiliyi prinsipində "Azərbaycan dövləti" anlayışı mərkəzi yer tutmalıdır. Həmin prinsipdə Azərbaycan dövləti "Azərbaycan xalqının öz tarixi ərazisində" formalaşmış idarəetmə sistemi kimi təsnif edilir. Azərbaycançılıq baxımından burada "xalqın tarixi ərazisi" ifadəsinin mühüm anlamı mövcuddur.

Birincisi, "Azərbaycan dövləti" anlayışı ciddi tarixi kontekstə malikdir. Yəni azərbaycançılıq prinsip kimi çoxəsrlik bir tarixi dönəmdə "Azərbaycan dövləti" anlayışı dövlətçiliyin əhatə etdiyi bütün siyasi-coğrafi məkanı ehtiva edir. Bu o deməkdir ki, tarixi dönəmdən asılı olaraq Azərbaycan dövlətinin ərazisinin genişlənməsi və ya kiçilməsi həlledici meyar deyildir. Burada başlıca məqam dövləti azərbaycanlıların (türklərin) qurması və onu öz identikliyinin hüdudları daxilində qoruyub saxlaya bilməsdir.

Həmin anlamda azərbaycançılıq prinsipi birbaşa "müstəqil dövlət" anlamına bağlıdır. Yəni faktiki olaraq azərbaycançılıq özündə dövlətçiliyi ehtiva edən ideya, konsept və konsepsiyadır!

Burada ideyanın prinsip kimi dövlətçiliyə bağlanması olduqca əhəmiyyətli məqamdır. Bu, azərbaycanlıların dövlətqurucu qövm təşkil etdiklərinin göstəricisidir. Azərbaycançılıq "müstəqil Azərbaycan dövləti" anlamının semantik hüdudlarından kənarda mövcud deyildir və ya romantik mahiyyət daşıyır. Azərbaycançılığın ideya kimi dövlətçiliyin təməlində durması anlamı, ümumiyyətlə, müstəqil olmanın fəlsəfəsinin ana tezisidir. Burada "müstəqilliyin" iki anlamını vurğulamaq lazımdır.

Birincisi, azərbaycançılıq müstəqil toplum və müstəqil dövlət olmanın ideya bazasıdır. Azərbaycan cəmiyyəti azərbaycançılığı özünüdərkin atributu qismində tam qəbul etdikdə (inklüziv və legitim) öz mahiyyətində müstəqil ola bilər. Ulu öndər Heydər Əliyevin "mən fəxr edirəm ki, azərbaycanlıyam" məşhur kəlamının fəlsəfi və politoloji məna çalarlarını bu kontekstdə bir daha xatırlamaq olar.

Azərbaycanlı olmağın fəxarətini daxili yaşantı kimi duymaq Heydər Əliyev liderliyinin vacib kodlarından biridir. Çünki azərbaycançılıq elə azərbaycanlılığı daxili tələbat olaraq dərindən duymaqdan başlayır. Azərbaycanlılığın emosional-psixoloji artefaktlığı sosial praktika sayəsində intellektual fakta çevrilir. Azərbaycanlılıq intellektual fakt kimi azərbaycançılıq ideyasının nüvə obrazıdır.

İkincisi, buradan mənəvi, rasional və praktiki sferaların qarşılıqlı əlaqəsi azərbaycançılığı intellektual fakt qismində konseptə, konsepsiyaya və ideologiyaya proyeksiya edə bilir. Azərbaycançılıq məfkurəsi həmin idraki və sosial-mədəni mexanizmlərin vəhdətində azərbaycanlılığın Aristotel mənasında bitkin yekun mərhələsidir. Azərbaycanlılıq azərbaycançılıq məfkurəsində özünü tam olaraq təsbit edir, tapır və o keyfiyyətdə özyetərli olur. Yəni müstəqilliyini toplum miqyasında tam "dərk edir". Azərbaycançılıq ideologiya kimi müstəqilliyin daxili "canatması" (Aristotel mənasında) halına gəldiyində "Azərbaycan dövləti" ideyası reallaşma mərhələsinə qədəm qoyur.

Beləliklə, Azərbaycan dövləti ideya kimi özündə azərbaycançılığı və müstəqilliyi "xalqın tarixi ərazisi" anlamını ehtiva etməklə, əvvəlcə dövlət obrazını intellektual fakt kimi yaradır, sonra isə onu praktika ilə sıx münasibətlər sayəsində ideya-konsept-konsepsiya-məfkurə vəhdəti kontekstinə proyeksiya edir. Bununla toplum (xalq) həm özünün müstəqillik idealını yarada bilir, həm də onun praktiki gerçəkləşməsinə dövlət qurmaqla nail olmanın anlamına varır. Burada başqa bir mühüm məsələ "Azərbaycan dövləti" prinsipi kontekstində vurğulanmışdır.

### Çoxəsrlik dövlətçilik ənənəsi

Dövlətçiliyin bir ənənə olması hər bir qövm üçün mühüm məsələdir. "Azərbaycan dövləti" prinsipində dövlətin "xalqın öz tarixi ərazisində çoxəsrlik ənənələri olan" idarəetmə sistemi kimi dərk edilməsi buna görə çox əhəmiyyətlidir. Başqa məqamlarla yanaşı, həm də ona görə ki, bu tezisdə dövlətçilik üçün strateji vacibliyi olan iki faktor - ərazi və ənənənin sintezi vardır. Azərbaycan dövlətçiliyi xalqın tarixi ərazisində əsrlərlə formalaşan bir ənənədir! Bu keyfiyyətdə Azərbaycan dövlətçiliyinin özünəməxsus təkamül dinamikası mövcuddur ki, davamlılıq əsas parametrlərdən biridir. Yəni Azərbaycanda dövlət quruculuğu bir proses kimi oturuşmuş dövlətquruculuğu təcrübəsidir!

Dövlətçilik ənənəsi yalnız dövlət quruculuğunun təcrübə kimi prosessuallıq kəsb etməsi şərti daxilində konseptuallıqla praktikiliyin "semantik və feili kəsişmə sahəsi"ndə əyaniləşə (əmələgəlmə, predmetləşmə anlamında) bilir. Onu da vurğulayaq ki, tarixi faktlara görə, heç də hər bir qövm davamlı dövlətçilik təcrübəsi yarada bilmir. Bunun üçün, bizcə, güclü və praktiki səmərəsi olan baza ideya lazımdır. Elə bir ideya ki, ən çətin dönəmlərdə belə toplumda dövlətçilik duyğusunu və fəaliyyət intensiyasını (Aristotel anlamında reallaşmaya canatma hərəkiliyi) aktuallaşdıra və reaktuallaşdıra bilsin.

Vurğuladığımız bu baxış bucağının işığında azərbaycançılığın dövlətqurmaq kontekstində tarixi dinamikası çox maraqlıdır. Nəyi nəzərdə tutduğumuzu izah edək.

Azərbaycan dövlətçiliyi tarixi dönəmlərdə siklik (dövrü) trayektoriya üzrə özünü təsdiq etmiş və mövcudluğuna varmışdır. Lakin onun ideya kimi təzahür formaları zahirən fərqli olmuşdur. Çox uzun müddət tam haqlı olaraq Azərbaycan dövlətçiliyi ümumtürk kontekstində xüsusi yeri və gücü olan prosessual faktor kimi yer tutmuşdur.

Bundan başqa, tarixin bir dönəmində dövlətqurma prosesi müxtəlif çəkişmələrin intensiv surətdə "at oynatdığı" bir sahə olmuşdur. Məsələn, 2-3 əsr bir çox güclü Azərbaycan dövlətləri savaşmışlar. Ancaq ondan sonrakı mərhələdə dövlət quruculuğu səngimiş və müəyyən müddətdən sonra ciddi çətinliklərlə rastlaşmışdır. Bu, qeyri-xətti və fərqli ritmlərlə dövlət quruculuğu prosesinin davam etməsi deməkdir.

Lakin "müstəqil dövlət" anlayışının Avropa kriteriyaları çərçivəsində formalaşması son bir neçə yüz ili əhatə edir. Bu kriteriyalara dünyanın müxtəlif bölgələrində qurulan dövlət modelləri uyğun deyildir. Yeni dövr Avropa dövlət modelinə qədər dünya üzrə qurulan dövlət modelləri fərqli olmuşdur.

Bununla bağlı filosoflar, politoloqlar və konkret dövlətşünaslar arasında ciddi müzakirələr və mübahisələr indi də davam edir. Hətta bir sıra alim hesab edir ki, müasir Avropa dövlət quruculuğu standartına uyğun olmayan, lakin tarixdə dövlət kimi təsnif edilən idarəetmə sistemləri psevdodövlətlər olaraq tərif edilə bilərlər. Bir başqa yanaşmada imperialist dövlətlərin də əsl dövlət olmadığı iddiası irəli sürülür. Liberalizmdə dövləti "gecə gözətçisi" statusuna endirmək cəhdləri hamıya məlumdur. Digər nümunələr də göstərmək olar.

### Fundamental məsələ

Amma və lakin... Burada bir mühüm məqam gözdən qaçırılır ki, bizcə, dövlət məsələsinə tarixi reallıq aspektində uyğun gəlmir. Bunun səbəbi isə əsassız olaraq son yüzillərin Avropa siyasi şüurunda formalaşmış təsəvvürləri sərhədsiz və hüdudsuz zaman-məkan kontekstində bəşər tarixinin bütün dönəmlərinə universal kriteriyalar kimi sırımaqla bağlıdır.

Qərbin bir sıra tanınmış yaradıcı insanları bu cür yanaşmanı "fərqli mədəniyyətlərə hörmətsizlik" kimi dəyərləndirmişlər (məsələn, O.Şpenqler, Orteqa və Hasset, M.Maklüyen, B.Anderson və b.). B.Anderson millətlər və millətçiliklə bağlı yazdığı məşhur əsərində bu barədə açıq fikir bildirmişdir. Müasir sinergetiklər sırasında da çoxlu sayda alimlər vardır ki, eyni fikri bölüşürlər.

Bu cür yanaşmanı əsaslandırmaq çətin deyildir. Çünki tarixin hər bir dönəmində dünyanın müxtəlif regionlarında yaşayan toplumlar fərqli konkret reallaşma forması üzrə idarəetmə sistemləri qurmuşlar. Onların heç biri tam anlamında müasir Avropa dövlət nümunələrinin kriteriyalarına uyğun deyildir, ancaq müəyyən dövrdə öz funksiyalarını indi "dövlət funksiyası" kimi anladığımız qavrama çərçivəsində təmin etmişlər.

Belə alınır ki, hər hansı qövmün dövlət qurmaqla bağlı öz təcrübəsini dünya üçün universal dəyərlər səviyyəsinə yüksəltmək cəhdinin tarixi, mədəni, sosial-praktiki əsası yoxdur. Bunun əvəzində, bizcə, daha faydalı olanı hər bir konkret dövlət quruculuğu və dövlətçilik ənənəsini liderlər və toplumlar səviyyəsində formalaşdıran ideya faktorunu olduğu kimi dərk etməklə bağlıdır. Bizim üçün bu məsələ tarixin hansı mərhələsində hansı ad, məzmun və siyasi məqsəd almasından asılı olmayaraq Ana Xətt statusunda azərbaycançılığın adekvat qavramıdır.

### Dövlətçiliyin "Əsas ideya oxu"

Deməli, Azərbaycan dövlətçiliyinin ənənə və siyasi təcrübə kimi adekvat anlamının Ana Xətti tarixi dönəmdən asılı olmayaraq dövlətçiliyin "Əsas ideya oxu" olan azərbaycançılıqdan hansı "məsafədə uzaq" və ya "hansı məsafədə yaxın" olmasının fəlsəfi-elmi, geosiyasi və politoloji obrazının yaradılmasıdır. Bu anlam Karl Yaspersin "Zaman oxu" anlayışından tamamilə fərqli bir qavramdır.

K.Yaspersə görə, "Zaman oxu" bəşəriyyət tarixində mifoloji dünyagörüşünün rasional dünyagörüşü ilə əvəzlənməsi dönəminə aiddir. Bu dövrü fransız filosof Miladdan öncəki 800-200-cü illərə aid edir. K.Yaspersin qavramına görə, həmin dövrdə meydana gələn antik fəlsəfə, zərdüştlük, iudaizm, buddizm, daosizm və başqaları insanların o dövrə qədər olan norma, adət və ənənələri yenidən dərk etmələri ilə xarakterizə olunur. Bu prosesdə dəyişikliklərə uyğunlaşa bilməyən sivilizasiyalar tarixin səhnəsindən getmişlər (məsələn, Qədim Misir).

Bizim daxil etdiyimiz dövlətçiliyin "Əsas ideya oxu" "Achsenzeit" (K.Yaspers zaman oxunu belə adlandırmışdır) deyildir, özlüyündə bütün tarixi zamanı əhatə edən, davamlı geştalt prosessuallığa (yəni özlüyündə fraqmentar deyil, tam, bütöv, lakin mərhələli keçidlər üzrə reallaşan, hər nümunəsində özünəxas zaman-məkan vəhdətinə malik olan) sonsuz təşəkküldür.

Onun bariz nümunəsi yuxarıda vurğuladığımız azərbaycançılığın 7 əsas prinsipinin yaratdığı ortaq semantik və funksional-praktiki sahədir. Elə bir sahə ki, yaradıcı subyekti xalq, predikatı isə dövlətçilikdir. Azərbaycançılıq isə bu sonsuz prosesi istiqamətləndirən, cilalayan, zamanın çətin dönəmlərindən, məkanın qarışıqlığından çıxaran əsas ideya oxudur! Bu kontekstdə "Azərbaycan dövləti" prinsipinin üç aktual və vacib saydığımız faktorunu xüsusi vurğulamağa ciddi ehtiyac görürük.

Onlar aşağıdakılardır: Güclü dövlət idealı, milli sərvət və ərazi bütövlüyü.

Həmin prinsip çərçivəsində ayrıca vurğulanan demokratik prinsiplər, iqtisadi inkişaf və hərbi qüdrət kodları qeyd etdiyimiz öncəki üç koddan məntiqi olaraq alınır. Onlar güclü dövlət idealının semantik sahəsində mühüm funksional aktuallıq kəsb edirlər.

Ulu öndər Heydər Əliyev liderliyində güclü dövlət quruculuğunda demokratik prinsiplər, iqtisadi inkişaf və hərbi qüdrət faktor-kodlarının roluna xüsusi yer vermişdir. Heydər Əliyev demokratik prinsiplərin funksionallığı çərçivəsində multikulturalizm, tolerantlıq, siyasi dialoq kimi parametrlərin öz yeri və rolunu müəyyən etmişdir. Bu çərçivədə tənzimləyici faktor kimi Ulu öndər daim hüquqa üstünlük vermişdir. Onun da iki səviyyəsini uğurla sintez etmişdir. Daxili mühit üçün konstitusion hüquqi çərçivələr müəyyən etmişdir. Dünya miqyası üçün beynəlxalq hüquq çərçivəsində "Əsrin müqaviləsi" və müstəqil dövlət identikliyi xüsusi kodlar olaraq funksionallaşdırılmışdır.

Müstəqil dövlət identikliyi beynəlxalq aləmə Azərbaycanın müasir mərhələdə müstəqil dövlətçiliyinin başlıca meyarlarını təqdim edir. Ulu öndər burada əsas kodlar kimi hüququ, sülhü, qarşılıqlı faydalı əməkdaşlığı, mehriban qonşuluğu, dünyanın hər bir regionunda ixtilafların danışıqlar yolu ilə həllini müəyyən etmişdir.

"Əsrin müqaviləsi" isə müstəqil dövlətçilik baxımında tarixi bir gediş idi. Çünki enerji məsələsinin dünya dövlətləri üçün nə dərəcədə aktual olduğunu XXI əsrin üçüncü onilliyinin indiyə qədər olan illərində və hazırkı anda görür və duyuruq.

Ulu öndər "Əsrin müavilısi"ni, sözün həqiqi mənasında, müstəqil dövlətçiliyi təmin etmənin mühüm kodu olaraq müəyyən etmişdir. Həmin dönəmdə Xəzərin sektorlara bölünməsi ideyasını ifadə edəndən sonra dərhal onun reallaşmasına başlaması, bu zaman qarşılaşdığı bütün maneələri yüksək zəkası və möhkəm siyasi iradəsi ilə aşması həmin kodun təzahürləri idi.

Bunları kimsəyə tam açıqlamadan Ulu öndər praktiki fəaliyyətində "Əsrin müqaviləsi"nin şərtləri daxilində yeni enerji siyasəti strategiyasını həyata keçirdi! Bu prosesin siyasi və diplomatik incəlikləri Prezident İlham Əliyevin "Xəzərin Azərbaycan nefti" (2003) adlı monoqrafiyasında dolğun təhlil edilmişdir.

Azərbaycançılığın prinsipləri baxımından mühüm funksional potensialı olan digər faktor müstəqil dövlət identikliyidir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Yolumuzu nurlandıran dövlətçilik təlimi



**Mayın 7-də Yeni Azərbaycan Partiyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış" mövzusunda tədbir keçirilib.**

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Ulu öndər siyasi və ideoloji nöqteyi-nəzərdən bir-birindən fərqli iki dövrdə - istər SSRİ dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra respublikamıza uğurla rəhbərlik edərək dövlətimiz üçün taleyüklü məsələlərin həllinə nail olmaqla millətimizin parlaq gələcəyini təmin edib. O, Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın olduqca mürəkkəb sınaqlardan keçdiyini vurğulayıb.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi Ceyran Mahmudova çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycan tarixində yalnız qüdrətli dövlət xadimi, uzaqgörən siyasətçi kimi deyil, həm də milli-mənəvi dəyərlərimizin qoruyucusu, mədəniyyətimizin və incəsənətimizin əsl hamisi kimi əbədi yaşayır.

Milli Məclisin deputatları Mübariz Qurbanlı, Hicran Hüseynova bildiriblər ki, Azərbaycan dövlətinin söykəndiyi ideoloji və dövlətçilik prinsiplərinin əsasları ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilib. Ulu öndər dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi.

Sonra Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmiş Ədalət Fərəcova orden təqdim edilib.

***XQ***

# Yeni nəslin Ulu öndərin xatirəsinə sevgi töhfəsi

**Qax Rayon İcra Hakimiyyəti, Heydər Əliyev Mərkəzi və Azərbaycan Yazıçılar Birliyi Şimal-Qərb Bölməsinin Ulu öndərin anadan olmasının 103-cü ildönümü münasibətilə birgə keçirdikləri yazı müsabiqəsinə yekun vurulub.**

Ənənəvi müsabiqə Ümummilli liderin irsinin daha dərindən öyrənilməsi və təbliği məqsədi ilə 5-ci ildir ki, təşkil olunur. Şəki-Zaqatala Regional Təhsil İdarəsinin tabeliyində olan Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları məktəblərinin şagirdləri müsabiqəyə böyük həvəslə qoşularaq Ulu öndərə ümumxalq sevgisini rəngarəng və səmimi duyğu-düşüncələrlə qələmə alıblar. Müsabiqəsi əvvəlcə orta məktəbində keçirilib. Fərqlənənlər rayon turunda, ardınca isə regional mərhələdə iştirak ediblər. Qaliblər diplom və qiymətli hədiyyələrə layiq görülüblər.



Heydər Əliyev Mərkəzində keçirilən təltifolunma mərasimində Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev ulu öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən danışıb. Rayon rəhbəri dahi şəxsiyyətə həsr olunan inşa yazı müsabiqəsinin yüksək səviyyədə təşkil edənlərə təşəkkürünü bildirib.

Müsabiqənin təşəbbüskarı və əsas təşkilatçısı AYB Şimal-Qərb Bölməsinin sədri, Prezident mükafatçısı Əlmaniz Ələkbərli deyib ki, Ulu öndərin xatirəsinə həsr olunan müsabiqələrin əhatə dairəsi ilbəil daha da genişlənir. Hətta bu il İqtisad Universiteti Zaqatala filialının pakistanlı tələbəsi də müsabiqəyə qoşulub və 3-cü yerə layiq görülüb.

Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Qax rayon komitəsinin sədri Rübail Əfəndiyeva, YAP Qax rayon təşkilatının sədri Natiq Allahverdiyev, İqtisad Universiteti Zaqatala filialının direktoru Raqif Qasımov, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdir müavini Hafiz Pənahov müsabiqənin önəmini vurğulayıblar.

Qeyd olunub ki, Heydər Əliyevin 1982–1987-ci illərdə keçmiş SSRİ-nin təhsil siyasətinə, təhsil islahatlarına rəhbərlik etməsi onun həyatının parlaq səhifələrindədir. 1984-cü ildə keçmiş SSRİ-də ümumi təhsil və peşə təhsili üzrə islahatların əsas istiqamətlərinin müəyyənləşdirilməsi və yerinə yetirilməsi mexanizminin işlənib hazırlanması, internat tipli müəssisələrin işinin təkmilləşdirilməsi, həmin illərdə ümumi təhsilə 6 yaşdan başlanılması və müddətinin 11 illik olması ideyaları məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Dahi rəhbər Azərbaycana rəhbərlik etdiyi 2-ci dönəmdə də təhsilə diqqət və qayğısını əsirgəməyib. Ulu öndərin təşəbbüsü ilə 1998-ci ildə təhsil sahəsində islahat proqramının hazırlanması üçün Dövlət Komissiyası yaradılıb, az müddət ərzində "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlanıb və növbəti ildə təsdiq edilib. Proqramın həyata keçirilməsi prosesinə Dünya Bankı cəlb edilib, beynəlxalq təcrübə əsasında əsas istiqamətlər üzrə bir sıra islahatlar həyata keçirilib. Azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, vətənpərvərlik hisslərinin güclənməsi Heydər Əliyevin ölkəyə rəhbərliyində misilsiz xidmətlərindəndir.

Natiqlər bildiriblər ki, milli təhsilinin inkişafının davamlılığı Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti islahatlarla təmin edilib. Təhsil qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib.

Sonra müsabiqə qalibləri təltif ediliblər. Qəbələ məktəbliləri İbrahim Rüstəmli, Nuray Şirinova və Aytəkin Göyüşova, Oğuzdan Nuray Salehli, Nargilə Qurbanova və Gülay Hacıyeva, Şəkidən Səma Səlimova, Zəhra Mustafayeva və Gülay Ağababayeva, Qaxdan Emil Məmmədli, Gülsəba Sərdarova və Zəhra Diniyeva, Zaqataladan Banu Həsənli, Nuray Səmədli və Elvira Hacıyeva, Balakəndən Lalə Surxayeva, Ahu Bodurova və Alvina Mirzəyeva, eləcə də digər müəssisələrdə keçirilən yarış və müsabiqələrin qalibləri mükafatlandırılıblar.

Ulu öndərin anadan olmasının ildönümü münasibətilə İqtisad Universitetinin Zaqatala filialı AYB regional bölməsi ilə birgə "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı", Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci isə "Heydər Əliyev və kənd təsərrüfatı" mövzularında yazı müsabiqələri keçiribər. Bölgənin peşə təhsili ocaqlarında, Uşaq Gənclər idman-şahmat və İnkişaf mərkəzlərində, Uşaq incəsənət məktəblərində rəsm və müsabiqələri, idman yarışları təşkil olunub.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Heydər Əliyev fenomeni: siyasi portretin miqyası və şəxsiyyətin missiyası

**(əvvəli qəzetin 7 may 2026-cı il tarixli sayında)**



Elmlər Akademiyasının 1975-ci ildə keçirilən 25 illik yubileyində Sovet Azərbaycanının lideri Heydər Əliyevin şəxsən iştirak etməsi və dərin məzmunlu nitq söyləməsi Akademiyanın inkişafında nadir tarixi hadisə olmaqla bərabər, ümumiyyətlə, ölkəmizdə azərbaycançılıq ideyasının və elmin inkişafında çox mühüm rol oynamışdır. Bu münasibətlə "Xalqlar Dostluğu" ordeninin Elmlər Akademiyasına təqdim olunması elmə, Akademiyaya, ziyalılara göstərilən ən yüksək dövlət qayğısının elmi ifadəsi idi. Azərbaycan Yazıçılar, Bəstəkarlar, Rəssamlar İttifaqlarının qurultaylarında iştirak və çıxışlar etməsi də milli-mənəvi dəyərlərin dərinləşdirilməsinə, azərbaycançılıq ideyasının ümummilli hərəkat səviyyəsində inkişaf etdirilməsinə təkan vermişdir. Bu proses Azərbaycanın Rusiyaya birləşdirilməsinə işğal hadisəsi kimi baxan Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun, XX əsrin əvvəllərində ölkəmizin ikiyə parçalanması haqqında "Gülüstan" adlı poema yazmış Xalq şairi Bəxtiyar Vahabzadənin, Naxçıvan Muxtar Respublikasına Ermənistanın tərkibinə verilməsinə etiraz bəyanatı ilə çıxış edən AMEA-nın müxbir üzvü Abbas Zamanovun və başqalarının müxtəlif yollarla müdafiə edilməsi ilə bir daha möhkəmləndirilmişdir. Azərbaycandan mərkəzə – Kremlə müxtəlif yollarla məlumat sızdıranlar, anonim məktublar göndərənlər prosesə mane ola, məqsədlərinə çata bilməmişlər.

Heydər Əliyev sonralar jurnalistlərə müsahibəsində Azərbaycanın rəhbər orqanlarında yüksək vəzifə daşıdığı illərdə "antisovet təbliğat apardıqlarına görə heç bir dissidentin, heç kəsin cəzalandırılmadığını" xüsusi olaraq diqqətə çatdırmışdır. Heydər Əliyev özü də Moskvada jurnalistlərə müsahibə verərkən sovet cəmiyyətində süni şəkildə dissident obrazı yaratmaq səylərinə tənqidi münasibətini aşağıdakı kimi ifadə etmişdir: "Bir dəfə 1989-cu ildə Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycana rəhbərlik etdiyim zamandan danışırdıq. Mənə sual verdi ki, sizdə, Azərbaycanda o vaxt dissident var idi, yoxsa yox idi. Dedim ki, yox idi. Dedi, nə üçün? Dedim ki, biz dissident axtarmırdıq. Təbiidir ki, əgər axtarsaydıq çox dissident çıxarmaq olardı. Məsələn, əgər o illər, 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi.

Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta ... Mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət ovaxtkı kommunist ideologiyasına zidd idi.

...Maqsud İbrahimbəyov və Rüstəm İbrahimbəyov əsl dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar.

...Əgər o vaxtlar onlar təqib olunmayıbsa, başqa yerlərdə olduğu kimi, onları dissident adlandırmayıblarsa, onları nədənsə məhrum etməyiblərsə, demək bu, bizim nailiyyətimizdir, …bizim o vaxtlar, çətin dövrlərdə apardığımız siyasətin nəticəsidir.

Heç şübhəsiz, Heydər Əliyevin sovet rejiminin sərt tələblərinə baxmayaraq, həyata keçirdiyi azərbaycançılıq siyasətinin, vətənpərvər Azərbaycan ziyalılarını qoruyub saxlaya bilməsinin mühüm əsasları var idi: hər şeydən əvvəl, Sovetlər İttifaqı miqyasında və onun hüdudlarından kənarda geniş yayılan "Literaturnaya qazeta"da "Qoy ədalət zəfər çalsın" adı ilə cəmiyyətdəki haqsızlıqları, çatışmazlıqları açıq tənqid edən müsahibə dərc etdirən Heydər Əliyevin tutduğu ədalətli mövqe, respublika rəhbərinin yorulmaz və məqsədyönlü fəaliyyəti, özünə və xalqına bəslədiyi dərin inam seçilmiş yolun uğurla davam etdirilməsində əsas istinad nöqtəsi olmuşdur. Bundan başqa, Heydər Əliyevin SSRİ-nin rəhbəri Leonid Brejnevlə və Dövlət Təhlükəsizlik naziri, Siyasi Büronun üzvü Yuri Andropovla yaratdığı etibarlı münasibətlər də aparılan siyasətin, tutduğu azərbaycançılıq yolunun dönmədən davam etdirilməsinə təminat vermişdir. Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi Leonid Brejnevin 30 sentyabr 1970-ci il tarixdə Azərbaycana səfər etməsi və 24-27 sentyabr 1982-ci ildə ikinci dəfə Bakıya gəlməsi, Sovet Azərbaycanının rəhbəri tərəfindən yüksək səviyyədə qarşılanmasının təşkili, həmin münasibətlə bir sıra düşünülmüş tədbirlərin həyata keçirilməsi dövrünə görə Azərbaycanın İttifaq miqyasındakı nüfuzunu göstərən mühüm siyasi-tarixi hadisələrdən biri idi. Eyni zamanda, görkəmli dövlət xadimi Heydər Əliyevin 5 mart 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyünə namizəd, 22 noyabr 1982-ci ildə Siyasi Büronun üzvü seçilməsi, SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 avqust 1979-cu il tarixli Fərmanı ilə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi onun SSRİ-yə daxil olan müttəfiq respublikaların rəhbərləri arasında xüsusi nüfuza malik olduğunu göstərirdi. Hansı ictimai quruluşda baş verməsindən asılı olmayaraq, hər biri ölkəmiz və xalqımız üçün qürur mənbəyi olan bu tarixi hadisələr həm görkəmli dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə və fəaliyyətinə bəslənilən xüsusi ehtiramın, həm də Azərbaycan Sovet Sosialist Respublikasında qazanılan böyük nailiyyətlərə verilən yüksək qiymətin ifadəsi idi. Yuxarıda qeyd etdiyimiz Siyasi Büronun üzvü və Sosialist Əməyi Qəhrəmanı adını SSRİ-in tərkibində olan 15 respublikadan yalnız üçünün – Ukrayna, Azərbaycan və Qazaxıstanın rəhbərləri qazana bilmişdilər. Bütün bunlara görə, Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi illər xalqımızın və ölkəmizin tarixinin xüsusi bir inkişaf dövrüdür.

Görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halında yeni mərhələ onun SSRİ Nazirlər Sovetində fəaliyyətini davam etdirilməsi ilə başlanmışdır. Belə ki, Heydər Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin 23 noyabr 1982-ci il tarixli fərmanı ilə SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsinə təyin edilmişdir. Bu, müttəfiq respublikanın başçısının SSRİ adlanan dövlətin rəhbərliyində qazandığı mühüm nailiyyət idi. Tarixçilərin haqlı olaraq yazdıqları kimi "Heydər Əliyev SSRİ-nin müsəlman respublikalarının rəhbər işçiləri arasında belə yüksək vəzifəyə qalxan ilk şəxs idi". Heydər Əliyev Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Sovetlər İttifaqının nəqliyyat sahəsinə rəhbərlik etmiş, eyni zamanda, həm də təhsil, səhiyyə və mədəniyyət sahələrinə də nəzarət etmək funksiyasını həyata keçirmişdir. O, SSRİ-nin Uzaq Şərq ərazilərinin inkişaf etdirilməsi üçün salınan Baykal-Amur magistralı ilə əlaqədar problemləri həll edərək, faktiki olaraq, çəkilişi dayandırılan bu nəhəng magistralın tikintisini başa çatdırmışdır. Sovet dövlətində idarəçiliyin təkmilləşdirilməsi sahəsində də Heydər Əliyev yeni təşəbbüslərə şərait yaradılmasını zəruri saymışdır. Sovetlər İttifaqının rəhbəri Yuri Andropovun təklifi ilə o, dövlət idarəçiliyində əmək kollektivlərinin səlahiyyətlərinin və rolunun artırılması yolları haqqında qanun layihəsi hazırlayıb müzakirəyə çıxarmışdır. Bundan başqa, 1984-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri" haqqında qanun layihəsi hazırlanmış və o, bu məsələ ilə əlaqədar SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında məruzə ilə çıxış etmişdir. Heydər Əliyev sovet səhiyyə sisteminin təkmilləşdirilməsi işi ilə də məşğul olmuşdur. SSRİ Nazirlər sovetinin 1987-ci ildə və 2000-ci ilə qədər olan dövrdə əhalinin sağlamlığının qorunmasının inkişafı və SSRİ səhiyyəsinin "Yenidən qurulmasının əsas istiqamətləri" haqqındakı qərarının da əsas müəlliflərindən biri Heydər Əliyev idi. Siyasi Büronun üzvü kimi Heydər Əliyev sovet dövlətinin Şərq siyasətinin həyata keçirilməsində yaxından iştirak etmişdir. O, Hindistan, Suriya, Şimali Koreya, Vyetnam, Laos və Anqolaya səfər edən sovet nümayəndə heyətinə rəhbərlik etmiş və həmin ölkələrlə SSRİ-nin əlaqələrinin daha da genişləndirilməsi üçün müvafiq tədbirlərinin həyata keçirilməsinə nail olmuşdur. Bundan başqa, "Admiral Naximov" gəmisinin batması ilə yaranan sensasiyalı faciəli hadisənin araşdırılması üzrə Dövlət Komissiyasına rəhbərlik etmək kimi məsuliyyətli vəzifəni də Heydər Əliyev bacarıqla həyata keçirmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halının Kreml mərhələsinin birinci dövrü uğurlu keçmişdir. SSRİ-nin rəhbəri Yuri Andropov Heydər Əliyevin "partiyanın və sovet dövlətinin görkəmli xadimi" kimi xidmətlərinə yüksək qiymət vermişdir. Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Kommunist Partiyası və sovet dövləti qarşısındakı böyük xidmətlərinə görə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Bütün bunlarla bərabər, Mixail Qorbaçov 11 mart 1985-ci il tarixdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi vəzifəsinə seçildikdən sonra Kremldə Heydər Əliyevə qarşı münasibət dəyişmişdir. SSRİ-nin yeni rəhbərinin yenidənqurma siyasətinin bir çox məqamlarının uğursuz olacağını, onun alkoqolizmə qarşı mübarizə adı altında ölkə üzrə möhkəm iqtisadi bazası olan üzümçülük təsərrüfatlarını dağıtmasını bildirməsi Mixail Qorbaçov – Heydər Əliyev münasibətlərində gərginlik yaratmışdır. Ən başlıcası isə dövlət idarəetməsi sahəsindəki səriştəsizliyi ilə siyasi imicini itirən Mixail Qorbaçov SSRİ rəhbərliyində, bütövlükdə Sovet İttifaqında və beynəlxalq miqyasda böyük nüfuza malik olan görkəmli dövlət xadimi Heydər Əliyevə qısqanc münasibət bəsləmişdir. Elmdə etiraf edildiyi kimi, "Heydər Əliyev Siyasi Büroda öz ədalətliliyi, obyektivliyi, ağlı, prinsipiallığı ilə fərqlənirdi. Mixail Qorbaçov onun cəsarətli çıxışları qarşısında çox vaxt qorxuya düşürdü. Nəticədə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü Heydər Əliyev 21 oktyabr 1987-ci ildə Mixail Qorbaçovun idarəetmə siyasətinə etiraz əlaməti olaraq öz xahişi ilə tutduğu vəzifədən və Siyasi Büronun üzvlüyündən istefa vermişdir. Heydər Əliyevin tutduğu vəzifədən azad edilməsində Moskvada Mixail Qorbaçovun ətrafında olan erməni separatçılarının Sovet dövlətinin rəhbəri ilə olan yaxın münasibətləri də mühüm rol oynamışdır. Təsadüfi deyil ki, Heydər Əliyev sovet dövlətinin rəhbərliyindən kənarlaşdırıldıqdan az sonra Kreml dairələrinə yaxın olan ermənilər tərəfindən Azərbaycanın qədim ərazisi olan Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında bəyanatlar səsləndirilmiş və Mixail Qorbaçovun və onun tərəfdarlarının dəstəyi ilə qızışdırılan Birinci Qarabağ müharibəsində Azərbaycan torpaqları işğal edilmişdir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə həmişə Azərbaycana xüsusi diqqət və qayğı göstərmişdir. O, Azərbaycan SSR-in dövlət büdcəsinin artırılmasını diqqətdə saxlamış, respublikada bir sıra obyektlərin tikilməsi üçün əlavə maliyyə vəsaitinin ayrılmasını təmin etmişdir. Gənc Tamaşaçılar Teatrının yenidən qurulması, Gəncə şəhərində Avtomobil Zavodunun tikilməsi, Xəzər dənizi sahillərində kurort mərkəzlərinin yaradılması SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin doğma respublikaya qayğıkeş münasibətinin əməli ifadəsi idi.

Keşməkeşli və şərəfli taleyə malik olan Heydər Əliyevin tərcümeyi-halının ən məsuliyyətli dövrü görkəmli dövlət xadiminin Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilməsindən sonrakı 1987-1990-cı illərə aiddir. Məlum olduğu kimi, İttifaq əhəmiyyətli fərdi təqaüdçü bu dövrdə Heydər Əliyev sovet rəhbərliyi tərəfindən Moskva ətrafındakı dövlət bağ evində nəzarətdə saxlanılmışdır. Mixail Qorbaçovun diktəsi ilə "Pravda" qəzetində və digər mərkəzi mətbuat orqanlarında süni şəkildə Heydər Əliyevin əleyhinə yönəldilmiş "Əliyevşina" kampaniyasına start verilmiş, qəzetlərdə saxta məqalələr çap edilib yayılmışdır. Təəssüf ki, həmin illərdə Azərbaycan Respublikasına rəhbərlik etmiş Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov kimi doğma xalqına deyil, Kremlin Azərbaycana qarşı yeritdiyi məkrli siyasətə dəstək verən yarıtmaz, səriştəsiz rəhbərlər də Mərkəzin həyata keçirdiyi böhtan kampaniyasını qızışdırmaq və genişləndirmək yolunu tutmuşlar. Həm SSRİ rəhbərliyi, həm də Azərbaycana rəhbərlik edənlər Heydər Əliyevin Moskvadan vətənə qayıtmasına maneçilik törətmək üçün müxtəlif tədbirlər həyata keçirmişlər. Heydər Əliyevin Azərbaycana qayıtmasına maneələr yaratmaq SSRİ rəhbərliyinin və onların dəstək verdikləri erməni separatçılarının ölkəmizi parçalamaq, torpaqlarımızın işğalına nail olmaq və xalqımızı sarsıtmaq kimi planlarının tam həyata keçirilməsinə nail olmaq məqsədi daşımışdır. Bütün çətinliklərə və maneələrə baxmayaraq, Heydər Əliyev bu illər ərzində daim Azərbaycana qayıtmaq, doğma xalqının milli azadlıq mübarizəsində iştirak etmək üçün səylər göstərmişdir. O, həyatını böyük təhlükə qarşısında qoyaraq 21 yanvar 1990-cı ildə Moskva ətrafındakı xüsusi nəzarətdə saxlanan bağ evindən Azərbaycanın Moskva şəhərindəki Daimi Nümayəndəliyinə gələrək, 20 Yanvar faciəsi haqqında sərt bəyanat səsləndirmiş, baş vermiş faciəli hadisə haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün qətiyyətli addım atmışdır. Heydər Əliyev əsl cəsarət nümunəsi olaraq 20 Yanvar faciəsinin törədilməsinin əsas səbəbkarlarının SSRİ rəhbərliyi və Azərbaycan Respublikasının rəhbər şəxsləri olduğunu bildirməklə doğma xalqının milli azadlıq mübarizəsinə haqq qazandırmışdır. Eyni zamanda, "müstəqillik uğrunda mübarizənin başlandığı gündən ideyaları və meydanlarda ucaldılan portretləri ilə azadlıq hərəkatında təmsil edilən Heydər Əliyev Moskva Bəyanatı ilə bu məsuliyyətli və şərəfli mübarizədə, iştirak etdiyini qəti şəkildə bəyan etmişdir". (Bax: Azərbaycan Respublikasının tarixi, 3 cilddə, I cild. Bakı, "Elm", 2022, s.165)

Ona görə də Heydər Əliyevin 21 yanvar 1990-cı il Moskva Bəyanatı haqlı olaraq "Azərbaycan Respublikasının Müstəqillik Aktının birinci parolu" adlandırılmışdır.

Bundan başqa, Kreml rəhbərliyi tərəfindən nəzarətdə saxlanılan Heydər Əliyev doğma Azərbaycana qayıtmaq üçün yollar axtarmışdır. SSRİ rəhbərliyində, Kreml Aparatında məsul vəzifədə çalışaraq, orada baş verən prosesləri izləmək və Siyasi Büro üzvlərini yaxından tanımaq imkanlarına malik olan Nikolay Zenkoviç "Tale yolları" kitabında Heydər Əliyevin Azərbaycana qayıtmaq haqqında tam qərarlı olduğunu qeyd edərək yazır: "Siyasətdən kənarlaşdırılmasına baxmayaraq, həmişə olduğu kimi, Heydər Əliyevi öz xalqının taleyi naminə məsuliyyət hissi heç vaxt tərk etməmişdir. Öz Vətəni üçün taleyüklü olan günlərdə Heydər Əliyev onun üçün xoşagəlməz halların, dramatik vəziyyətlərin baş verə biləcəyinə baxmayaraq, riskli addımlar atmağa hazır olmuşdur".

Nəhayət, qəlbinin dərinliklərindən gələn Vətən hissi qalib gəlmiş və o, 20 iyul 1990-cı ildə Kremlin icazəsi olmadan təyyarə ilə Azərbaycana qayıtmışdır. Kremlin tapşırığı ilə konkret olaraq Ayaz Mütəllibov Heydər Əliyevin Bakı şəhərində yaşamasına razılıq verməmişdir. Heydər Əliyev növbəti maneələrə və qarşıdurmalara yol verməmək üçün 22 iyul 1990-cı il tarixdə heç kəsə xəbər vermədən təyyarə ilə Naxçıvan şəhərinə gəlmişdir. Naxçıvan Muxtar Respublikasının əhalisi görkəmli dövlət xadiminin gəlişini əsl bayram əhvali-ruhiyyəsi ilə qarşılanmışdır. Heydər Əliyevin gəlişi ilə əlaqədar Naxçıvan şəhərinin baş meydanında keçirilən mitinqdə 80 min nəfər iştirak etmiş və xalqın böyük oğluna tam dəstək verdiklərini bildirmişlər.

Heydər Əliyev həmin dövrdə Naxçıvan Muxtar Respublikasında gedən milli azadlıq mübarizəsində doğma xalqı ilə birlikdə olmuş, Azərbaycanın bu qədim diyarının Ermənistan tərəfindən işğal edilməsinin qarşısını almışdır. Naxçıvan Muxtar Respublikasının əhalisinin iradəsi ilə Heydər Əliyev 1990-cı ilin 30 sentyabrında keçirilən seçkilərdə Nehrəm dairəsindən Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan şəhərindəki M.F.Axundov dairəsindən isə Naxçıvan MSSR Ali Sovetinə deputat seçilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci iclasına sədrlik edən Heydər Əliyev 17 noyabr 1990-cı ildə keçirilən sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət rəmzi olan rəsmi bayrağı kimi qəbul edilməsi haqqında qərarın qəbul edilməsinə nail olmuşdur. Bu, Azərbaycan xalqının milli azadlıq mübarizəsinin ən böyük tarixi hadisəsi idi. Eyni zamanda, Heydər Əliyevin sədrlik etdiyi həmin iclasda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin bundan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması qərara alınmışdır. Bu, Heydər Əliyevin hələ Mixail Qorbaçovun hakimiyyətdə olduğu dövrdə SSRİ-nin dağılacağını qabaqcadan görə bilməsinin əyani sübutu idi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarın qəbul edilməsi və Azərbaycanın ali hakimiyyət orqanları qarşısında həmin bayrağın ölkəmizin dövlət rəmzlərindən biri kimi qəbul edilməsi haqqında vəsatət qaldırması Heydər Əliyevin xalqımız və müstəqil dövlətimiz qarşısındakı tarixi xidmətidir. Bundan başqa, 19 iyul 1991-ci ildə Heydər Əliyevin Kommunist Partiyası sıralarından çıxmaq haqqında SSRİ Nazirlər Sovetinin partiya təşkilatına rəsmi şəkildə ərizə ilə müraciət etməsi və buna nail ola bilməsi də nəinki Azərbaycanda, bütövlükdə Sovetlər İttifaqında milli azadlıq hərəkatının genişlənməsinə əhəmiyyətli dərəcədə təkan vermişdir. Çox keçmədən, SSRİ-nin dağılması və 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının özünü müstəqil dövlət elan etməsi ilə Heydər Əliyevin uzaqgörənliyi özünün təsdiqini tapmışdır.

Bundan başqa, Naxçıvan MR Ali Məclisinin 14 mart 1991-ci il tarixli sessiyasında Mixail Qorbaçovun tapşırığı ilə SSRİ-nin saxlanılmasına dair yeni ittifaq müqaviləsinin bağlanması üçün referendumun keçirilməsinə dair Azərbaycan SSR Ali Sovetinin qərarının muxtar respublikada icra olunmaması qərara alınmışdır. Bu addım da SSRİ-nin dağılmasına və Azərbaycanda müstəqil dövlətin qurulmasına görkəmli dövlət xadimi Heydər Əliyevin xidmətidir.

Vətənə qayıdışında hər hansı bir vəzifə tutmaq üçün heç bir niyyətinin olmadığını dəfələrlə bəyan edən Heydər Əliyev, eyni zamanda, həm də ən çətin məqamlarda xalqın iradəsinə ehtiramla yanaşmışdır. O, Muxtar Respublika əhalisinin təkidi və tələbi ilə 3 sentyabr 1991-ci ildə Ali Məclisin sessiyasında Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilmişdir. Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sessiyasında dörd dəfə çıxış edərək, vəzifəyə seçilməkdən imtina etsə də, muxtar respublika üzrə 77 deputatın yekdil səsverməsi ilə Ali Məclisin sədri vəzifəsini qəbul etməli olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi Heydər Əliyev Azərbaycanın bu ayrılmaz tərkib hissəsi olan qədim diyarını Ermənistanın işğalından xilas etmişdir. O, sovet ordusunun Naxçıvanda xidmət edən hissələrini dinc yolla muxtar respublikanın ərazisindən çıxarmışdır. Heydər Əliyev 21 noyabr 1991-ci ildə Azərbaycanın gələcək dövlətçilik tarixində müstəsna rolu olan Yeni Azərbaycan Partiyasını təsis etmişdir. Azərbaycanın Qarabağ bölgəsində müxtəlif qurumlar və ya ayrı-ayrı şəxslər tərəfindən idarə olunan partizan dəstəsinə bənzəyən hərbi qruplaşmaların olduğu bir dövrdə Heydər Əliyev 7 sentyabr 1991-ci il tarixdə qəbul etdiyi qərarla Naxçıvan Muxtar Respublikasında Dövlət Müdafiə Komitəsi yaratmışdır. Azərbaycanda ilk dəfə olaraq kolxoz və sovxozların ləğv edilməsi və torpaq islahatlarının aparılması da 1992-ci ildən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmişdir.

**(ardı var)**

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti,***
***akademik***

# Heydər Əliyev məktəbi: liderlik dərsləri və azərbaycançılığın siyasi-hüquqi hüdudları



**Qloballaşma prosesi XX əsrin sonu XXI əsrin əvvəlindən dövlətlərin həm ictimai-siyasi, həm də ideoloji-mədəni həyatına əsaslı təsir etmişdi. Müasir Azərbaycan ideoloji-humanitar böhranın baş vermədiyi hüquqi dövlətdir.**

Siyasi fəlsəfədə fərqli, müqayisəli, müxtəlif ölçü parametrlərindən Rəhbər – liderlərin xarakterik xüsusiyyətləri araşdırılır. Liderlik – ictimai-siyasi mətndə "başçı", "rəhbər", "öncül", "öndəgedən", "birinci" və s. epitetlərlə də işlənir. Belə ki, Platon "Liderin bilik və ədalətə irsi meyli olmasını", N.Makiavelli isə "güc, dürüstlük və üslubluğu" hökmdarlığın əsas keyfiyyətləri kimi göstərmişdir. M.Veberə görə liderlər "rasional lider", "xarizmatik lider", "qəhrəman lider" kimi ifadələrlə də xarakterizə olunur. V.Hegel ideal lideri "öz missiyasını dərk edən tarixi şəxsiyyət" adlandırmışdır. Bu mənada, T.Karleyl: "Bəşər tarixi böyük insanların tarixidir", - deyə qeyd etmişdir.

Liderləri təsir miqyaslarına görə də təsnifatlandıran nəzəriyyələr vardır: Məsələn, "aparıcı lider", "dövlət lideri", "ictimai lider", "qrup lideri", "birinci lider", "siyasi lider", "milli lider", "ümummilli lider" və s. Liderlik haqqında siyasi-nəzəri təlimlərdə lider Rəhbərlər xalq və dövlət vəhdətində, eləcə də ölkə hüdudlarından kənarda real liderlik aparan şəxsiyyətlər kimi qiymətləndirilir. Liderlər bəlli sosiosiyasi, mədəni-mənəvi, iqtisadi və geosiyasi şəraitə təsir etməklə aparıcı gücə sahib olurlar. Liderlər öz ölkəsinin hərbi-siyasi, diplomatik, təhlükəsizlik, sosioiqtisadi, ideoloji, mədəni strukturunu formalaşdıran quruculardır.

Görkəmli dövlət xadimi Heydər Əliyev ölkə başçısından Ümummilli liderlik zirvəsinə yüksələn, həm Azərbaycan, həm MDB məkanı, həm də qlobal dünyada – qətiyyətli rəhbər kimi qəbul olunan, güclü, siyasi iradəli, xarizmatik, şəxsiyyət, həm sovet dövrü, həm müstəqillik ərəfəsi, həm də ilkin müstəqillik dövrünün 10 ili xalqı qarşısında, dövlətçilik yolunda böyük xidmətləri olan strateqdir.

Ulu öndərin siyasi həyat fəaliyyətində keçdiyi yol Azərbaycanda "Heydər Əliyev dərsləri", "Heydər Əliyev məktəbi" adlanır. Bu məntiqdən Prezident İlham Əliyev vurğulayır ki: "2003-cü ilin oktyabrında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı fikirlərini bildirmiş və əminliyini ifadə etmişdir ki: "onun davamçıları onun yolu ilə gedərək Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər".

Liderlik barəsində dünya siyasətşünaslıq elmi təlimində ehtiva edilən bütün keyfiyyətlər ulu öndər Heydər Əliyevin fəaliyyət və şəxsində formalaşır. Siyasi-hüquqi təlimlər üzrə tədqiqatçıların fikrincə, bir şəxs öz millətinə rəhbər ola bilər və ya birinci şəxs kimi ölkəni adi idarəçi səviyyəsində idarə edən başçı ola bilər, yaxud da aşkarda görünməyən "kim" və "kimlər" tərəfindən idarə edilən də olar. Və tarix bu tip rəhbərləri lider deyil, adi ölkə başçısı kimi statistik tarixi rəqəmdə müvafiq illərdə hakimiyyət dövrünü göstərir.

Lider rəhbərin dövlətçilik institutu quruculuğu ilə vəhdətdə hakimiyyəti - idarəetmə səriştəsi və bacarığı ilə yüksək bilikli, mədəni səviyyəli rəhbərlik qabiliyyəti paralellik təşkil etməlidir. Ulu öndər Heydər Əliyev Azərbaycanda müasir liderlik məktəbinin yaradıcısıdır və dünya liderlik praktik-nəzəri təliminə strateq-siyasətçi paradiqmal dərslərini yazdı;

– Rəhbər kimi Ümummilli lider adının üzvü parametrlərini qazanan, qlobal dünya siyasət məkanında qəbul edilən dövlət xadimidir. 1) Mükəmməl rəhbərlik qabiliyyəti, 2) idarəçilik strategiyası, 3) Dövlət xadimi kimi keçirtdiyi ağır, mürəkkəb, məsuliyyətli və çətin siyasi mübarizə yolunun təcrübəsi; 4)Azərbaycanda müstəqil dövlətin milli inkişaf yolunu formalaşdıran unikal, əvəzolunmaz fenomendir; 5) Müstəqil Azərbaycanın suveren hüquqlarının qorunub möhkəmləndirilməsində ümummilli lider adını əxz edən, xilaskarlıq missiyasını ölkəsində həyata keçirən Lider – Rəhbərdir.

Bu mənada, ilk öncə, Azərbaycanın keçmiş SSRİ dövründəki çoxşaxəli sahələr üzrə əsas məqamlarının siyasi-nəzəri-hüquqi baxımdan tədqiq edilməsi ölkə və dünya siyasi liderlik məktəbi üçün də əhəmiyyətlidir. İkinci, keçmiş sovet sistemində bütün fəaliyyət sahələri kommunist ideologiyasının hakimi-mütləq olduğu Siyasi Büro tərəfindən idarə ediləndə də, respublika siyasi rəhbərliyinin Baş katibi kimi keçmiş SSRİ-də Siyasi Büronun icazəsi olmadan belə xalqının rəhbəri olaraq onun milli mədəni-mənəvi ənənələrini qoruyan, ölkəsinin tərəqqisinə çalışan, "Qoy ədalət zəfər çalsın" söyləyən, insan amilini və milli kimlik parametrlərinin müdafiəçisi olan Ulu öndər həyatı da tarixləşdi.

Lider-rəhbər anlamına siyasi-nəzəri-hüquqi aspektdən baxanda qeyd edək ki, Azərbaycan xalqı müstəqillik zamanı aforizmə çevrilən "Heydər Əliyev" - "tarix yazan dahi" adını "Hakimiyyət ustası" kəlamı ilə yekunladı. Ulu öndər "siyasət ustadı" adlanır. Belə ki, daima xalqla birlikdə olmaq liderə dərin hörmət, rəğbət, istək, ehtiram, sədaqət yaradır. Bu, komponentlər Azərbaycan siyasi liderlik məktəbi tarixində örnəkdir.

Rəhbər liderlik dövlətçilik institutunu quran, xilasedicisi, birləşdiricisi, nizamlayıcı və idarəetmə strukturunu formalaşdırma parametlərinin öyrənilməsi də zəruridir. Azərbaycanda yeni liderlik institutunun əsasının çoxşaxəli istiqamətləri yaradılmışdı. Ölkədə Azərbaycan dili, mənəviyyatı, mədəniyyəti bu müstəvidə milli iqtisadi inkişaf, ictimai-siyasi sabitlik, milli ordu quruculuğu, hərbi, daxili və xarici təhlükəsizlik məsələləri geniş anlamda dövlətçilik institutunda müəyyənləşdirilərək liderlik modelinin strateji-taktiki əsasları qurulmuşdur.

Ulu öndər cəsarətli, qorxmaz, ən qaynar hadisələrin önündə gedən aparıcılıq qabiliyyəti, hakimiyyəti, idarəetmə bacarığı, xalqın ona olan sonsuz inamı vəhdətində müstəqillik dövründə cəmiyyəti tənzimləyən qüvvə, ideoloji bir sistem - azərbaycançılıq əqidəsində Azərbaycan vətəndaşlarını birləşdirən böyük şəxsiyyətdir. Ulu öndər azərbaycançılığı mənəvi-ədəbi-romantik-bədii ideya məfkurəsindən ideoloji kursa çevirərək, onun məzmununa ölkədə yaşayan müxtəlif xalqların dili, dini, cinsi, hansı mədəniyyətə malikliyindən asılı olmayaraq Azərbaycan vətəndaşı olması konkretliyini, birgəyəşayış həyat tərzini təlqin etdi. Azərbaycançılığın ən vacib paradiqması ulu öndərin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" qətiyyətli Bəyanatıdır.

Azərbaycançılıq Azərbaycanda yaşayan bütün xalqları birləşdirən bir əqidədir. Azərbaycançılığın əsas elementlərindən biri vətəndaşlıqdır. Bu özündə vətəndaşın siyasi, mənəvi, hüquqi, sosial keyfiyyətlərini ehtiva edir. Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində yazılıb ki, "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikası vətəndaşıdır".

Azərbaycançılıq xalq-dövlət-vətəndaş vəhdəti harmoniyasıdır. Azərbaycan Konstitusiyası I fəsli V maddəsi II bəndində yazıldığı kimi: "Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir". Bu əsasda da azərbaycançılıq həm də öz milli kimliyini dərk etməklə Azərbaycanda əsrlərlə məskunlaşan xalqları qorumaqdır. Bu xalqların mədəni-mənəvi tarixi, dəyərləri, fərqli adət-ənənə, din və dil müxtəlifliyi tərzli həyatı dövlətin azərbaycançılıq ideologiyasının əsas tərkib xəttidir. Azərbaycançılıq ideologiyasının parametrləri: 1) hər bir ölkə vətəndaşında öz vətəninə sadiqlik, tərbiyə etmək; 2) digər millət və xalqlara da bərabər hüquqlarla hörmətlə yanaşmağı; 3) birgəyaşayış həyat tərzini təlqin edir və 4) bunun kökündə milli-etnik ayrı-seçkilik durmur; 5) əksinə çoxmədəniyyətlilik adət-ənənəsi; 6) dil-din fərqliyi aspektində qarşılıqlı hörmət, tolerantlıq qəbul edilir. Azərbaycançılıq ideologiyası hər topluma tolerant yanaşma bir-birini anlama, dinc yanaşı yaşama tərzini ehtiva edir.

Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlət təlimi səviyyəsinə yüksəldən ideoloqdur. Ulu öndər vurğulayırdı ki, "Bizimçün bir tarixi amil var – azərbaycançılıq".

Azərbaycançılığın hüquqi-siyasi komponenti nədir... Bu 1) ölkədə yaşayan müxtəlif mədəni-mənəvi həyat tərzli xalqların parçalanmasına; 2) respublikanın bölünməsinə imkan vermədi; 3) dövlətçilik institutunun dünyanın yeni çağırışlarına uyğun strukturlaşmasına; 4) cəmiyyətdə möhkəm və etibarlı müxtəlif mədəniyyətli dinc-yanaşı yaşamlı həyat tərzi birliyinin yaranmasının əsası oldu. 5) Fərqli mədəniyyətli xalqların qarşılıqlı münasibətində tolerantlığın gücləndirilməsinə və 6) suveren dövlətçilik institutunun dayanıqlı sistem kimi formalaşmasına rəvac verən konseptual nəzəri ideologiya olaraq azərbaycançılıq cəmiyyətdə tətbiq edildi.

Ulu öndər qeyd edirdi ki: "Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə xalqımızın, dövlətimizin bü günü və gələcəyi ilə bağlı olmalıdır".

*– Vətənpərvərlik və dövlətçilik azərbaycançılığın əsaslarındandır.*

*– Azərbaycançılıq qloballaşan dünyaya inteqrasiyanın ideya tərkibidir.*

2001-ci il 9 noyabr Dünya Azərbaycanlılarının I Qurultayında Ulu öndər nəzərə çatdırmışdır ki: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Siyasi nəzəriyyə təlimində rəhbər – liderlər tək fəaliyyətləri zamanı yox, eləcə də gələcək zamanlarda liderlik dərslərini öyrədən bir məktəb yaradan şəxsiyyət, dahidirlər.

Lider – dövlət xadimi çoxsahəli xidmətləri içərisində siyasi sistemi təmin etmiş xalq rəhbəridir.

Yeni tipli lider siyasi liderlik dərslərini yüksək səviyyədə mənimsəyən və - XXI əsr dəyişən dünyanın tələblərindən irəli gələn hədəfləri, çağırışları gerçəkləşdirən, ölkədə vacib strateji və əməli fəaliyyət mexanizmlərini reallaşdıran – modern rəhbər olmalıdır.

Prezident İlham Əliyev azərbaycançılığın cəmiyyətin ideya əsasını təşkil etməsini, dövlətçiliyin ideoloji təməli kimi xarakterizə edərək diqqətə yetirdi ki: "Qloballaşan, çətinliklə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

Və bu mətndən də istənilən ideologiya, həmçinin "Azərbaycançılıq ideologiyası da öz xalqının, dövlətinin mənafeyinə, maraqlarına uyğun olmalı, müxtəlif sosial təbəqələrin, ictimai, mədəni qurumların siyasi partiyaların müvafiq ideya ətrafında birləşməsinə cəhd etməlidir".

XXI əsr Azərbaycanı dünyada yeniləşən, qalib, inkişaf edən müstəqil dövlət kimi tanıtdırılmışdır. Ali Baş Komandan İlham Əliyev işğalçı Ermənistanla 44 günlük Vətən müharibəsində təsdiq etdi ki, Azərbaycan dövlət olaraq müstəqildir, həm də regionun aparıcı dövlətidir.

Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətində geoiqtisadi və geosiyasi balanslı siyasəti modern milli inkişaf xəttində, ölkədə multikulturallığın qorunması, regional və qlobal layihələrin iştirakçısı kimi enerji siyasəti, hərbi-diplomatik, milli təhlükəsizlik və sosiomədəni məsələləri əhatə edən çoxşaxəli fəaliyyətində humanitar kurs azərbaycançılıq ideologiyasıdır.

Ali Baş Komandan İlham Əliyev müasir silahlarla təchiz olunan Milli Ordunun yüksək peşəkarlığı ilə Azərbaycan siyasi-hərb tarixinə Zəfər Gününü yazmaqla bahəm, xalqa Qalib ölkə adı qazandıran Liderdir. Böyük Qayıdış proqramı həm işğaldan azad edilmiş Qarabağın dirçəlişi, yenidən qurulması, bərpası həm də Azərbaycanın yeni perspektivlərinin göstəricisidir.

Müstəqil Azərbaycan dövlətçilik institutunu formalaşdıran ulu öndər Heydər Əliyev çoxsahəli idarəçilik ustadlığı və təcrübəsi əsasında ölkədə siyasi-ideoloji və sosio-iqtisadi özülünü yaratdı. Prezident İlham Əliyev modern lider kimi ölkəni müasir zamanın yeni tarixi inkişaf xəttinə yüksəltdi. Prezident İlham Əliyev müasir Azərbaycanı Avropa tədbirlərində, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Təşkilatında, BMT-də və s. təmsil edərək bütün bu beynəlxalq təşkilatlarda əxz etdiyi siyasi mövqe, siyasi imic, nüfuz ulu öndər Heydər Əliyev Liderlik məktəbinin göstəriciləridir.

Fikrimizi Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sözləri ilə bitirək: "Heydər Əliyev dərslərinin mahiyyətini onun həmyaşıdları bu gün də öyrənirlər. Heydər Əliyev tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı, 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran vətəndaş, şəxsiyyət, Liderdir. Vətənin, Azərbaycanın taleyi, onun adı, taleyi əbədi olaraq bağlandı".

***Rəna MİRZƏZADƏ,***
***professor, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri***

# FHN-də "ən yaxşı manqa" müsabiqəsi

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə dünən Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti və Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə DYMX-nin hissələri arasında təşkil edilmiş "Ən yaxşı manqa" adı uğrunda baxış-müsabiqəsinin final mərhələsi keçirilib.**



Müsabiqənin keçirilməsində məqsəd əməkdaşların döyüş və taktiki hazırlıq səviyyəsinin daha da artırılması, peşə vərdişlərinin təkmilləşdirilməsindən ibarət olub.

DYMX-nin Xidmətin təşkili və peşə hazırlığı şöbəsinin əməkdaşlarının hakimlik etdiyi və gərgin mübarizə şəraitində keçən final müsabiqəsinin nəticələrinə əsasən, Binəqədi rayon Dövlət Yanğından Mühafizə Hissəsi "Ən yaxşı manqa" baxış-müsabiqəsində 1-ci yeri tutub. 2-ci və 3-cü yerləri isə müvafiq olaraq Sumqayıt şəhər Dövlət Yanğından Mühafizə İdarəsi və Hacıqabul Rayon Dövlət Yanğından Mühafizə Hissəsi bölüşüb.

***XQ***

# “Dayanıqlı nəqliyyatın maliyyələşdirilməsi”

## *Bu mövzuda Almaniyada keçirilən Beynəlxalq Nəqliyyat Forumuna ölkəmiz sədrlik edir*

**Almaniyanın Leypsiq şəhərində Azərbaycanın sədrliyi ilə Beynəlxalq Nəqliyyat Forumunun (ITF) İllik Sammiti işə başlayıb. Sammitin həsr olunduğu “Dayanıqlı nəqliyyatın maliyyələşdirilməsi” mövzusu iqlim dəyişikliyi, urbanizasiya və texnoloji yeniliklər fonunda böyük əhəmiyyət daşıyır.**

Azərbaycanın sədrliyi dövründə təşkilatın institusional fəaliyyətinin səmərəliliyinin artırılmasına da xüsusi diqqət yetirilib, üzv ölkələrlə konstruktiv əməkdaşlıq nəticəsində İş Proqramı üzrə razılıq əldə olunub. Azərbaycanın sədrlik gündəliyini 5 əsas prioritet üzrə formalaşdırdığını və bu sammitdə həmin istiqamətlər üzrə konkret nəticələrin təqdim olunduğunu diqqətə çatdırıb.



Qeyd edək ki, bu tədbir dünyada nəqliyyat nazirlərinin ən böyük toplantısı olmaqla yanaşı, nəqliyyat siyasətinin formalaşdırılması üçün aparıcı qlobal platforma hesab olunur. ITF-ə üzv olan 69 ölkənin nazirləri, beynəlxalq təşkilatların rəhbərləri, parlament üzvləri, həmçinin biznes və elm sahələrinin aparıcı nümayəndələri 2008-ci ildən etibarən hər il Leypsiqdə bir araya gələrək nəqliyyatın gələcəyini müzakirə edirlər. Ümumiyyətlə, forum 80-dən çox ölkədən 1200-dən artıq nümayəndəni əhatə edir. Bu da tədbirə marağın ildən-ilə artdığını və Forumun daha çox biznes sektorunun diqqətini cəlb etdiyini göstərir. Belə ki, şirkətlərin rəhbərləri yüksək səviyyəli müzakirələrdə iştirak edir, müəssisələr isə Sammit çərçivəsində keçirilən sərgidə öz fəaliyyətlərini təqdim edirlər.

2026-cı ildə sammit nəqliyyatda dayanıqlılıq mövzusuna həsr olunmuş 2025-2027-ci illər ITF sammitləri trilogiyasının ikinci hissəsidir. Builki Sammit nəqliyyat sistemlərinin dayanıqlılığının gücləndirilməsi yollarını araşdıracaq və bunun vasitəsilə uzunmüddətli perspektivdə nəqliyyat infrastrukturunun və əməliyyatlarının daha yaxşı əlaqələndirilməsi, səmərəliliyi və etibarlılığına nail olunması məqsədini daşıyır.

*

Qlobal iqtisadiyyatın və beynəlxalq logistika sisteminin yenidən formalaşdığı indiki mərhələdə Avrasiya məkanında yeni nəqliyyat və ticarət arxitekturası meydana çıxır. Belə bir şəraitdə Azərbaycan Şərqlə Qərbi birləşdirən əsas logistika mərkəzlərindən biri kimi ön plana çıxır və regionun nəqliyyat habına çevrilmək istiqamətində strateji rolunu daha da gücləndirir. Xəzər dənizi üzərindən keçən Orta Dəhliz artıq Çin, Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan və Türkiyə arasında uzanan bu xətt qlobal ticarət zəncirinin mühüm bağlantılarından birinə çevrilərək Avrasiyanın iqtisadi xəritəsində yeni balans formalaşdırır. Bu marşrut yüklərin daha qısa müddətdə daşınmasına, ticarət əlaqələrinin şaxələndirilməsinə və beynəlxalq bazarlar arasında dayanıqlı inteqrasiyanın güclənməsinə imkan yaradır.

Son statistik göstəricilərə əsasən, 2025-ci ildə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) üzrə təxminən 77 min TEU həcmində konteyner daşımaları həyata keçirilib. 2029-cu ilədək bu göstəricinin 300 min TEU səviyyəsinə yüksəldilməsi nəzərdə tutulur. “Azərbaycan Dəmir Yolları” (ADY) QSC-nin açıqladığı məlumatlara əsasən, Bakı Beynəlxalq Dəniz Limanı fəaliyyət tarixində ilk dəfə olaraq illik konteyner aşırma həcmini 107 min TEU həddinə çatdırıb. Bu statistikaya həm TBNM çərçivəsində daşınan yüklər, həm də digər istiqamətlər üzrə həyata keçirilən daşımalar daxildir.

Hazırda yükaşırma həcmlərində qeydə alınan artım Bakı limanının Cənubi Qafqaz və Xəzər hövzəsinin əsas logistik mərkəzlərindən biri kimi mövqeyini daha da gücləndirir. Bu dinamika Azərbaycanın Şərq-Qərb ticarət xəttində əsas tranzit qovşaqlarından birinə çevrilməsi prosesini sürətləndirən amillərdən hesab olunur. Mühüm məqamlardan biri də odur ki, limanda tətbiq edilən rəqəmsal idarəetmə sistemləri və “yaşıl logistika” yanaşmaları Orta Dəhliz boyunca inteqrasiyanı genişləndirir. Bu yeniliklər həm yük dövriyyəsinin artmasına, həm də ölkə iqtisadiyyatı üçün əlavə dəyər yaradan yeni imkanların formalaşmasına təkan verir.

Bir məqamı da diqqətə çatdıraq ki, Orta Dəhlizin əsas üstünlükləri sırasına daha qısa məsafə və tranzit vaxtı, siyasi baxımdan daha sabit marşrut, texnoloji baxımdan müasirləşdirilmiş infrastruktur və yüksək dəyərə malik, vaxt baxımından həssas yüklər üçün optimal seçim olması daxildir. Bu xüsusiyyətlər Orta Dəhlizi Avrasiya üzrə dayanıqlı və səmərəli yükdaşımaları təmin edən aparıcı nəqliyyat dəhlizlərindən birinə çevirir. Dəhlizin dəmir yolu seqmenti təqribən 4,256 km məsafəni əhatə edir və Çin, Qazaxıstan, Azərbaycan və Gürcüstan ərazisindən keçir. Xəzər dənizi üzərindən keçən dəniz seqmenti isə (təqribən 508 km) Türkmənbaşı, Kuryk və Aktau limanlarını Bakı Limanı ilə birləşdirir.

Orta Dəhliz üzrə əsas yük axını Çin və Mərkəzi Asiyadan Avropa bazarlarına yönəlir. Bununla belə, Qərbdən Şərqə doğru daşımaların genişləndirilməsi istiqamətində də aktiv addımlar atılır. 2024-cü ilin noyabrında Bakıdan Sian istiqamətinə ilk ixrac blok qatarının göndərilməsi bu baxımdan əlamətdar hadisə sayılır. Eyni zamanda, 2024-cü ilin mayında Bakı-Tbilisi-Qars dəmir yolunda aparılan modernizasiya işləri marşrutun ötürücülük qabiliyyətini və çevikliyini artıraraq ikitərəfli ticarət üçün yeni perspektivlər açıb. Avropa şirkətlərinin və bir çox biznes dairələrinin bu xəttə artan marağı isə Orta Dəhlizin beynəlxalq logistika xəritəsində strateji əhəmiyyət qazandığını göstərir.

Orta Dəhliz üzrə yük daşımaları son illərdə kəskin artıb. Yüklərin həcmi 2021-ci ildə təxminən 840 min ton olduğu halda, 2024-cü ildə bu göstərici 4,5 milyon tona çatıb. Eyni zamanda, konteyner daşımalarında da son illərdə təxminən 260 faiz artım qeydə alınıb.

Şimal-Cənub Dəhlizi isə 3 əsas seqmentdən (Şərq, Trans-Xəzər və Qərb) ibarətdir və əsasən Şərq seqmenti aktiv istifadə edilir. Bu, Xəzər dənizi üzərindən Rusiya və İran limanları arasında daşımaları nəzərdə tutur. Xəzərin suyunun səviyyəsinin azalması, xüsusilə dənizin şimal hissəsində bu prosesin daha qabarıq müşahidə olunması, marşrutun effektivliyinə təsir göstərir.

Qərb seqmenti məsafə və infrastruktur baxımından ən optimal istiqamət sayılır. Azərbaycan bu sahədə infrastruktur üstünlüyü ilə seçilir və dəhlizin təkmilləşdirilməsi istiqamətində işlər davam edir. Hazırda yeganə tamamlanmamış hissə Rəşt-Astara dəmir yolu seqmentidir. Son məlumatlara görə, 162 kilometrlik xəttin 34 kilometrlik hissəsi üzrə torpaq ayrılması yekunlaşıb. Tikintinin 4 il ərzində tamamlanaraq istifadəyə verilməsi planlaşdırılır. Hazırda bu istiqamət üzrə multimodal daşımalar da həyata keçirilir.

Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə maraqlanan əsas dövlətlər sırasında Hindistan xüsusi yer tutur. Bu layihə vasitəsilə Rusiyanın Hindistan limanları ilə əlaqəsinin genişləndirilməsi, eyni zamanda, Cənubi Asiya, Fars körfəzi və Afrika bazarlarına daha sürətli çıxışın təmin olunması hədəflənir. Beləliklə, dəhliz Hindistan üçün yeni tranzit marşrutları və ticarət üstünlükləri formalaşdırır. Bundan başqa, marşrutun Süveyş kanalına alternativ nəqliyyat xətti kimi çıxış etməsi qlobal logistika sistemində yeni balans yarada bilər. Hindistanın Çabahar limanına, eləcə də həmin limandan Mərkəzi Asiyaya uzanan dəmir yolu layihələrinə investisiya yatırması da bu marağın praktiki göstəricisi hesab olunur. Ekspertlərin fikrincə, Rəşt–Astara dəmir yolu tam fəaliyyətə başladıqdan sonra hind şirkətlərinin dəhlizdən istifadəyə marağı daha da yüksələcək.

Digər tərəfdən, Azərbaycan–Türkiyə–Pakistan əməkdaşlıq platforması çərçivəsində də bu marşrut mühüm strateji əhəmiyyət daşıyır. Dəhliz Pakistan istiqamətində birbaşa nəqliyyat bağlantısı yaratmaqla yanaşı, İran üçün də həmin bazara çıxış imkanlarını genişləndirir. Bununla paralel olaraq, Türkmənistan–Özbəkistan–Əfqanıstan–Pakistan xəttini əhatə edən Trans-Əfqan dəmir yolu layihəsi formalaşma mərhələsindədir və gələcək perspektivdə onun Orta Dəhlizlə əlaqələndirilməsi nəzərdə tutulur. Bu kontekstdə Şimal–Cənub marşrutu İran üzərindən Pakistan istiqamətində alternativ tranzit xətti kimi strateji rolunu saxlayır.

Azərbaycan hazırda həm Şərq–Qərb, həm də Şimal–Cənub nəqliyyat dəhlizləri üzrə regionun əsas logistik mərkəzlərindən biri kimi çıxış edir. Uzun illər ərzində nəqliyyat infrastrukturuna yatırılan sərmayələr yaxın perspektivdə daha operativ və iqtisadi baxımdan sərfəli yükdaşımaların həyata keçirilməsinə imkan verəcək. Nəticədə ölkənin beynəlxalq tranzit və logistika qovşağı kimi mövqeyi daha da güclənəcək.

***Nurlan ABDALOV***
***XQ***

# WUF13-ə hazırlıq müzakirəsi

**Azərbaycan hökuməti ilə BMT-nin İnsan Məskunlaşmaları Proqramı (UN-HABITAT) arasında 13-cü Ümumdünya Şəhərsalma Forumuna (WUF13) hazırlıq məsələləri müzakirə olunub.**

Bu barədə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev öz rəsmi “X” səhifəsində yazıb ki, Beynəlxalq Nəqliyyat Forumunun Sammiti çərçivəsində BMT İnsan Məskunlaşmaları Proqramının (UN-Habitat) icraçı direktoru xanım Anaklaudia Rossbax ilə görüş keçirdik: “Görüşdə Azərbaycan ilə UN-Habitat arasında inkişaf edən tərəfdaşlıq və xüsusilə COP29 çərçivəsində birgə təşkil olunan Nazirlər görüşü fonunda şəhər inkişafı və iqlim dəyişikliyi sahəsində əməkdaşlığın gücləndirilməsi məsələlərini müzakirə etdik”.

Görüşdə, eyni zamanda, Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumu çərçivəsində hazırlıq işləri və bu tədbirin qlobal şəhər gündəliyinə verəcəyi töhfə barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# İslam İnkişaf Bankı ölkəmizdə fəaliyyətini genişləndirir

## *Bu günə qədər 20-dək layihəyə 1,2 milyard dollar vəsait ayrılıb*

**Prezident İlham Əliyev mayın 6-da İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casir başda olmaqla nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla İslam İnkişaf Bankı arasında uzun illərdir səmərəli əməkdaşlığın qurulduğu vurğulanıb. Bankın ölkəmizdə iqtisadiyyatın müxtəlif istiqamətlərində, həmçinin enerji, o cümlədən “yaşıl enerji”, kənd təsərrüfatı, su və irriqasiya sistemləri, infrastruktur və sosial sahələrdə bir sıra layihələr həyata keçirdiyi qeyd edilib. Bu xüsusda vurğulanıb ki, 20-dək dövlət və özəl layihənin icrası üçün bank tərəfindən 1,2 milyard ABŞ dollarından çox vəsait ayrılıb.**

İslam İnkişaf Bankı Qrupu İslam maliyyə institutları sırasında xüsusi çəkisi ilə seçilir, uzun illərdir ki, üzv dövlətlərin iqtisadi inkişafında mühüm rol oynayır. 1973-cü ildə yaradılan və hazırda 57 ölkəni birləşdirən bank İslam maliyyə prinsipləri əsasında fəaliyyət göstərən ən nüfuzlu beynəlxalq maliyyə-kredit institutlarından biri hesab olunur. Baş qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən qurumun əsas məqsədi üzv müsəlman ölkələrinin sosial rifahının yüksəldilməsi, iqtisadi inkişafının sürətləndirilməsi və dayanıqlı tərəqqinin təmin edilməsidir.

İslam İnkişaf Bankı (İİB) Qrupun fəaliyyət mexanizmi klassik kommersiya maliyyələşdirməsindən fərqlənir. Bank daha çox real iqtisadiyyata yönəlmiş layihələrin maliyyələşdirilməsi, infrastrukturun qurulması, investisiya təşəbbüslərinin dəstəklənməsi, güzəştli kreditlərin və qrantların ayrılması yolu ilə üzv dövlətlərə dəstək verir. Azərbaycan ilə qurum arasında əməkdaşlığın əsası 1992-ci ildə qoyulub. Müstəqilliyinin ilk illərində iqtisadi çətinliklərlə üzləşən Azərbaycan üçün beynəlxalq maliyyə institutları ilə əlaqələrin qurulması xüsusi əhəmiyyət daşıyırdı. Bu baxımdan İİB Qrupu ilə tərəfdaşlıq ölkənin iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrildi. 2007-ci ildə İİB Qrupun Azərbaycanda yerli nümayəndəsinin təyin olunması isə əməkdaşlığın institusional səviyyədə daha da dərinləşdirilməsinə şərait yaratdı.

Ötən illər ərzində Azərbaycan ilə İİB Qrup arasında münasibətlər çoxşaxəli strateji tərəfdaşlıq formatında inkişaf edib. Əməkdaşlıq yalnız maliyyə dəstəyi ilə məhdudlaşmayaraq, infrastrukturun yenilənməsi, enerji təhlükəsizliyinin gücləndirilməsi, kənd təsərrüfatının inkişafı, su ehtiyatlarının idarə olunması və nəqliyyat sisteminin modernləşdirilməsi kimi istiqamətləri də əhatə edib. Bu müddət ərzində bank tərəfindən Azərbaycanın müxtəlif sektorları üzrə 84 əməliyyat çərçivəsində 1 milyard ABŞ dollarından artıq maliyyə vəsaiti ayrılıb. Ayrılan vəsaitlərin böyük hissəsi artıq uğurla icra olunmuş layihələrə yönəlib. Hazırda isə ümumi dəyəri 635,9 milyon ABŞ dolları olan 11 layihə icra mərhələsindədir. Bu fakt onu göstərir ki, İİB Qrup Azərbaycan iqtisadiyyatına uzunmüddətli və sistemli investisiya yatıran əsas beynəlxalq maliyyə tərəfdaşlarından biridir.

Bankın maliyyələşdirdiyi layihələr Azərbaycanın strateji infrastrukturunun formalaşmasında mühüm rol oynayıb. Bunlar sırasında Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun tikintisi, Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması, Mingəçevir Su Elektrik Stansiyasının modernləşdirilməsi, Vəlvələçay-Taxtakörpü kanalının tikintisi və “Cənub” İstilik Elektrik Stansiyasının inşası xüsusi əhəmiyyət daşıyır. Həmin layihələr iqtisadi səmərəliliklə yanaşı, ətraf mühitin qorunması, enerji dayanıqlılığı və regionların sosial inkişafı baxımından strateji əhəmiyyət daşıyır.

Son illərdə əməkdaşlığın əsas istiqamətlərindən biri də Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasına yönəlmiş layihələrdir. Xüsusilə Qarabağ Suvarma Kanalı layihəsi İİB Qrupun Azərbaycan üçün təsdiq etdiyi ən iri təşəbbüslərdən biri hesab olunur. Ümumi dəyəri 436,67 milyon ABŞ dolları olan layihə azad edilmiş ərazilərdə kənd təsərrüfatının dirçəldilməsi, su təminatının yaxşılaşdırılması və ərzaq təhlükəsizliyinin gücləndirilməsi məqsədi daşıyır.

Bu layihə, eyni zamanda, Bankın postmünaqişə dövründə regionun sosial-iqtisadi reinteqrasiyasına verdiyi dəstəyin bariz nümunəsidir. Suvarma infrastrukturunun qurulması kənd təsərrüfatının inkişafı ilə yanaşı, yeni yaşayış məntəqələrinin formalaşmasına, məşğulluğun artmasına və əhalinin dayanıqlı məskunlaşmasına da ciddi təsir göstərəcək.

Bankın Azərbaycanın su təsərrüfatı layihələrinə marağı bununla yekunlaşmır. COP29 çərçivəsində imzalanmış sazişə əsasən Bank “Qız Qalası” su anbarından əsas suvarma kanalının tikintisi layihəsinə 96,73 milyon ABŞ dolları məbləğində maliyyə ayırıb. İqlim dəyişikliklərinin təsirlərinin gücləndiyi bir dövrdə belə layihələr su resurslarının daha səmərəli idarə olunmasına və aqrar sektorun dayanıqlığının artırılmasına xidmət edir.

Bütün bunların fonunda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakıda keçirilməsi xüsusi siyasi və iqtisadi əhəmiyyət daşıyır. İyunun 16-19-da təşkil olunacaq tədbir Azərbaycanın beynəlxalq maliyyə və diplomatik platformalarda artan rolunun növbəti göstəricisidir. Bununla bağlı qərar İslam İnkişaf Bankı Qrupunun Müdirlər Şurası tərəfindən 2025-ci il mayın 22-də qəbul olunub və Azərbaycan hökuməti ilə Bank arasında müvafiq Anlaşma Memorandumu imzalanıb.

Belə mötəbər beynəlxalq tədbirin Bakıda keçirilməsi bir neçə aspektdən mühüm əhəmiyyət kəsb edir. İlk növbədə, bu, Azərbaycanın İslam dünyasında etibarlı tərəfdaş və regional iqtisadi mərkəz kimi mövqeyini daha da möhkəmləndirir. Eyni zamanda tədbir ölkənin investisiya imkanlarının, nəqliyyat-logistika potensialının və yaşıl enerji strategiyasının beynəlxalq investorlar qarşısında təqdimatı baxımından geniş imkanlar açır.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Ruslan ATAKİŞİYEV,**
**İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, İslam Bankçılığı üzrə ekspert**

İslam İnkişaf Bankı Azərbaycanla bir sıra sahələr üzrə uğurlu əməkdaşlıq həyata keçirib. Xüsusilə bankın maliyyə fəaliyyəti çərçivəsində Azərbaycanda fəaliyyət göstərən yerli banklar vasitəsilə kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərilir. Bu məqsədlə, əsasən “mürabaha” maliyyə aləti vasitəsilə vəsait ayrılır. Ümumilikdə bu istiqamətdə 103 milyon ABŞ dolları həcmində maliyyə vəsaiti yönləndirilib.

Bununla yanaşı, bank Azərbaycanda suvarma sistemlərinin genişləndirilməsi, sosial və iqtisadi infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində də mühüm maliyyə dəstəyi göstərir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma layihələri bu əməkdaşlığın əsas istiqamətlərindən biridir. Bu günədək bank tərəfindən Azərbaycandakı müxtəlif infrastruktur layihələrinə 1 milyard ABŞ dollarından artıq vəsait ayrılıb. Eyni zamanda, gələcək dövrdə də İslam İnkişaf Bankı ilə əməkdaşlığın daha da genişləndirilməsi nəzərdə tutulur. Bu əməkdaşlıq çərçivəsində maliyyə inklüzivliyinin təmin olunması, insanların dini baxışlarından və fiziki imkanlarından asılı olmayaraq maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması prioritet istiqamətlərdən hesab edilir.

Bu baxımdan, İslam maliyyəsi alətlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı fəaliyyətin davam etdirilməsi planlaşdırılır. Son görüşlər və müzakirələr də göstərir ki, xüsusilə sosial və iqtisadi infrastrukturun bərpasına yönəlmiş layihələrin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında daha geniş şəkildə icrası nəzərdə tutulur.

# Aqrar sahədə rəqəmsal keçid

## *Kənd təsərrüfatında da süni intellektin və innovativ texnologiyaların rolu artır*

Bu məsələ 19-cu “Caspian Agro Week” sərgi və forumunun 3-cü gününün əsas müzakirə mövzusu olub. Bildirilib ki, son illər kənd təsərrüfatında süni intellektin köməyi ilə ənənəvi üsulları rəqəmsal və məlumat əsaslı yanaşmalarla əvəz edərək məhsuldarlığı artırmaq, xərcləri azaltmaq və resurslardan səmərəli istifadə etməklə bağlı geniş tədbirlər həyata keçirilir. Süni intellekt böyük həcmdə məlumatları analiz edərək fermerlərə daha dəqiq və vaxtında qərarlar verməyə kömək edir.



Azərbaycanda da kənd təsərrüfatının rəqəmsallaşdırılması və məhsuldarlığın artırılması məqsədilə süni intellektin tətbiqi istiqamətində genişmiqyaslı tədbirlər görülür. Ölkəmizin aqrar sektorunda süni intellektin tətbiqi, hələlik, ilkin mərhələdə olsa da, aqrar sahənin rəqəmsallaşdırılması, məhsuldarlığın artırılması, eləcə də dövlət dəstəyinin optimallaşdırılması üçün əsas hədəflərdən birinə çevrilib. Məhz bu səbəbdəndir ki, Kənd Təsərrüfatı Nazirliyi beynəlxalq tərəfdaşlarla birlikdə aqrar sahədə süni intellektin tətbiqini genişləndirir.

Bakıda keçirilən “Caspian Agro Week” – 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu da bu sahədə əldə olunmuş nailiyyətlərlə yaxından tanış olmaq, təcrübə mübadiləsi aparmaq baxımdan xüsusi əhəmiyyət daşıyır. Kənd təsərrüfatı üzrə regionun ən nüfuzlu tədbiri və milli brendə çevrilmiş “Caspian Agro”nun bu ildən etibarən yeni brend – “Caspian Agro Week” adı ilə keçirilməsi isə tədbirin əhəmiyyətini qat-qat artırır. Elə builki sərgidə dünyanın 45 ölkəsindən 447 şirkətin iştirakı da kənd təsərrüfatı sahəsi üçün mühüm platforma rolunu oynayan toplantıya marağın göstəricisidir.

Qeyd edək ki, regionun ən böyük aqrar sərgisində “Caspian Agro Week” kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələrə geniş yer ayrılıb. Bununla yanaşı, sərgidə “Smart Agro” istiqaməti üzrə süni intellekt, ağıllı kənd, startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları da nümayiş etdirilir.

Sərginin 3-cü iş günü müzakirə olunan məsələlər, nümayiş etdirilən stendlərin zənginliyi ilə diqqət çəkib. Kənd təsərrüfatında “ağıllı texnologiyalar”ın, bu sahədə innovativ yanaşmaların tətbiqi, müasir suvarma sistemlərinin yaradılması və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova qeyd edib ki, bu ilin sonunadək ölkəmizin aqrar sektorunda 33 süni intellekt alətinin hazırlanması planlaşdırılır. Onun sözlərinə görə, artıq 13 belə alətdən istifadəyə başlanılıb, 18 alətin isə cari ilin birinci yarısında istifadəyə verilməsi nəzərdə tutulub.

Nazir müavini deyib ki, kənd təsərrüfatı sektorunda çalışanların fiziki əməyini yüngülləşdirən innovasiyalardan danışarkən süni intellektin rolunu xüsusi qeyd etmək lazım gəlir: “Fermerlər dövlət dəstəyi üçün müəyyən monitorinq nəticələrini gözləyirlər. Bu monitorinqlər isə fiziki insanlarla aparıldıqda müəyyən vaxt aparır. Dövlət dəstəyini daha tez verməyimiz üçün süni intellektlə yoxladığınız nəticələrə uyğun olaraq bu dəstəyini qısa müddət ərzində tədbiq edə bilərsiniz. Bu, fermerin dəstəyə əlçatanlığını ən azı 3 ay sürətləndirmiş olacaq. Cari halda da bitki növünün müəyyən edilməsi ilə bağlı 636 min hektar ərazidə bu iş aparılıb”.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib ki, hazırda ölkənin hidroelektrik stansiyalarında 75-80 faizlik sahədə avtomatlaşma mövcuddur. Onun sözlərinə görə, növbəti strategiya sənədində də bu istiqamət əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib və 2030-cu ilədək həmin göstəricinin 100 faizə çatdırılması hədəflənir. Avtomatlaşdırmanın kənd təsərrüfatı istifadəçilərinin daha dəqiq və etibarlı məlumat əldə etməsinə imkan verəcəyini diqqətə çatdıran nazir müavini bunun həm də iqlim ssenarilərinin hazırlanmasına və məlumat bazalarından daha səmərəli istifadəyə ciddi töhfə olacağını vurğulayıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədr müavini İlham Bayramov diqqəti ölkəmizdə su ehtiyatlarının idarə olunması, kənd təsərrüfatında sudan səmərəli istifadə üçün müasir texnologiyaların tətbiqi ilə bağlı məsələlərə yönəldib. Hazırda Azərbaycanda əkin sahələrinin, təxminən, 11 faizində müasir suvarma texnologiyalarının tətbiq edildiyini bildirən İ.Bayramov deyib ki, digər ərazilərdə də “ağıllı” və müasir suvarma sistemlərinin genişləndirilməsi həm Kənd Təsərrüfatı Nazirliyinin, həm də aidiyyəti dövlət qurumlarının qarşısında duran əsas hədəflərdən biridir.

Sədr müavini hazırda idarəetmə prinsiplərinin rəqəmsal həllərə, texnoloji dəstəyə və dəqiq məlumat bazalarına əsaslandığını diqqətə çatdırıb: “Azərbaycan dövləti üçün də su ehtiyatlarından səmərəli istifadə istiqamətində müasir texnologiyaların tətbiqi əsas prioritetlərdən biridir. Bu istiqamətdə su ehtiyatlarının qiymətləndirilməsi, su uçotunun qurulması, sudan səmərəli istifadə, suyun ədalətli bölüşdürülməsi və son istehlakçıya tələbat səviyyəsində çatdırılması üçün müasir texnologiyaların, o cümlədən süni intellekt həllərinin tətbiqi vacib hesab olunur”.

Energetika nazirinin müavini Samir Vəliyev isə bildirib ki, kənd təsərrüfatında süni intellektin tətbiqinin əsas nəticələrindən biri enerji səmərəliliyinin artırılmasıdır. Aqrar sektorun kifayət qədər enerji tutumlu sahə olduğunu vurğulayan nazir müavininin sözlərinə görə, energetika sahəsində rəqəmsallaşma və süni intellekt məsələləri xüsusi əhəmiyyət daşıyır. Qeyd olunub ki, aqrar sektorda rəqəmsallaşma və süni intellekt konkret istiqamətlərdə enerji səmərəliliyinin artırılmasına gətirib çıxarır. Onun sözlərinə görə, “ağıllı” istixanaların tətbiqi nəticəsində zəruri temperaturun daim qorunması təmin edilir və artıq enerji sərfiyyatının qarşısı alınır, müasir suvarma sistemlərinin tətbiqi isə enerji qənaəti baxımından böyük imkanlar yaradır.

***M.QULİYEV***
***XQ***

Günün sualı

# “Maşınlarımızı harada saxlayaq?”

## Paytaxtın “icazəli” dayanacaqları bahadır, “özəl” yerlərdə isə özbaşınalıqdır

**Bakıda avtomobillərin sayının sürətlə artması, yol infrastrukturunun isə hələlik buna tam uyğunlaşa bilməməsi son illər paytaxtın ciddi infrastruktur problemlərindən birinə çevrilib. Bu çətinliyin ən çox hiss olunan tərəflərindən biri də parklanma ilə bağlı olub. Başqa sözlə, belə bir şəraitdə paytaxt sakinlərinin şəxsi avtomobillə hərəkət etmək rahatlığı pozulub, bu, eyni zamanda, əlavə maliyyə yükü və gündəlik əsəb keçirməsi ilə nəticələnib.**

Ümumiyyətlə, yeraltı dayanacaq yerlərinin qiymətlərinin artması, küçə parklanma məkanlarının məhdudlaşması, qeyri-qanuni “özəlləşdirmə” halları və bəzi obyekt sahiblərinin ümumi istifadədə olan sahələri zəbt etmələri səbəbindən şəhərin nəqliyyat parklanmalarında nəzərəçarpan çətinliklərin sayı daha da çoxalıb.

Azərbaycan Qiymətləndiricilər Palatasının açıqladığı məlumata görə, Bakıda qaraj və yeraltı dayanacaq yerlərinin qiymətləri mart ayında fevral ayı ilə müqayisədə 4,8 faiz artıb. İlk baxışda bu artım statistik rəqəm kimi görünə bilər. Lakin məsələ daha dərindən təhlil edildikdə burada söhbətin təkcə daşınmaz əmlak bazarındakı qiymət dəyişikliklərindən yox, həm də şəhərin nəqliyyat və urbanizasiya siyasətindəki struktur problemlərindən getdiyi aydın olur.

**Nəqliyyat eksperti Cümşüd Əzimovun** fikrincə, qiymət artımının əsas səbəbi dayanacaq yerlərinə tələbin çoxalması və təklifin məhdud olması ilə bağlıdır. Həqiqətən də, Bakı küçələrində avtomobil sıxlığı ildən-ilə artır. Son illərdə əhalinin gəlirlərinin müəyyən qədər yüksəlməsi, kreditlə avtomobil satışlarının genişlənməsi və şəxsi nəqliyyata üstünlük verilməsi avtomobil parkının sürətlə böyüməsinə səbəb olub. Lakin yeni yaşayış massivlərinin və ticarət obyektlərinin tikintisi zamanı parklanma infrastrukturu çox vaxt lazımi səviyyədə nəzərə alınmayıb.

Bu gün paytaxtın bir çox ərazilərində sakinlərin axşam saatlarında avtomobillərin saxlanılması üçün uzun müddət yer axtarışı diqqət çəkir. Xüsusilə Yasamal, Nərimanov, Xətai və Binəqədi rayonlarında yeni tikilən çoxmənzilli binaların ətrafında vəziyyət daha çox narahatlıq doğurur. Belə ki, bir çox hallarda binaların yeraltı dayanacaqları ya kifayət qədər böyük olmur, ya da oradakı yerlər yüksək qiymətə satıldığı üçün sakinlərin əksər hissəsi həmin imkanlardan yararlana bilmir.

Nəticədə avtomobillər səkilərdə, yol kənarlarında, hətta piyadaların hərəkətinə mane olacaq şəkildə park edilir. Bu isə həm şəhərin estetik görünüşünə zərbə vurur, həm də təhlükəsizlik baxımından ciddi problemlər yaradır. Belə şəraitdə yeraltı dayanacaq yerlərinə marağın artması təbiidir və bazar iqtisadiyyatının qanunlarına uyğun olaraq qiymətlər də yüksəkdir.

Ekspertlərin qənaətincə, qiymət artımına təsir edən əsas amillərdən biri də küçə parklanması ilə bağlı yeni qaydaların tətbiqidir. Xüsusilə son illərdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) həyata keçirdiyi “Azparkinq” sistemi şəhər daxilində parklanmanın daha nizamlı təşkili məqsədi daşısa da, bəzi hallarda sürücülərin xərclərinin artmasına gətirib çıxarır. Zonalar üzrə tariflərin dəyişməsi, şəhər mərkəzində parklanmanın məhdudlaşdırılması və qaydaların sərtləşdirilməsi sürücüləri alternativ həll yolları axtarmağa məcbur edir.

Əslində, şəhər mərkəzində avtomobil sıxlığını azaltmaq üçün ödənişli parklanma sisteminin tətbiqi beynəlxalq təcrübədə də geniş istifadə olunur. Məsələn, London, Paris, İstanbul və Moskva kimi böyük şəhərlərin mərkəzi küçələrində yüksək tariflər tətbiq edilir. Məqsəd insanları ictimai nəqliyyatdan istifadəyə təşviq etmək və küçə sıxlığını azaltmaqdır. Lakin bu siyasət paralel olaraq güclü ictimai nəqliyyat sistemi, alternativ dayanacaq infrastrukturu və əlçatan tariflərlə müşayiət olunduğu halda müsbət nəticələrlə diqqət çəkir. Əks halda, problem həll olunmur, sadəcə, vətəndaşın maliyyə yükü artır.

### “Özəl” dayanacaqlar kimlərindir?

Bakıda müşahidə olunan digər ciddi problem isə ümumi istifadədəki parklanma yerlərinin qanunsuz şəkildə zəbt olunması ilə bağlıdır. Son dövrlərdə müxtəlif obyekt sahiblərinin mağaza və restoranların qarşısındakı küçə hissələrini özəl dayanacaq kimi istifadə etmələri geniş narazılıq doğurur. Bu hallar şəhərin mərkəzi küçələrində daha çox müşahidə edilir. Bunun ən son nümunələrindən biri paytaxtın Port Baku ərazisi yaxınlığında, Neftçilər prospektində yerləşən “Barbarisso” uşaq salonunun qarşısında baş verən hadisədir.

İddialara görə, obyektin qarşısına xüsusi maneələr qoyularaq həmin ərazi yalnız müştərilər üçün ayrılıb. Halbuki söhbət rəsmi parklanma məkanı olmayan, ümumi istifadədəki küçə hissəsindən gedir. Özünü “parklanma işçisi” kimi təqdim edən şəxsin “bu yer alınıb” deməsi isə cəmiyyətdə ciddi narazılıq yaradır.

**Nəqliyyat eksperti Adil Nəbiyev** qeyd edir ki, küçələrin və yolların hər hansı fiziki və ya hüquqi şəxs tərəfindən özbaşına istifadəyə götürülməsi qanunvericiliyə ziddir. Azərbaycan qanunvericiliyinə əsasən küçələr və yolkənarı parklanma yerləri ümumi istifadədə olan nəqliyyat infrastrukturunun bir hissəsidir. Bu sahələrin istifadəsi yalnız dövlət qurumlarının qərarı və hüquqi əsaslarla mümkündür.

Burada mühüm məqamlardan biri də ondan ibarətdir ki, bəzi obyekt sahibləri öz bizneslərinin qarşısındakı küçəni faktiki olaraq şəxsi mülk kimi qəbul edirlər. Halbuki obyekt sahibinin məsuliyyəti yalnız ona məxsus və ya icarəyə götürdüyü ərazi ilə məhdudlaşır. Küçə isə dövlətin və cəmiyyətin ümumi istifadəsində olan məkandır. Orada




*Ekspert rəyi*



**Akif NƏSİRLİ,
Liberal İqtisadçılar
Mərkəzinin sədri**

Bakıda avtomobillərin sayı artıqca, yol kənarlarındakı dayanacaqlar da məhdudlaşdırılır. Amma buna baxmayaraq, yeni parklanma yerləri eyni sürətlə çoxalmır. Xüsusilə mərkəzi ərazilərdə küçədə maşın saxlamaq çətinləşdiyi üçün insanlar yeraltı dayanacaqlara daha çox üstünlük verirlər. Bu da qiymətlərin yüksəlməsinə gətirib çıxarır.

Eyni zamanda, ümumi daşınmaz əmlak bazarında da bahalaşma müşahidə olunur və parklanma yerləri də bu bazarın bir hissəsi olduğu üçün qiymətlər paralel şəkildə artır. Nəticədə tələb çox, təklif isə məhdud olduğu səbəbindən qiymətlərdə artım nəzərə çarpır.

“Azparking” üzrə də müəyyən bahalaşma hiss olunur. Bu, əsasən tariflərin zonalara görə dəyişdirilməsi və bəzi ərazilərdə qaydaların sərtləşdirilməsi ilə bağlıdır. Xüsusilə şəhərin mərkəzində parklanma daha bahadır və güclü nəzarət var. Rəsmi olaraq hər yerdə kəskin faiz artımı elan olunmasa da, yeni zonalar və tətbiq olunan qaydalar nəticəsində sürücülər daha çox ödəniş edirlər. Bu da ümumi olaraq parklanmanın bahalaşması kimi diqqət çəkir.

Azərbaycan Qiymətləndiricilər Palatasının məlumatına görə, Bakıda qaraj və yeraltı dayanacaq yerlərinin mart ayında orta qiymətinin fevral ayı ilə müqayisədə 4,8 faiz artması da bunun məntiqi nəticəsidir. Başqa sözlə, bu, şəhərdə avtomobillərin sayının getdikcə çoxalması, yol kənarlarında dayanacaq seçimlərinin azalması və yeni dayanacaq yerlərinin əvvəlki sürətlə aparılmaması ilə əlaqədardır. Bunun nəticəsidir ki, sakinlərin belə bir şərait səbəbindən yeraltı dayanacaq yerlərinə getdikcə üstünlük verməleri qiymətin bahalaşmasına gətirib çıxarır.

hər hansı maneənin qoyulması və vətəndaşların istifadəsinin məhdudlaşdırılması ciddi hüquq pozuntusudur.

Bu cür halların artmasının əsas səbəblərindən biri nəzarət mexanizmlərinin yetərincə səmərəli işləməməsidir. Çox vaxt obyekt sahibləri yol kənarına su bidonları, beton parçaları, dəmir maneələr və digər əşyalar düzərək parklanma yerini “rezerv” saxlayırlar. Hətta bəzi hallarda səhər avtomobilini çıxaran şəxslər yerin tutulmaması üçün həmin məkana müxtəlif maneələr qoyurlar. Bu, artıq paytaxtda adi mənzərə kimi diqqət çəkir.

**Nəqliyyat eksperti Elməddin Muradlı** bildirir ki, dövlət tərəfindən vətəndaşlar üçün ayrılmış pulsuz parklanma yerlərinin zəbt edilməsi qanun pozuntusudur və buna görə inzibati məsuliyyət nəzərdə tutulur. Lakin məsələ təkcə cərimə tətbiqi ilə həll olunmur. Burada ictimai nəzarət, operativ müdaxilə və şəhər mədəniyyətinin formalaşdırılması prinsipi də vacib rol oynayır. Əslində, bu problem təkcə hüquqi məsələ deyil, bu, həm də sosial davranış problemidir. Şəhər mühitində ümumi istifadədə olan məkanlara cəmiyyət hörmət anlayışı tam formalaşmadıqda insanlar küçəni, səkini və ya parklanma yerlərini şəxsi maraqları naminə istifadə etməyə çalışırlar. Bu isə paytaxt həyatında xaos yaradır və vətəndaşlar arasında gərginliyi artırır.

Mövcud qanunvericiliyə əsasən dövlət avtomobil yollarında səlahiyyəti olmayan şəxslər tərəfindən parklanma xidmətinin təşkili və ya ödəniş tələb edilməsi qanunsuzdur. Belə hallara görə fiziki şəxslər 100 manatdan 200 manatadək, vəzifəli şəxslər 300 manatdan 500 manatadək, hüquqi şəxslər isə 1500 manatdan 2500 manatadək cərimə oluna bilər. Zərurət yarandıqda 15 günədək inzibati həbs də tətbiq edilir.

AYNA dəfələrlə bəyan edib ki, küçə parklanma yerlərində sürücülərdən nağd ödəniş tələb olunması tamamilə qanunsuzdur. Buna baxmayaraq, bəzi ərazilərdə hələ də qeyri-rəsmi “dayanacaq nəzarətçiləri” fəaliyyət göstərir və sürücülərdən pul tələb edirlər. Bu isə göstərir ki, problem yalnız qaydaların mövcudluğu ilə deyil, onların icrası ilə bağlıdır.

### Axı hamının öz həyəti yoxdur

Bakıda parklanma probleminin həlli üçün kompleks yanaşmaya ehtiyac var. İlk növbədə, yeni tikilən yaşayış komplekslərində dayanacaq yerlərinin sayı artırılmalıdır. Tikinti şirkətləri üçün bu istiqamətdə daha sərt normativlər tətbiq olunmalıdır. Hər mənzilə uyğun dayanacaq norması müəyyənləşdirilməli və buna ciddi nəzarət edilməlidir. Digər vacib məsələ ictimai nəqliyyatın inkişafıdır. Əgər vətəndaş rahat, sürətli və təhlükəsiz ictimai nəqliyyat sistemindən istifadə edə bilirsə, şəxsi avtomobilə ehtiyac da azalır. Metro xətlərinin genişləndirilməsi, avtobus şəbəkəsinin optimallaşdırılması və şəhərətrafı nəqliyyat əlaqələrinin gücləndirilməsi parklanma probleminin azalmasına mühüm təsir göstərə bilər.

**Nəqliyyat eksperti Şahin Hüseynov** bir sıra inkişaf etmiş ölkələrdə bu məqsədlə istifadə olunan parklanma modellərindən istifadəni zəruri sayır və diqqəti daha çox sürücülərin avtomobilləri şəhərin girişində yaradılan böyük dayanacaqlarda saxlayaraq ictimai nəqliyyata keçmələrinə yönəldir. Bildirir ki, dünyanın bir çox iri şəhərlərində uğurla tətbiq edilən bu model Bakı üçün də aktual hesab olunur.

Şəhərdə qanunsuz zəbt edilmiş parklanma yerlərinə qarşı mübarizə də gücləndirilməlidir. Aidiyyəti qurumlar belə hallara operativ reaksiya verməli, qanunsuz maneələr dərhal sökülməli və cərimələr real çəkindirici təsir göstərməlidir. Əks halda, qanunsuzluq adi davranış normasına çevrilir.

Bütün bunlar onu göstərir ki, paytaxtda parklanma problemi artıq adi məsələ deyil, bu, eyni zamanda, şəhərin gələcək inkişaf strategiyası ilə birbaşa bağlı olan ciddi urban çağırışdır. Qiymət artımları, dayanacaq çatışmazlığı və qanunsuz zəbt halları bir tərəfdən sürücülərin gündəlik həyatını çətinləşdirir, digər tərəfdən isə şəhər idarəçiliyində yeni yanaşmalara ehtiyac olduğunu ortaya qoyur. Əgər bu problem sistemli şəkildə həll edilməzsə, yaxın illərdə Bakıda nəqliyyat sıxlığı, ekoloji yük və sosial narazılıq daha da arta bilər. Buna görə də parklanma məsələsinə təkcə kommersiya və ya cərimə kimi yox, həm də şəhərsalma, sosial ədalət və müasir urban idarəetmə baxımından yanaşmaq vacibdir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Qarabağda “görünməz cəbhə” ölüm saçmaqda davam edir

## 1,5 milyondan çox minanın zərərsizləşdirilməsi isə uzun vaxt tələb edir

**Torpaqlarımızın kütləvi şəkildə minalarla çirklənməsi hazırda burada aparılan bərpa və yenidənqurma işlərini ləngitməklə yanaşı, insanların həyat və sağlamlığına da ciddi təhdid yaradır. Üzləşdiyimiz mina probleminin nə qədər böyük və mürəkkəb, qarşımızdakı yolun isə hələ uzun olmasına baxmayaraq, ölkəmiz mümkün ən qısa müddətdə bunun öhdəsindən gəlmək üçün bütün gücünü səfərbər etmişdir. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsini həll etmək üçün təxminən 30 il və 25 milyard dollar lazımdır.**

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu günlərdə Qarabağ Universitetində diplomatik korpusun nümayəndələri ilə görüşündə bildirib ki, Qarabağda ən ciddi problemlərdən biri mina təhlükəsidir: “1,5 milyondan çox mina bu ərazilərə yerləşdirilib. Bu, Azərbaycan ərazisinin təxminən 12-13 faizini əhatə edir. Təəssüf ki, bəzi ərazilərə mina təhlükəsinə görə giriş mümkün deyil. Minatəmizləmə böyük maliyyə və insan resursları tələb edən həyati əhəmiyyətli missiyadır. Minatəmizləyən mütəxəssislər isə böyük risk altında çalışırlar. 2020-ci ildən bəri mina partlayışları nəticəsində ölən və yaralananların sayı isə 400-ü keçib”.

Hər zaman əhalinin təhlükəsizliyinin təmin olunması üçün dövlət strukturları tərəfindən bütün zəruri tədbirlər görülür. Lakin hər bir vətəndaş bu məsələdə məsuliyyətli davranmalı, qaydalara ciddi əməl etməlidir. Aprelin 26-da işğaldan azad edilmiş Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində baş vermiş mina hadisəsi nəticəsində 1967-ci il təvəllüdlü Xocalı rayonu Yenibinə kənd sakini Əhmədov Vüqar Salah oğlu keçmiş təmas xəttində minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə mina partlayışı nəticəsində sol ayağından xəsarət alıb.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı yaydığı məlumatında bildirilir ki, azad olunan ərazilərdə aprel ayı ərzində 5 336 hektar ərazi təmizlənib.116 tank əleyhinə, 344 piyada əleyhinə mina, 3410 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.

7788.8 hektar ərazi minalardan təmizlənib. Qeyd edək ki, minatəmizləmə əməliyyatlarını ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN) və Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Şuşa, Xocavənd, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan ərazilərində, o cümlədən Qazax rayonunun işğaldan azad edilmiş Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Qızılhacılı kəndlərində həyata keçirib.

**Təhlükəsizlik üzrə ekspert Orxan Musayev** XQ-yə mövzu ilə bağlı açıqlamasında bildirib ki, bu gün işğaldan azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı quruculuq işlərinin və böyük qayıdışın qarşısındakı ən təhlükəli maneə basdırılmış minalardır. Bu məsələyə sadəcə texniki bir problem kimi baxa bilmərik, çünki hədəf insanlardır. Bir təhlükəsizlik mütəxəssisi kimi müşahidə etdiyim ən acınacaqlı məqam odur ki, baş verən bədbəxt hadisələrin kökündə çox vaxt qaydalara qarşı bir anlıq laqeydlik və “mənə bir şey olmaz” arxayınlığı dayanır. İstər ərazidə xidməti vəzifəsini yerinə yetirən şəxslər, istərsə də mülki vətəndaşlarımız bəzən illərdir toxunulmamış kolluqların, şumlan-



mamış ərazilərin nə dərəcədə ölüm saçdığını unudub, müəyyən olunmuş yollardan kənara çıxırlar.

Ekspert daha sonra qeyd edib ki, təbiət hadisələri – yağışlar, sellər və torpaq sürüşmələri minaların yerini daim dəyişir. Dünən təhlükəsiz bildiyimiz cığır bu gün ölüm tələsinə çevrilə bilər. Tapılan şübhəli, maraqçəkən metal və ya plastik əşyalara əl vurmaq isə çox vaxt geri dönüşü olmayan faciə ilə nəticələnir. Təhlükəsizlik nişanlarına qeydsiz-şərtsiz əməl etmək, ərazidə olan hər bir kəsin yerinə yetirməli olduğu ilk və ən vacib vəzifədir. Bu nişanlar boş yerə qoyulmur, onlar həyatla ölüm arasındakı nazik xətti göstərir. İstər “Mina!” lövhəsi olsun, istərsə də ərazidəki hər hansı bir xəbərdarlıq işarəsi – onlara məhəl qoymamaq həm öz həyatını, həm də ətrafdakıların taleyini təhlükə altında qoyur.

Hər bir şəxs anlamalıdır ki, onun edəcəyi bir səhv təkcə özünü deyil, bütün cəmiyyəti və bərpa prosesini riskə atır. Alınan ağır xəsarətlər, itirilən ömürlər sadəcə quru rəqəmlər deyil, hər birinin arxasında gözüyaşlı qalan ana, ata və övladlar var. Əgər şübhəli bir əşya görsəniz, heç nəyə toxunmayın və yalnız öz ayaq izlərinizlə ehtiyatla geri qayıtmaqla aidiyyəti qurumlara xəbər verin. Mina elə bir gizli, gözəgörünməz düşməndir ki, o, yalnız bir dəfə səhv etməyə imkan verir. İkinci şansınız olmaya bilər. Bizim məsuliyyətimiz, ayıq-sayıqlığımız və qaydalara qətiyyətli sadiqliyimiz bu səssiz təhlükədən daha güclüdür. Gəlin, qurduğumuz yeni həyatı qoruyaq və təhlükəsizliyi hər bir mülahizədən ali tutaq.

İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun üzvləri ötən ay Ağdam rayonuna səfər ediblər. Səfər çərçivəsində ANAMA və İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri tərəfindən bir sıra əməliyyat sahələrinə baxış keçirilib. Nümayəndələr ANAMA tərəfindən Ağdam rayonunun Cəvahirli kəndində, Fövqəladə Hallar Nazirliyi tərəfindən Mərzili kəndində, həmçinin minatəmizləmə fəaliyyətinə cəlb olunmuş yerli şirkət tərəfindən Qızılkəngərli kəndi ərazisində icra edilən humanitar minatəmizləmə əməliyyatları ilə ətraflı tanış olublar.

Minatəmizləmə Agentliyi İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində həyata keçirilən humanitar minatəmizləmə tədbirləri barədə məlumat verərək bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra Ağdam rayonunda 43,021 hektar ərazi olmaqla, ümumilikdə, 264,581 hektar ərazidə minatəmizləmə fəaliyyətinin aparıldığını, nəticədə, 248,583 ədəd mina və digər partlayıcı sursat aşkar edilib. Həmçinin müəyyən ərazilərin konservasiya edilərək çəpərlənməsi işlərinin gedişatına toxunan V.Süleymanov, Ağdam,




Füzuli və Cəbrayıl rayonları istiqamətində çəpərləmə işlərinin yekunlaşdığını, Xocavənd və Ağdərə rayonları ərazisində isə fəaliyyətin davam etdiyini diqqətə çatdırıb.

Torpaqları minalarla çirklənməyə görə dünyada ilk beşlikdə yer alan Azərbaycanın əsas hədəfi gələcək nəsillər üçün təhlükəsiz həyat, biomüxtəlifliyin təmin olunmasıdır. Odur ki, ANAMA tərəfindən mütəmadi olaraq müharibədən zərər çəkmiş rayonlarda mina və partlayıcı qurğuların təhlükəsinə dair maarifləndirmə tədbirləri icra edilir. Əhalinin bu kimi risklərdən qorunması, partlayıcı sursatların törədə biləcəyi fəsadlardan müdafiə olunması, eləcə də təhlükəsiz mühitinin yaradılması məsələlərinə ANAMA xüsusi önəm verir. Bu məqsədlə kənd sakinləri, fərdi sahibkarlıq, kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan sakinlər arasında daim təbliğat işləri aparılır.

Sözsüz ki, dövlətimiz tərəfindən mina təhlükəsi ilə bağlı görülən bütün tədbirlər vətəndaşlarımızın sağlamlığını qorumağa, insanların həyatının xilasına xidmət edir.

***Müşfiq MİRZƏ***
***XQ***

# Dövlətin dəstək və bərpa layihələri “həssas təbəqə”nin mötəbər dayağıdır

**Əlilliyin qiymətləndirilməsi və əlillərin tibbi-sosial bərpa yolu ilə cəmiyyətə inteqrasiya olunması Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əsas fəaliyyət istiqamətləridir. Ötən il bu qurum 54 min 500 şəxsə əlillik təyin edib. Onlardan 25 min 300 nəfərin ilkin, 29 min 200 şəxsin isə təkrar əlilliyi təsdiqlənib.**





Son illərdə əlilliyin təyin olunması sahəsində aparılan islahatlar bu mexanizmin daha sistemli və effektiv şəkildə qurulmasına imkan yaradıb. Nəzarət mexanizmləri gücləndirilib, xidmətlərin keyfiyyəti artırılıb və bütün mərhələlərdə şəffaflıqla yanaşı, vətəndaş məmnuniyyətinə diqqət edilib və əlilliyin qiymətləndirməsi proseduru rəqəmsallaşdırılıb.

Hazırda əlillik dərəcəsinin müəyyənləşdirilməsi tam elektron qaydada, şəxsin kimliyini müəyyən edən bütün məlumatlar anonimləşdirilmiş sənədlərlə, obyektiv və ədalətlə həyata keçirilir.

“Əlilliyin qiymətləndirilməsi Qaydası”na uyğun olaraq vətəndaşların əlillik vəziyyəti dövlət tibb müəssisələrinin elektron göndərişləri əsasında müəyyən edilir.

Qiymətləndirmə üçün vətəndaş, ilk növbədə, qeydiyyatda olduğu yaşayış yeri üzrə tibb müəssisəsinə müraciət edir. Tibb müəssisəsi göndəriş (Forma-88) tərtib edərkən əlilliyi qiymətləndiriləcək şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyən etməyə imkan verən bütün məlumatları şifrələyib ƏƏSMN-nin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin “Əlillik” altsisteminə ötürür.

Bu prosesdə həkim-ekspertlər vətəndaşın yalnız tibbi göstəricilərini – diaqnoz və xəstəlik barədə məlumatları görürlər. Beləliklə, qiymətləndirmə zamanı subyektiv yanaşma mümkün olmur, vətəndaşın əlillik vəziyyəti barədə qərar obyektiv meyarlara əsaslanır. Əlilliyin təyin olunub-olunmaması ilə bağlı məlumat vətəndaşa SMS-lə göndərilir və proaktiv qaydada sosial ödənişlər təyin edilir.

## Səlahiyyət məsuliyyət də yaradır

Prezident İlham Əliyevin “Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 19 mart 2026-cı il Fərmanına əsasən, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin səlahiyyətləri genişləndirilib. Belə ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin əhalinin icbari tibbi sığortası sahəsində səlahiyyətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilib.

Fərmana görə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxslə birləşmə formasında yenidən təşkili yolu ilə ƏƏSMN-nin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi (DTSERA) publik hüquqi şəxs yaradılıb. Agentlik ölkədə icbari tibbi sığortanın tətbiqi, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitin icbari tibbi sığorta fondunda cəmləşdirilməsi və həmin vəsaitin idarə olunması, icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı və xərclərin ödənilməsi funksiyalarını həyata keçirməklə bərabər, habelə əlilliyin müəyyən edilməsi və həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi sahələrində də fəaliyyət göstərəcək.

Fərmanın tələbinə görə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin hüquq və öhdəlikləri, habelə əmlakı DTSERA-ya keçir. Eyni zamanda, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsi ilə bağlı hüquq və öhdəlikləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə həvalə edilir. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əlilliyi olan şəxslərə reabilitasiya xidmətlərinin göstərilməsi ilə bağlı hüquq və öhdəlikləri isə Sosial Xidmətlər Agentliyinə keçir.

## Süni intellekt qiymətləndirməsi

Ötən il “Əlillik” altsistemində tətbiq edilmiş süni intellekt əsaslı funksionallıq tibbi göndərişlərdə mətn analizinin aparılmasına, qərarvermə üçün əhəmiyyətli göstəricilərin avtomatik müəyyənləşdirilməsinə və s. imkan yaradıb. Bu texnoloji həll, həmçinin sui-istifadə hallarına səbəb ola bilən həssas və riskli məlumatların avtomatik aşkarlanmasını təmin edərək nəzarət mexanizmlərini gücləndirib. Nəticədə, subyektiv yanaşmaların və potensial yanlışlıqların minimuma endirilməsi istiqamətində mühüm addım atılıb.

Əlilliyin qiymətləndirilməsi sistemində süni intellekt texnologiyalarının tətbiqinin daha da genişləndirilməsi istiqamətində işlər davam edir. Bu işlər çərçivəsində tibbi-sosial məlumatların dərin təhlili, çoxmənbəli informasiya bazalarının inteqrasiyası, sənədlərin avtomatlaşdırılmış emalı və risk əsaslı qiymətləndirmə mexanizmlərinin daha da təkmilləşdirilməsi nəzərdə tutulub.

Nəhayət, qiymətləndirmə zamanı qərarvermə prosesində həm sürət, həm də dəqiqlik əhəmiyyətli dərəcədə artacaq. Vahid standartlar formalaşacaq və məlumatların sistemli şəkildə analizinə, mümkün uyğunsuzluqların operativ aşkarlanmasına imkan yaranacaq.

## Yeni meyarların üstünlükləri

2022-ci ildən “Əlilliyin müəyyən olunması meyarları”na əsasən, əlilliyin ənənəvi üç dərəcəsi əvəzinə, həyat fəaliyyətinin əsas kateqoriyalarının məhdudlaşması dərəcələrinə uyğun olaraq orqanizmin funksiyalarının pozulması faizinə əsaslanan qiymətləndirilmə mexanizmi tətbiq edilir. I, II və III dərəcə üzrə müvafiq olaraq 81–100 faiz, 61–80 faiz və 31–60 faiz aralıqları müəyyən edilir. Əlilliyə əsas verən meyarların sayı 5 dəfə artırılaraq 128-dən 634-ə çatdırılıb.

Bununla da əlilliyin əhatə dairəsinə daxil olan diaqnozların sayı genişləndirilib.

Artıq vətəndaşa iki və daha artıq diaqnoz üzrə əlillik təyinatı aparmaq mümkün olduqda əlilliyə əsas verən ən yüksək orqanizm funksiyalarının pozulma dərəcəsinin üstünə 10 faiz əlavə edilir, ən uzun müddət seçilir və yüksək sosial təminata əsas verən səbəb əlaqəsi götürülür. Yeni meyarların tətbiqi vətəndaşların sosial müdafiəsinə yönəlmiş və müstəqillik tariximizdə əlillik sahəsində ən böyük, əhatəli islahatdır.

## Bərpa xidmətləri

Sosial sahədə aparılan köklü islahatların müsbət nəticələrindən biri əlillər üçün müasir və əlçatan bərpa xidmətləri sisteminin yaradılmasıdır. Hazırda agentliyin tabeliyində 4-ü Uşaq Reabilitasiya Mərkəzi, digər 2-si Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi və Bərdə şəhərindəki “RehaPoint” Reabilitasiya Məntəqəsi daxil olmaqla 17 reabilitasiya müəssisəsi fəaliyyət göstərir.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq son illərdə ölkəmizdə reabilitasiya sistemi müasir tələblərə uyğun qurulub, habelə Qəbələ və Şəmkirdə müasir tələblərə cavab verən Uşaq Reabilitasiya mərkəzləri istifadəyə verilib. Ölkəmizdə qurulan müasir reabilitasiya sistemi, reabilitasiya mərkəzləri şəbəkəsinin genişlənməsi, yeni bərpa üsullarının tətbiqi bu mərkəzlərdə xidmət göstərilən şəxslərin sayını artırıb. 2018–2025-ci illərdə bərpa xidməti göstərilən əlillərin illik sayı 12 dəfəyədək artaraq 142 minə çatıb.

Eyni zamanda, reabilitasiya müəssisəsi olmayan bölgələrdə yaşayan vətəndaşların xidmətlərə çıxışını asanlaşdırmaq məqsədilə müxtəlif layihələrin icrasına başlanılıb. Hərəkət məhdudiyyəti olan şəxslərə ev şəraitində tibbi və sosial-psixoloji dəstək göstərilməsi məqsədilə səyyar bərpa xidmətləri təşkil olunur.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi hazırda 6 min 100 əlilə evlərində (səyyar) reabilitasiya xidmətləri göstərir. Qeyd edilən kateqoriyaya aid olan və səyyar bərpa xidmətlərindən yararlanmaq istəyən əlilliyi olan şəxslər (və ya qanuni nümayəndələri) nazirliyin “142” Çağrı mərkəzinə, DOST mərkəzləri və ya ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyasına müraciət edirlər. Müraciətlə bağlı agentliyin həkim və psixoloqlarından ibarət səyyar briqadası onların evlərinə gələrək ilkin müayinə və qiymətləndirmə aparır. Əlilin faktiki vəziyyəti səyyar xidmət göstərilməsi üçün nəzərdə tutulan diaqnozlara aid olduqda ona fərdi plan əsasında səyyar bərpa xidmətləri göstərilir.

## “RehaPoint” və “Rehabus”

Agentlik bərpa xidmətlərinin əhatəsinin genişləndirilməsi məqsədilə “RehaPoint” – Reabilitasiya Məntəqəsi adlı konsepsiya da icra edir. İlk belə məntəqə 2023-cü il dekabrın 1-dən Bərdə şəhərində yerləşən Qarabağ Regional DOST Mərkəzində fəaliyyət göstərir. Bölgədə yaşayan əlillər burada ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətlərindən faydalanırlar, eləcə də ehtiyac duyduqları bərpa vasitələrini əldə etmək üçün Bakıda yerləşən mərkəzə gəlmədən bu vasitələri əldə edə bilirlər. Məntəqədə indiyədək 3 min 600-dən çox şəxs bərpa xidmətləri ilə təmin edilib, 380-dən çox əlilə isə ehtiyaclarına uyğun 5 min 300-dən çox reabilitasiya vasitəsi verilib.



Bundan əlavə, 2022-ci ildən Sumqayıtda və Abşeron rayonunda “RehaBus” (Reabilitasiya Avtobusu) xidmətinə başlanılıb. 2025-ci ildə layihənin əhatə dairəsi genişləndirilib. Layihə çərçivəsində bu ərazilərdə yaşayan əlil uşaqlar (onları müşayiət edən yaxınları ilə birgə) avtobusla Bakı şəhərindəki 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə çatdırılır.

Ötən ilin oktyabr ayından etibarən ölkənin ikinci böyük şəhəri olan Gəncədə də “RehaBus” xidmətinə başlanılmışdır. Gəncədə yaşayan və ambulator bərpa xidmətlərinə cəlb edilən əlil uşaqlar bu xidmət çərçivəsində reabilitasiya avtobusu ilə ödənişsiz şəkildə agentliyin Şəmkirdəki Uşaq Reabilitasiya Mərkəzinə çatdırılırlar.

Fəaliyyətə başladığı dövrdən indiyədək bu layihə çərçivəsində 2 min 650-yə yaxın əlilliyi olan şəxsə xidmətlər göstərilib. “Rehabus” layihəsi 2025-ci ildə IDDA AWARDS müsabiqəsində “İlin startapı” nominasiyasında 3-cü yerə layiq görülüb.

## İnklüziv layihələr

Ötən il Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Azərbaycanda ilk dəfə olaraq eşitmə və nitq məhdudiyyətli şəxslər üçün görüntülü ünsiyyətə əsaslanan “Səsiniz olaq” adlı onlayn surdotərcümə xidməti istifadəyə verib. Bu innovativ xidmət eşitmə və nitq məhdudiyyətli şəxslərin müraciətlərinin dövlət qurumları, özəl sektor və s. ötürülməsini təmin edərək həmin şəxslərlə işarət dili bilməyən tərəflər arasında “virtual körpü” funksiyasını yerinə yetirir.

Vətəndaş videozəng və ya mesaj vasitəsilə operatorla əlaqə saxlayır. Operator tərcüməçi funksiyasını yerinə yetirərək müraciətin istiqamətinə uyğun üçüncü tərəflə əlaqə yaradır və surdotərcümə vasitəsilə onlayn kommunikasiyanı təmin edir. Bu inklüziv layihə ÜST-də ən yaxşı təcrübə elan olunub və qurumun Avropa regionu üzrə əlillər üçün əlçatanlığın, inklüziv mühitin və sosial inteqrasiyanın təmini sahəsində uğurlu təcrübələri əhatə edən sənədə daxil edilib.

Agentliyin icrasına başladığı rəqəmsal və inklüziv layihələrdən biri də vahid rəqəmsal “Sənə özəl” platformasıdır. Bu platforma əlillərin sosial həyata fəal inteqrasiyasına, xidmətlərə rahat çıxışına imkan yaradır. Platforma vasitəsilə rəqəmsal əlillik kartı (QR/barkod əsaslı identifikasiya), tərəfdaşlar tərəfindən güzəşt və imtiyazlar, fərdi məlumatlara (reabilitasiya sənədləri, arayışlar və s.) vahid çıxış imkanları təmin olunur. “Sənə özəl” platforması IDDA AWARDS müsabiqəsində “İlin rəqəmsal layihəsi” nominasiyası üzrə 2-ci yerə layiq görülüb.

Bununla yanaşı, “Müstəqil həyat tərzi” və “Həmyaşıd dəstəyi” proqramları vasitəsilə əlillərin özünəxidmət və sosial bacarıqlarının artırılması, onların cəmiyyətə fəal inteqrasiyası təşviq olunur. Agentlik əlillərin cəmiyyətə inteqrasiyası istiqamətində maarifləndirici tədbirlər görür. “Ağlabatan uyğunlaşdırılma” hüququnun tətbiqinin genişləndirilməsinə yönəlmiş yeni sosial layihə çərçivəsində əlillərə “e-sosial” mobil tətbiqi üzərindən müəssisə, idarə və təşkilatlara ağlabatan uyğunlaşdırılma tələbinin ünvanlanması və prosesin izlənməsi qaydaları barədə məlumat verilir.

## Hippoterapiya, rəqs və yoqa terapiyası

Son illər ölkədə müasir reabilitasiya sisteminin qurulması ilə yanaşı, bu sahədə biopsixososial modelə əsaslanan xidmət spektrinin yeni istiqamətlər üzrə xeyli genişlənməsi də təmin edilib. DTSERA-nin bərpa mərkəzlərində ənənəvi üsullarla paralel, qabaqcıl dünya təcrübəsinə uyğun ippoterapiya, rəqs terapiyası, yoqa, robotik reabilitasiya, sosial-psixoloji bərpa və s. üsulların da tətbiqi həyata keçirilir. Ötən dövrdə həmin mərkəzlərdə 1350 əlil hippoterapiya (atlarla terapiya) üzrə xidmətlərə cəlb edilib.

Agentlik və “Baku GoldenHorse Therapeutic and Educational Center” atçılıq mərkəzinin birgə təşkil etdiyi hippoterapiyada məqsəd həmin şəxslərin at üzərində hərəkət vasitəsilə bədən əzələlərinin aktivliyini artırmaqdır. Bu terapiya üsulu, eyni zamanda, əlillərin ümumi əhvali-ruhiyyəsinin yüksəldilməsinə, autizm spektr pozuntusu, daun sindromu, serebral iflic, nitq məhdudiyyətləri və s. olan uşaqların sosial-psixoloji və fizioterapevtik reabilitasiyasına müsbət təsir göstərir.

Digər müasir bərpa üsulu olan rəqs terapiyası “DanceAbility Azərbaycan” İnklüziv Rəqs Şirkəti ilə birgə təşkil olunur və əlillərin böyük marağına səbəb olan layihələrdən biridir. Rəqs terapiyası zamanı təhlükəsiz və qərəzsiz mühit yaratmaq, insanlara vücud vasitəsilə öz emosiyalarını ifadə etmək, həmçinin empatiya əsaslı ünsiyyət və münasibət qurmağın yolları barədə təcrübəyə əsaslanan təlimlər keçirilir. Həyata keçirilən inklüziv proqram əlilliyi olan şəxslərin yeni bacarıqlarının formalaşması, eləcə də onların sosiallaşmasına şərait yaradır.

İcma əsaslı bərpa xidməti də əlillərin yaşadıqları icma mühitində erkən müdaxilə və davamlı dəstək mexanizmləri vasitəsilə sosial adaptasiyasını təmin etməyə yönəlmiş kompleks xidmət modelidir. Bu xidmətin əsas məqsədi bərpa mərhələsində əldə edilmiş funksional, psixoloji və sosial nəticələrin icma mühitində qorunmasını və möhkəmləndirilməsini təmin etmək, sosial izolyasiyanın qarşısını almaq, müstəqil həyat bacarıqlarını inkişaf etdirmək, eləcə də ailə və icma resurslarını reabilitasiya prosesinə inteqrasiya etməkdir.

## Ukraynalı uşaqlara dəstək

Ukraynadakı müharibədən əziyyət çəkmiş uşaqların ölkəmizə gətirilərək bərpa xidmətlərinə cəlb edilməsi işləri də davam etdirilir. Uşaqlara agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində 10 günlük reabilitasiya proqramı çərçivəsində tibbi, eləcə də sosial-psixoloji bərpa xidmətləri göstərilir.

Onlar üçün peşəkar psixoloqlar tərəfindən fərdi məsləhətlər, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri təşkil olunur. Qəbələ və Şəkidəki istirahət mərkəzlərinə, tarixi-memarlıq abidələrinə ekskursiyalar da təşkil olunur. Məqsəd onların emosional vəziyyətlərinin sabitləşməsinə, cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstərməkdir. Ötən dövrdə 300-ə yaxın ukraynalı uşaq ölkəmizə gətirilərək sosial-psixoloji bərpa xidmətləri ilə təmin edilmişdir.

## Bərpa xidmətlərinə əlçatanlıq

Ümumdünya Səhiyyə Təşkilatı reabilitasiya vasitələrinin növlərinin qurumun təsnifatına uyğun qruplaşdırılması, eləcə də həmin vasitələrin siyahısının genişləndirilməsi məqsədilə son illər qanunvericiliyə dəyişikliklər edib və əlillərə dövlət büdcəsi hesabına verilən bərpa vasitələrinin sayı 57-dən 130-a çatdırılıb.

Həyata keçirilən islahatlar nəticəsində dövlət büdcəsi hesabına bu kateqoriyaya aid şəxslərə təqdim edilən bərpa vasitələrinin illik sayı 2018-ci ilə nisbətən 6 dəfə artaraq ötən il 212 minə çatıb. Onu da qeyd edək ki, bərpa vasitələrini təhvil almaq üçün mərkəzə gələ bilməyən əlillərə ehtiyac duyduqları bərpa vasitələri onların ünvanlarına aparılır. Təkcə ötən il 900-dən çox şəxsə 5 min 800-ə yaxın reabilitasiya vasitəsi evlərinə aparılaraq təqdim olunmuşdur.

## Qazilərə qayğı və diqqət

Vətən müharibəsindən sonra qazilərimizlə bağlı həyata keçirilən genişmiqyaslı dəstək tədbirləri sosial siyasətin prioritet istiqamətini təşkil edib. Bu dəstək tədbirlərinin bir istiqaməti də Vətən müharibəsi əlillərinin bərpa xidmətləri və vasitələri ilə təminatına yönəlib.

ƏƏSMN-də müasir reabilitasiya infrastrukturu yaradılıb ki, bu da qazilərin səmərəli, keyfiyyətli tibbi-sosial bərpa xidmətləri ilə əhatə olunması üçün mühüm potensialdır. Bu müəssisələrdə həmin xidmətlərin göstərilməsi üçün şəraitin yüksək standartlar səviyyəsində qurulması təmin edilib.

Postmüharibə dövründə DTSERA 3 min 800 qaziyə tibbi və sosial-psixoloji bərpa xidmətləri göstərib. Agentliyin bərpa mərkəzlərində onların reabilitasiya potensiallarının reallaşdırılması üçün davamlı olaraq məqsədyönlü işlər aparılıb. Bu məqsədlə peşəkar həkim komandası müasir və effektiv bərpa üsulları tətbiq edib. Görülən işlər nəticəsində qazilərdən 270 nəfəri sağlamlığına qovuşub. Digər qazilərlə də reabilitasiya işləri davam edir.

Agentliyin reabilitasiya müəssisələrində 3 min 800-dən çox Vətən müharibəsi iştirakçısına tibbi, sosial və psixoloji dəstək göstərilib. Bu dövrdə 500-dən çox qazi isə 621 ədəd son nəsil yüksək texnologiyalı protezlə təmin edilib. Bu protezlər aktivliyi və funksionallığı ilə onların sərbəst və inamlı şəkildə hərəkət etmələrinə, hətta istədikləri zaman futbol oynaya bilmələrinə belə imkan verir.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 123** **29 aprel 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 249-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 249-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 361 (Cild I); 2024, № 9, maddə 1100; 2025, № 12 (II kitab), maddə 1231; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 19 mart tarixli 87 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, preambulada və 1-ci hissədə "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası" üzrə:

1.2.1. adında və I bölmənin 1-ci hissəsində "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

1.2.2. I bölmənin 1-ci hissəsində "icra məmurlarının" sözləri "dövlət icra məmurlarının (bundan sonra – icra məmurları)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 17 mart tarixli 83 nömrəli və 19 mart tarixli 87 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 161-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci abzasa "aparır və" sözlərindən sonra "xüsusi icra məmurlarının icraatına yönəldilməsi üçün tələbkara verildiyi hal istisna olmaqla" sözləri əlavə edilsin;

2.2. beşinci-on dördüncü abzaslar altıncı-on beşinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"Tələbkar icra qeydinin aparılması ilə eyni vaxtda icra qeydinin xüsusi icra məmurunun icraatına yönəldilməsi məqsədilə tələbkara təqdim edilməsi ilə bağlı müraciət edə bilər.".

**3.** "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 mart tarixli 62 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

3.1.1. 1.1.1.1.2.6-cı yarımmaddəyə "haqlarından" sözündən sonra "və xüsusi icra məmurunun fəaliyyətinə görə onlara ödənilən standart və əlavə icra haqlarından" sözləri əlavə edilsin;

3.1.2. 1.2.1.3.2.0-cı yarımmaddəyə "notariuslar" sözündən sonra "və xüsusi icra məmurları" sözləri əlavə edilsin;

3.1.3. 1.2.4.3.0.0-cı yarımmaddəyə "notariuslar," sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə" üzrə:

3.2.1. 1.2.1.6-cı abzasa (hər iki halda)) "notariuslar" sözündən sonra "və xüsusi icra məmurları" sözləri əlavə edilsin;

3.2.2. 1.2.4.3-cü abzasa "notariuslar," sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 191 (Cild I); 2024, № 3, maddə 359, № 7, maddə 930) ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın 1.4.5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.4.6-cı yarımbənd əlavə edilsin:

"1.4.6. xüsusi icra məmurları tərəfindən "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, məhkəmələrin və digər orqanların sənədlərinin icrasının həyata keçirilməsi ilə əlaqədar olan xidmətlərin göstərilməsi.".

**5.** "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 noyabr tarixli 354 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1277 (Cild I); 2024, № 3, maddə 294; 2026, № 1, maddə 84) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında və 1-ci hissədə "icra" sözü "dövlət icra" sözləri ilə əvəz edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası" üzrə:

5.2.1. adında "icra" sözü "dövlət icra" sözləri ilə əvəz edilsin;

5.2.2. 1.1-ci bənddə "İcra" sözü "Dövlət icra" sözləri ilə, "icra məmuru" sözləri "dövlət icra məmuru (bundan sonra – icra məmuru)" sözləri ilə əvəz edilsin;

5.3. həmin Qaydanın 1 və 3 nömrəli əlavələrinin adlarında və mətnlərində "icra" sözü "dövlət icra" sözləri ilə əvəz edilsin;

5.4. həmin Qaydanın 2 nömrəli əlavəsinin adında "icra" sözü "dövlət icra" sözləri ilə, mətnində "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

5.5. həmin Qaydanın 4 və 5 nömrəli əlavələrinin adlarında və mətnlərində (ikinci və üçüncü hallarda) "icra" sözü "dövlət icra" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 124** **30 aprel 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 avqust tarixli 300 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 20-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 avqust tarixli 300 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1438 (Cild I) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollegiya üzvlərinin sayı 15 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının maliyyə naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının rəhbərinin müavinləri

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin direktoru

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktoru

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinin direktoru".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 125** **1 may 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 8 iyun tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 8 iyun tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1196 (Cild I) ilə təsdiq edilmiş "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.3-cü bəndə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Gənclər evi" bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. "Gənclər evi" sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyətləri yarada və ya onlarda iştirak edə bilər.".

**2.** 2.6-cı bəndə "işin həcminə" sözlərindən sonra ", sahibkarlıq fəaliyyətindən əldə edilmiş gəlirlərə" sözləri əlavə edilsin.

**3.** 2.11.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.11.4-cü yarımbənd əlavə edilsin:

"2.11.4. sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 128** **4 may 2026-cı il, Bakı şəhəri**

**"İstilik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 442 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İstilik enerjisindən istifadə Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

**2.** Müəyyən edilsin ki:

2.1. "İstilik enerjisindən istifadə Qaydaları"nda Elektron Hökumət İnformasiya Sisteminin xidmət kanalı üzərindən paylayıcının informasiya sistemi vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurların təşkili təmin edilənədək həmin prosedurlar birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir;

2.2. "İstilik enerjisindən istifadə Qaydaları"nda həyata keçirilməsi nəzərdə tutulan prosedurlar tikintiyə icazə icraatı çərçivəsində tikinti obyektlərinin şəbəkəyə qoşulması ilə əlaqədar layihənin və texniki şərtlərin verilməsinə münasibətdə şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

**3.** "İstilik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1324 (Cild I); 2024, № 3, maddə 305, № 4, maddə 450; 2025, № 2, maddə 204, № 12 (II kitab), maddə 1257) ləğv edilsin.

**4.** "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti "İstilik enerjisindən istifadə Qaydaları"nda nəzərdə tutulan paylayıcının müvafiq informasiya sisteminin formalaşdırılmasını doqquz ay müddətində təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 129** **6 may 2026-cı il, Bakı şəhəri**

**"Dövlət xidmətlərinin reqlamentinin nümunəvi forması"nın, "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminə daxil ediləcək məlumatların siyahısı"nın və "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 dekabr tarixli 543 nömrəli Fərmanının 3.2.1-ci, 3.2.2-ci və 3.2.3-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət xidmətlərinin reqlamentinin nümunəvi forması" təsdiq edilsin *(əlavə olunur).*

**2.** "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminə daxil ediləcək məlumatların siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

**3.** "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

**4.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə:

4.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Dövlət Xidmətlərinin Elektron Reyestrinin (bundan sonra - DXER) "Hökumət buludu"nda yerləşdirilməsini, habelə DXER-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

4.2. DXER-də formalaşan açıq məlumatların "Açıq məlumatlar" portalında yerləşdirilməsini təmin etsin.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərarın 3-cü hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**6.** Dövlət orqanları və yerli özünüidarəetmə orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər, digər büdcə təşkilatları, habelə qanuna əsasən inzibati akt, texniki sənəd və ya digər hüquqmüəyyənedici sənəd qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxslər yeni xidmət müəyyən edən normativ hüquqi akt qüvvəyə mindiyi tarixdən 30 (otuz) iş günündən gec olmayaraq dövlət xidmətinin reqlamentini DXER-in informasiya sisteminə daxil edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 130** **6 may 2026-cı il, Bakı şəhəri**

**"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183, № 4 (II kitab), maddə 413, № 7, maddə 724, № 10, maddə 984; 2026, № 1, maddə 89) 2-ci hissəsində "aprelin" sözü "iyulun" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 131** **6 may 2026-cı il, Bakı şəhəri**

**"Qaz yanacağı ilə işləyən qurğu və avadanlıqların təhlükəsizliyi haqqında Texniki Reqlament (TR 001/2026/AZ)"in təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının 2.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Qaz yanacağı ilə işləyən qurğu və avadanlıqların təhlükəsizliyi haqqında Texniki Reqlament (TR 001/2026/AZ)" təsdiq edilsin *(əlavə olunur).*

**2.** Bu Qərar dərc edildiyi gündən 6 (altı) ay sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*Aktual müsahibə*

**Müsahibimiz Bakı Dövlət Universiteti cəbr və həndəsə kafedrasının müdiri, professor, Əməkdar elm xadimi, Ali Attestasiya Komissiyasının "Riyaziyyat və mexanika" üzrə Ekspert Şurasının sədri, Türkiyənin TÜBİTAK mükafatı laureatı Arif Səlimovdur.**

# Nüfuzlu beynəlxalq elmi nəşrlər reytinq tribunasıdır

## *Saxta xarici jurnallar isə kələkbazlıqla məşğuldur*



Son illərdə Azərbaycanda elmi nəşrlərə yanaşma daha strateji xarakter almış, beynəlxalq akademik mühitə inteqrasiya və tədqiqat keyfiyyətinin artırılması prioritetə çevrilmişdir. Xüsusilə "Web of Science" və "Scopus" kimi bazalarda indekslənən jurnallarda nəşr olunmaq alimlər üçün mühüm nüfuz və karyera göstəricisidir. Bununla yanaşı, bəzi nəşriyyatlar ətrafında müzakirələr də artmışdır. Xüsusən Multidissiplinar Rəqəmsal Nəşriyyat İnstitutunun (MDPI) jurnalları və "Lambert Academic" kimi nəşriyyatların fəaliyyətində elmi keyfiyyətdən çox kommersiya maraqlarının ön planda olması iddiaları səbəbindən bu platformalarda dərc olunan işlərə elmi ictimaiyyətdə daha ehtiyatla yanaşılır.

Yaxın-uzaq xaricdə görkəmli riyaziyyatçı kimi tanınan **professor Arif Səlimovla** bu barədə həmsöhbət olduq. O, beynəlxalq elmi bazalarda indekslənən 100-dən çox məqalənin və 2 monoqrafiyanın müəllifi, həndəsə sahəsində tanınmış alimdir. Həm fəlsəfə doktoru, həm də elmlər doktoru dərəcələrini "həndəsənin Məkkəsi" sayılan məşhur Kazan Dövlət Universitetində müdafiə etmişdir. 25 il Türkiyənin Atatürk Universitetində çalışmış və TÜBİTAK mükafatına layiq görülmüşdür.

***– Arif müəllim, Azərbaycan alimləri indi yerli nəşrlərdən daha çox beynəlxalq indeksli platformalarda çıxış etməyi üstün sayırlar. Beynəlxalq elmi nəşrlərə bu münasibəti necə qiymətləndirirsiniz?***

– Bu yanaşma elmi göstəricilərin (karyera, maliyyə, vəzifə) artan rolu və qlobal elmi mühitə uyğunlaşma ilə bağlıdır. Azərbaycan alimləri də qlobal elmi mühitə çıxmaq və tədqiqatlarının beynəlxalq səviyyədə tanınması üçün aktiv mövqe tuturlar. Lakin yüksək tələblər, çıxış imkanlarının məhdudluğu və maliyyə xərcləri müəyyən çətinliklər yaradır. Ümumilikdə isə yanaşma daha peşəkarlaşır.

***– Elmi nəşrlərlə bağlı hansı problemlər dissertasiyaların müdafiəsinə mane olur?***

– AAK-ın rədd qərarlarının səbəbləri müxtəlifdir. Bunlara formatlaşdırma səhvləri, prosedur qaydalarının pozulması, plagiat halları və eyni zamanda, AAK tərəfindən tanınmayan jurnallarda nəşrlər daxildir. Rədlərin bir hissəsi məhz nəşr problemləri ilə bağlıdır, AAK siyahısına daxil olmayan jurnallarda və ya beynəlxalq bazalarda indeksləşdirilməyən nəşrlərdə çap olunmuş məqalələrdir. Jurnal sonradan bu bazalardan çıxarılarsa, həmin məqalə də etibarsız sayılır.

Yeri gəlmişkən, deyim ki, saxta jurnallar problemi Azərbaycanda son illərdə ciddi şəkildə aktuallaşıb və geniş yayılıb. 2023-cü ildə 348 azərbaycanlı müəllifin belə jurnallarda yüzlərlə məqalə dərc etdirdiyi qeyd olunur. Bu nəşrlərə "Beynəlxalq Elmin İnkişafı üzrə Norveç Jurnalı", "Danimarka Elmi Jurnalı", "Slovakiya Beynəlxalq Elmi Jurnalı" kimi platformalar daxildir. Belə jurnalların elmi etibarlılığı isə akademik mühitdə ciddi suallar doğurur.

***– Etiraf edək ki, bu gün məqalə çap etdirmək yarışı gedir. Elmi mühitdə məqalə çap etdirmək tendensiyası elmi keyfiyyətə necə təsir edir?***

– Bu son illərdə müşahidə olunan meyillərdəndir və əsas məqsəd elmi yenilik yaratmaq deyil, sadəcə, siyahını genişləndirməkdir: nə olursa-olsun, təki bir məqalə dərc edilsin. Bu yanaşma isə, təəssüf ki, müəlliflik məsələsində də özünü göstərir. Elmə azacıq töhfəsi olan və ya ümumiyyətlə olmayan şəxslərin adları belə məqalələrə əlavə edilir. Nəticədə, həm elmin nüfuzu aşağı düşür, həm də gənc tədqiqatçılar üçün yanlış nümunə formalaşır.

1981-ci ildə aspiranturada oxuduğum dövrdə bir elmi nəticə əldə etmişdim. Bu tapıntını elmi rəhbərim, professor V. Vişnevski ilə müzakirə etdim. O, məni diqqətlə dinlədi və təəccübünü gizlətmədi.

Məqalənin hazırlanması mərhələsinə gəldikdə isə, bir qədər tərəddüdlə ona həmmüəllif olmasını təklif etdim. Üzündə məmnun bir təbəssüm yaransa da, bu təklifi qəti şəkildə qəbul etmədi. Onun mövqeyi aydın idi: nəticə kimə məxsusdursa, müəlliflik də ona aid olmalıdır.

Sonrakı illərdə elmi fəaliyyətim boyunca bu prinsipə sadiq qalmağa çalışdım. Bu gün kifayət qədər çox sayda nəşr edilmiş əsərim olsa da, ciddi zəhmət sərf etdiyim bəzi tədqiqatlarda həmmüəlliflikdən imtina etmişəm. Mənim üçün elmdə əsas olan dürüstlük və məsuliyyətdir.

***– Alimlərin saxta jurnallara müraciətlərinin arxasında hansı səbəblər dayanır?***

– Əsas səbəb sürətli və asan nəşr imkanlarıdır. Bəzi tədqiqatçılar isə bu jurnalların keyfiyyətsiz və saxta olduğunu ya bilmir, ya da riskə gedirlər. Bu problemlərin qarşısını almaq üçün universitetlərdə nəzarət mexanizmləri gücləndirilməli, dissertantlara akademik yazı və nəşr etikası ilə bağlı təlimlər keçirilməlidir.

Bununla yanaşı, Azərbaycan alimlərinin beynəlxalq elmi əlaqələrinin genişləndirilməsi də xüsusi əhəmiyyət daşıyır. Xarici universitetlərdə mühazirələrin oxunması, birgə tədqiqat layihələrinin həyata keçirilməsi və akademik mübadilə proqramlarında iştirak milli elmin inkişafına ciddi töhfə verə bilər.

***– Hər çap olunan iş elmin inkişafına xidmət etməlidir…***

– Prinsipcə belə olmalıdır, lakin bəzən məqalə sayı keyfiyyəti əvəz edir. Elmi nəşr seçimi həm texniki, həm də etik məsələdir. Müəlliflər xüsusilə diqqətli olmalı, ciddi müstəqil ekspertlərin yoxlama sisteminə malik və beynəlxalq elmi indekslərdə yer alan nəşrlərə üstünlük verməlidirlər. Əks halda, qısamüddətli "nəşr uğuru" uzunmüddətli akademik dəyəri zəiflədə bilər. Elmdə əsas prinsip sadədir: məqsəd çox yazmaq deyil, dəyərli və etibarlı elmi nəticə ortaya qoymaqdır.




Bəzi jurnallar özlərini rəyçilər tərəfindən yoxlanılan jurnallar kimi təqdim etsələr də, praktika həmişə bu anlayışın klassik mənası ilə üst-üstə düşmür. Hətta bəzi hallarda müəllifdən potensial rəyçilərin siyahısının tələb olunması bu prinsipə kölgə salır. Belə yanaşma nəzəri olaraq, prosesi sürətləndirmək məqsədi daşısa da, obyektivliklə bağlı suallar doğurur və şübhələr yaradır.

Məhz bu nöqtədə elmi ictimaiyyətdə "peşəkar yoxlama" ilə "formal təsdiq" arasında fərqin itməsi barədə narahatlıqlar ortaya çıxır. Bəzən elə vəziyyət yaranır ki, qiymətləndirmə sistemi öz mahiyyətindən uzaqlaşır. Əslində, rəyçilik sistemi o zaman etibarlı sayılır ki, qiymətləndirmə prosesində tam müstəqillik qorunsun və müəllifin prosesə təsir imkanı olmasın.

***– Elmi nəşrlərin keyfiyyəti ilə bağlı beynəlxalq və yerli mühitdə hansı tədqiqat və ya təşəbbüslər həyata keçirilir? Bu istiqamətdə şəxsi təcrübəniz varmı?***

– Türkiyə ilə 30 ildən artıq davam edən elmi əməkdaşlıq uğurla inkişaf edir və gələcəkdə daha da genişləndirilməsi planlaşdırılır. Bununla yanaşı, İspaniya və Yaponiya elmi məktəbləri ilə də davamlı əlaqələr mövcuddur.

Son dövrdə beynəlxalq əməkdaşlıq çərçivəsində Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetində onlayn mühazirələr təşkil olunmuş və ilk mərhələ uğurla başa çatmışdır. Eyni zamanda, Kazan Federal Universiteti ilə əməkdaşlığın yenidən qurulması istiqamətində təşəbbüslər irəli sürülmüşdür. Bu əməkdaşlıq təkcə iki universitet arasında deyil, daha geniş şəkildə türk riyaziyyat məktəbləri arasında əlaqələrin inkişafına xidmət edə bilər.

Kazan Federal Universiteti ilə əməkdaşlığın yenidən qurulması istiqamətində təşəbbüs irəli sürülüb. Nikolai Lobaçevsky tərəfindən əsası qoyulan məşhur riyaziyyat məktəbinin davamçılarından biri, akademik Marat Arslanovun dəvət məktubunda elmi əməkdaşlığın yenidən qurulmasına maraq göstərdiyini bildirib. Akademik Arslanov bu əməkdaşlığın həm Kazan həndəsə məktəbinin canlandırılmasına, həm də türk riyaziyyat məktəbləri arasında əlaqələrin genişlənməsinə töhfə verəcəyini vurğulayır. Belə addımlar Azərbaycan elminin beynəlxalq mühitdə mövqeyini gücləndirir və onun qlobal səviyyədə tanınmasına xidmət edir.

***– Elmi əsərlərə istinadların rolu və bəzi alimlərin bu sahədə tətbiq etdiyi yanaşmalar barədə nə düşünürsünüz?***

– Elmi istinadlar tədqiqatın etibarlılığını və elmi əlaqəliliyini təmin edən əsas amillərdəndir. Lakin bəzi hallarda istinad sayı, xüsusilə H-indeksi artırmaq məqsədilə süni şəkildə yüksəldilir. Əslində, müəllifin öz işlərinə istinad etməsi tamamilə normal və bəzən zəruridir. Bu, xüsusilə yeni və ya az öyrənilmiş sahələrdə çalışan alimlər üçün qaçılmazdır. Lakin problem o zaman yaranır ki, uzun illərdir araşdırılan mövzularda belə müəllif öz işlərinə həddindən artıq istinad edir və bu, elmi obyektivliyə kölgə salır.

Beynəlxalq bazalarda (Web of Science, Scopus) aparılan müşahidələr göstərir ki, istinadların böyük hissəsi, bəzən yarıdan çoxu öz-özünə istinadlardan ibarət olur. Halbuki etik normalara görə bu göstərici ümumi istinadların, təxminən, üçdəbirdən çox olmamalıdır. "Google scholar" bazası üzrə isə danışmaq istəmirəm, bu platformadakı materialların və istinadların əksəriyyəti akademik dairələrdə nüfuzlu hesab olunmur. Buna görə də burada yer alan göstəricilər çox vaxt ciddi elmi qiymətləndirmə üçün əsas meyar kimi qəbul edilmir.

***– Son dövrlərdə Azərbaycanda elmi dərəcə sisteminin yenidən qurulması ilə bağlı müzakirələr, xüsusilə elmlər doktoru dərəcəsinin saxlanılmaması məsələsi gündəmə gəlmişdir. Bu məsələyə münasibətiniz…***

– Bu məsələni təkcə struktur dəyişiklik kimi yox, akademik sistem kontekstində dəyərləndirmək lazımdır. Məncə, bu o qədər də önəmli məsələ deyil. Əgər qaldırılacaqsa, onda paralel olaraq professorluq meyarları daha sərt standartlara uyğunlaşdırılmalıdır. Ona görə də bu işdən "avantajlı çıxarıq" düşünüb və diskussiyanı da bu məqsədlə gündəmə gətirmək istəyənlər çox da ümidlənməsinlər. Formal ad dəyişikliyi real keyfiyyət dəyişimi yaratmır.

Bəzi ölkələrin təcrübəsində müdafiə və qiymətləndirmə prosesi tam institusional seçimlə, yəni fərdi yox, universitet, akademiya, dövlət orqanı tərəfindən tənzimlənir. Opponentlər əvvəlcədən açıqlanmır və tərəflər yalnız rəsmi mərhələdə prosesə cəlb olunur. Bu yanaşma daha çox obyektivlik məqsədi daşıyır. Beynəlxalq praktikada belə modellər var. Məsələn, Qahirə Universitetində keçiriləcək həndəsə üzrə dissertasiya müdafiəsinə opponent kimi dəvət olunmağım da belə bir sistemin mövcudluğunu göstərir.

Bu baxımdan əsas sual "hansı dərəcə qalır?" deyil, "mövcud sistem elmi keyfiyyəti nə qədər təmin edir?" olmalıdır. Müzakirənin mərkəzində də məhz bu prinsip dayanmalıdır. Biz də bu yolu seçə bilərik.

***– Arif müəllim, eyni məqaləni eyni müəllif eyni zamanda bir jurnala müxtəlif ünvanlardan, məsələn, Almaniya və Azərbaycandan göndərib. Hansı halda məqalə daha tez çap olunacaq və ya heç çap olunmayacaq? Səbəbi?***

– Əslində, beynəlxalq elmi nəşr standartlarına görə, eyni məqalənin paralel şəkildə müxtəlif ünvanlardan və ya bir neçə kanalla göndərilməsi ciddi etik pozuntu hesab olunur. Amma nə demək istədiyinizin arxa planı mənə aydındır. Bu sualın arxasında daha geniş bir məna dayanır: elmi fəaliyyət yalnız fərdi nəticə deyil, həm də ölkənin akademik nüfuzunu formalaşdıran prosesdir.

Buna görə də hər bir tədqiqatçının davranışı, seçimi və təqdim etdiyi işlər dolayısı ilə ölkəsinin elmi imicinə təsir göstərir. Sualın cavabını açıq deməliyəm və bu kimi isə həvəsdən salmasın: təbii ki, Almaniya. Bu, həm də alimlərimizin üzərinə milli kimlikdən qaynaqlanan bir məsuliyyət qoyur və hər birimiz fəaliyyətimizlə müstəqil Vətənimizin imicini qorumalıyıq.

***– Təcrübəli alim, ən məşhur beynəlxalq elmi bazalarda 100-dən çox elmi məqalənin müəllifi kimi alimlərimizə sözünüz nə olardı?***

– Beynəlxalq akademik müzakirələrdə nüfuzsuz və saxta jurnallarda məqalə çap etdirmək dosyanı "kirlətmək" deməkdir. Unutmayaq ki, bu nəşrlərin məqsədi elmi keyfiyyət yox, maddi qazancdır. Bu cür nəşrlərdə məqalə və kitab çap etdirməkdən vaz keçin, akademik standartlar zəif olduğundan onların elmi etibarlılığı da beynəlxalq mühitdə qəbul olunmur.

***– Müsahibə üçün sağ olun.***

***Namiq QƏDİMOĞLU***
***XQ***

*Dövlət mükafatına təqdim olunub*

# Tarixi kübarlıqdan milli ziyalılığa yüksəliş

**Filologiya elmləri doktoru, professor Əsgər Zeynalov beynəlxalq aləmdə tanınan, sanballı nüfuz sahibi olan alimlərimizdəndir. Onun Avropa, Amerika, Avstraliya, Asiya qitələrində 10-dan artıq kitabının, Rusiya, Türkiyə, İran, Serbiya, Çin və Özbəkistanda 15-ə qədər məqaləsinin işıq üzü görməsi bunun əyani sübutudur. Tədqiqatçı alimin aparıcı dövlətlərdə əsərləri nəşr olunmuş dünyaşöhrətli alimlər – Boris Starkov, Rudolf İvanov, Bakke Qrrammon, Arno Laster və digərləri yaradıcılığını yüksək qiymətləndirmişlər.**

Professor Ə.Zeynalovun Qərbi Azərbaycanla bağlı yazdığı əsərlərdən danışarkən akademik Nizami Cəfərov demişdir: "Əsgər müəllim xalqının təəssübkeş, milliyyətçi oğludur. Onun yazdığı elə əsərlər var ki, məsələn, "İrəvan ziyalıları" kitabı, onu heç kəs o səviyyədə yaza bilməz". Yeri gəlmişkən xatırlatmaq lazımdır ki, araşdırmaçı alimin "İrəvan ziyalıları" kitabı haqqında ən fundamental məqalə də akademik Nizami Cəfərova məxsusdur.

Müəllifin "İrəvan aristokratiyası" kitabı aktuallığı ilə mühüm əhəmiyyət kəsb edir. Qərbi Azərbaycana qayıdışın beynəlxalq səviyyədə ortaya qoyulduğu belə əsərlərə ciddi ehtiyac duyulur. Rus dilində işıq üzü görən kitabın redaktoru, professor Cəlil Nağıyev, rəyçiləri akademiklər Nizami Cəfərov və Muxtar İmanov, tərcüməçiləri filologiya elmləri namizədi Heydər Orucov və filologiya üzrə fəlsəfə doktoru Zeynəb Qasımovadır.

Nəşrin üz qabığında fransız rəssam və səyyahı Dübua dö Monperönün çəkdiyi İrəvandakı Sərdar məscidinin şəkli və kitabın əvvəlində Prezident İlham Əliyevin "İrəvan xanlığı, Zəngəzur mahalı və digər bölgələr bizim tarixi torpaqlarımızdır" ifadəsi əsərin nədən bəhs etdiyi və ideya istiqamətindən xəbər verir.

Kitabda İrəvanın tarixinə ekskurs edilmiş və elmi qaynaqlar əsasında azərbaycanlıların bu ərazini idarə etməsi faktlarla göstərilmişdir. İrəvanda yaşayıb-yaratmış, 200 ildən artıq tarixi olan aristokrat – ziyalı nəsillər üzə çıxarılmışdır. İrəvanın vitse-qubernatoru olmuş İsmayıl bəy Qazıyev, Mirzə Cabbar bəy Qazıyev, Məmməd xan Erivanski, MirAbbas Mirbabayev, habelə İbadulla bəy Muğanlinski, Ələkbər bəy Qədimbəyov həmin nəsillərin nümayəndələridir.

Çox maraqlıdır ki, sonralar xarici ölkələrdə, ümumiyyətlə, müxtəlif yerlərdə təhsil alan gənclərin böyük əksəriyyəti məhz İrəvanın bu aristokrat təbəqəsinin övladları olmuşlar. Məsələn, Teymur bəy Makinski, Əkbər ağa Şeyxülislamov, Mustafa bəy Topçubaşov, Mehdi xan Erivanski, Kübra xanım və Ruqiyyə xanım bacıları (Mirabbas Mirbabayevin qızları), Adil və Əslidar Muğanlinskilər və b.

Xüsusi vurğulamaq lazımdır ki, görkəmli dövlət və elm xadimi Əziz Məmməd oğlu Əliyevin anası irəvanlı İbrahim bəy Süleymanbəyovun qızı idi. Yəni Əziz Əliyev də İrəvanın bəy nəslindən idi. Akademik Heydər Hüseynov, professor Cəfər Xəndan da İrəvanın bəy nəslindən idilər. Bəli, zaman keçdikcə İrəvanın xan, bəy – aristokrat kökü ziyalı nəsillərlə əvəz edildi.

Kitabda ümummilli lider Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında" 1997-ci il 18 dekabr və "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il fərmanları öz əksini tapmışdır.

Əsərdə erməni qaynaqları əsasında təsdiq olunur ki, XIV əsrin sonlarından XIX əsrin ortalarına qədər İrəvanı azərbaycanlılar idarə etmişdir. İrəvan xanlığının 1800-cü il tarixli xəritəsinə istinad edən tədqiqatçı onun 15 mahaldan – Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Körpübasar, Abaran, Dərəçiçək, Göyçə və s. ibarət olduğunu göstərir.

Müəllif vurğulayır ki, XI əsrin məşhur alimi Mahmud Kaşğarinin "Divanü Lüğət-it–Türk" əsərində İrəvan xanlığı ərazisində bir sıra yer adlarına rast gəlmək olur. Məsələn, Gərnibasar mahalındakı Yuva, Bayburd, Qaraqoyunlu, Muğanlı kəndləri, Vedibasar mahalında Əfşar, Abaran mahalındakı Bayandur, Bayat kəndləri. Bəs aşıq sənətinin bu günə çatmış izi Qırxbulaq mahalındakı Ozanlar kəndi?

Kitabda İrəvan xanlığının öz müstəqilliyi uğrunda apardığı mübarizəyə ayrıca diqqət yetirilir. Bəlli olur ki, təxminən 30 il öz müstəqilliyini qorumaq üçün İrəvan xanlığı dəfələrlə işğalçı rus ordusunu ağır məğlubiyyətə uğratmış, neçə-neçə rus generalını istefaya göndərmişdi. 1827-ci il oktyabr ayının 1-də İrəvan xanlığı süquta uğramışdı. Əsərlərdə işğalın səbəbi də faktlara söykənərək açıqlanır.

Tarixi araşdırmalar əsasında işğaldan sonra ermənilərin bu torpaqlara köçürülməsi, sonralar yaranmış İrəvan quberniyasında azərbaycanlıların tutduğu mövqeyə münasibət bildirilir. Göstərilir ki, İrəvanın xan və bəy nəsilləri quberniyada tutduğu vəzifələrdə bu titulunu ləyaqətlə daşımışlar.

Tədqiqatçı "Kavkazski kalendar" məcmuəsinin 1886-cı il nömrəsinə əsaslanaraq qeyd edir ki, bu dövrdə İrəvanda 8 məscid, bir kilsə fəaliyyət göstərirdi. Görkəmli rus alimi R.N.İvanov azərbaycanlı alimin yurd yanğısıyla yazdığı əsərinə müraciət edərək İrəvandakı məscidlərin (Göy məscid, Novruzəli məscidi, Günnüklü məscidi, Hüseynəli məscidi, Qala məscidi, Hacıbəyim məscidi, Şəhər məscidi, Zal xan məscidi), məhəllələrin (Təpəbaşı, Toxmaqgöl, Şəhər, Qırmızı, Dəmirbulaq, Gedərçay məhəlləri), bağların adlarını (Dərə bağları, Dəlmə bağları, Güllü bağ, Yoncalı bağ, Şəmistan bağları, Sərdar bağı, Xan bağı) sadalayaraq fikrini belə yekunlaşdırmışdır: "Şərh etməyə ehtiyac varmı ki, bura azərbaycanlıların şəhəri olmuşdur?" Dünyaşöhrətli rus aliminin bu sözləri, bu etirafı əsəri dəyərləndirən əsas amillərdən biridir.

Tədqiqatçı-alim 1881-ci ildə fəaliyyətə başlamış İrəvan gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, xanlığın keçmiş mərkəzinə ən yaxın mahallardan biri olan Zəngibasar mahalının Uluxanlı məktəbinin tarixinə ekskursiya etmiş, arxivlərdə dərin araşdırmalar aparmış, bir çox qaranlıq məsələlərə aydınlıq gətirmişdir. 1883-cü ildə İrəvan xanlığının Vedibasar mahalının Böyük Vedi, Gərnibasar mahalının İmanşalı kəndlərində məktəblərin açılması diqqətdən kənarda qalmamışdır.

Bildirilir ki, İrəvanda yetişmiş bir sıra sənət adamları vətənə bağlılığını, sadiqliyini göstərmək üçün "İrəvani" təxəllüsü götürmüşlər. Mirzə Qədim İrəvani, Axund Molla Məhəmməd İrəvani, Aşub İrəvani, Dəlil İrəvani, Əbülqasim İrəvani və s.

10 il İrəvan gimnaziyasında dərs demiş görkəmli ədəbiyyatşünas alim F.Köçərli yazır ki, "Şəhri İrəvan keçmişdə mərkəzi üləma, füzəla və şüara olubdur". Burada "Bəzmi" təxəllüsü ilə yazan Məşhədi İsmayıl Hacı Kazımzadə, "Mütəlli" təxəllüslü Mirzə Kazım Qazi Əsgərzadə, "Sabir" təxəllüslü Hacı Seyid Rza Əmirzadə, Mirzə Əlixan Şəmsül Hükəma, Ləli kimi şairlər yazıb-yaratmışlar.

İrəvanda XIX əsrin əvvəllərindən başlayaraq 200 illik tarixə malik güclü ziyalılar nəsli yetişmişdir. İrəvanilər, Mirbabayevlər, Qazıyevlər, Mirbağırovlar, Məmmədzadələr, Bağırbəyovlar, Erivanskilər, Topçubaşovlar, Muğanlinskilər nəslinin nümayəndələri İrəvan quberniyasında yüksək mövqe sahibi, o cümlədən Dumanın üzvü, hətta şəhərin vitse-qubernatoru olmuşlar.

O da məlum olur ki, 1881-ci ildə İrəvan gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, Uluxanlı məktəbinin, az sonra xanlığın mahallarında Gərnibasarda, Vedibasarda və digər yerlərdə məktəblərin fəaliyyətə başlaması bu ərazidən böyük ziyalı təbəqəsinin yetişməsinə güclü təkan verib. İrəvan gimnaziyasının yetirmələrindən Əziz Əliyev qaçqınlıq həyatını yaşamış, ali təhsil aldıqdan sonra Azərbaycan Tibb İnstitutunun, Azərbaycan Dövlət Universitetinin rektoru, səhiyyə naziri, Azərbaycan KP MK-nın katibi, Dağıstan vilayət Partiya komitəsinin birinci katibi, Azərbaycan Nazirlər Sovetinin birinci müavini vəzifələrində çalışmışdı.

1941-1945-ci illər müharibəsi dövründə Şimali Qafqaz xalqları – mehseti türkləri yer-yurdlarından sürgün edildilər. O zaman Dağıstan MK-nın birinci katibi Əziz Əliyevin sayəsində əhali bu bəladan xilas ola bildi.

Əfsanəvi cərrah, akademik Mustafa Topçubaşov, görkəmli dilçi alim Miryusif Mirbabayev də İrəvan gimnaziyasının məzunları idi. Ümumiyyətlə, XX əsrdə İrəvandan çıxan ziyalılar Ə.Şeyxülislamov, T.Makinski, M.Məmmədov, Ə.Əliyev, M.Topçubaşov, H.Hüseynov, Ə.Rəcəbli, M.Erivanski, M. Mirbabayev, H.Seyidov, B.Seyidzadə, H.Seyidzadə, S.Rüstəmov, C.Xəndan, F.Bağırzadə, B.Budaqov, Z.Budaqova, Y.Məmmədov, H.Həsənov, K.Kərimov, M.Kərimov və digərləri Azərbaycanın ictimai, siyasi, elmi və mədəni həyatında mühüm rol oynamışlar.




Müəllif kitabın hər səhifəsində inanır və oxucunu da inandırmağa çalışır ki, bu torpaqlar azərbaycanlıların vətənidir, onlar öz yerlərinə, öz doğma ocaqlarına, keçmiş İrəvan xanlığının ərazilərinə qayıdacaqlar. Dünyaşöhrətli rus alimləri B.Starkovun və R.İvanovun vaxtilə müəllifin bu mövzuyla bağlı nəşr etdirdiyi kitablarına yazdığı ön sözlərin burada öz əksini tapması əsəri dəyərləndirən əsas amillərdəndir.

Eləcə də fransız səyyah və rəssam Dübua dö Monperönün (1799-1851) 1834-cü ildə İrəvanda olarkən çəkdiyi və bu kitabda təqdim olunan şəhərdəki Sərdar və Göy məscidlərin şəkilləri də bu əraziniin azərbaycanlılara məxsusluğunu əyani sürətdə təsdiq edir.

44 günlük Vətən müharibəsində 30 il işğal altında qalmış torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycan ordusunun şücaəti nəticəsində azad olundu. Bu şanlı qələbə Qərbi Azərbaycana qayıdış üçün geniş imkanlar yaratdı. Qərbi Azərbaycana qayıdış konsepsiyası yaradılmışdır. İndi istiqamət əski Qərbi Azərbaycan torpaqlarına – İrəvan xanlığına, Zəngəzur mahalına, Göyçə, Dərələyəz mahallarınadır.

Belə bir vaxtda professor Əsgər Zeynalovun Qərbi Azərbaycanla bağlı yazdığı əsərin nə dərəcədə əhəmiyyətli olduğu aydın görünür və "İrəvan aristokratiyası" kitabı Azərbaycan Respublikasının Dövlət Mükafatına layiqdir.

***İbrahim KAZIMBƏYLİ,***
***tarix elmləri doktoru, professor***

*Təqvim yada salır*

# Sazın köynəyindən keçən şair...



**O, sözlü-nəğməli Qazax mahalının yetirdiyi istedad sahiblərindəndir. Sadəliyi, təvazökarlığı, əqidəyə, amala sədaqəti ilə seçilib-sayılan şairdir. Özü demişkən:**

***Kərəmə lələyəm, Qəribə yoldaş,***
***Mən eşqin camını içmiş şairəm.***
***Mən sözün quluyam, sözün şahıyam,***
***Sazın köynəyindən keçmiş şairəm.***

…Şair-publisist Barat Vüsal Azərbaycan Yazıçılar Birliyinin (AYB) Qazax regional bölməsinə sədr təyin olunan 1993-cü ildə oraya yaradıcılıq ezamiyyətinə getmişdik. Qarabağda, eləcə də sərhəd rayonlarında nankor qonşularımız torpaq iddiası ilə savaş açmışdılar. Buna cavab olaraq, bölgələrimizdə, o cümlədən Qazaxda da özünümüdafiə dəstələri yaradılmışdı və erməni hücumları dəf edilirdi. Barat Vüsalla qərara aldıq ki, səngərlərə – Vətən müdafiəçilərinin görüşünə gedək, bölmə üzvlərinin əsgərlər qarşısında poetik çıxışlarını lentə alaq.

Həmin gün Barat Vüsal, Ələddin İncəli və digər qələm sahibləri vətənpərvər ruhlu çıxışları ilə əsgərlərimizə, sözün əsl mənasında, qol-qanad verdilər. Barat Vüsal yağıları "qamçılayan" şeirlərini özünəməxsus tərzdə söylədikcə havanı yaran kəskin əl hərəkətləri ilə, sanki, şimşək kimi çaxır, alovlu bədii dillə müxənnət qonşulara nifrinlər yağdırırdı. Beləcə, o görüş əsgər və zabitlərimizin mübarizə ruhunu bir qədər də yüksəltdi.

Sonra AYB Qazax bölməsi haqqında da veriliş çəkdik. Barat Vüsalın təşkilatçılıq bacarığına, qələmdaşlarını tərifə qızırğalanmadan, ürək açıqlığı ilə təqdim etməsinə heyran qaldıq. Onun poetik fəhmi, əzbərdən dediyi şeirlərinin döyüşkən ruhu, yaradıcılığında klassika ilə müasirliyi vəhdətdə əks etdirə bilməsi qəlbimizi ovsunladı…

Onda şairin 42 yaşı vardı. İndi düz 75-dir. Ağırtaxta kişinin ləngərli poeziyasını xalq sevir, dövlətimiz də layiqincə dəyərləndirib: Barat Vüsal Əməkdar incəsənət xadimidir. Xəlil Rza Ulutürk və Səməd Vurğun ədəbi mükafatlarına layiq görülüb. "Göz aydınlığı", "Ürəyimdən bir çay axır", "Yolumuz eşqə bağlıdı", "Ömür bitər, yol bitməz", "Qazaxda yaşadım mən öz ömrümü", "Ruh gəmisi", "Kufə əhli", "Xətadı qeyri-eşq", "Piyada atlı" kitabları maraqla qarşılanıb. Şairin 2 cildlik "Seçilmiş əsərləri" onun artıq çoxdan yetkin, bitkin bir qələm sahibi olduğunu təsdiqləyir.

Barat Vüsalın lirikasından daimi bir saflıq, duruluq boy göstərir. Hətta küsüb gedən könül dostunun belə müsbət cəhətlərini qabarda bilir:

***Qanad alıb kəpənəkdən,***
***Uçacaqsan, düşüb həkdən...***
***Gəzib məni tapmayanda,***
***Çiçəkləri öpəcəksən,***
***Səni yaxşı tanıyıram!***

Onun xatirə, məktub və məqalələrindən ibarət "Ayrılmaz yollar" toplusunun təqdimatında Xalq şairi Nəriman Həsənzadənin dedikləri olduğu kimi yadımızdadır: "Barat şair idi. Bu kitabı oxudum, gördüm Barat filosofdur, tənqidçidir, ədəbiyyatşünasdır, alimdir, ictimai xadimdir. Həm şair, həm alim Baratı təbrik edirəm. Bu gün biz alim Baratın görüşünə gəlmişik".

**Akademik Nizami Cəfərov isə klassikləri birləşdirməyi, onların ideyalarından ümumi azərbaycançılıq, türkçülük ruhunu axtarıb tapmağı Barat Vüsalın xidməti olaraq dəyərləndirdi:** "Barat Vüsal Azərbaycanın ən görkəmli şairlərindən biridir. Rayonda yaşasa da, respublika miqyasında, hətta Türk dünyası miqyasında görünən bir şairdir. Yəni ədəbiyyatın tarixini, ədəbi ideyaların tarixini, ədəbi-ictimai fikrin tarixini, böyük ədəbi şəxsiyyətlərin tarixini yaxşı bilən ziyalılarımızdandır".

Bu yaxınlarda yubilyar şair Barat Vüsalla yenidən ünsiyyət qurduq. Dedi ki, həqiqətən də, Qazaxda möhtəşəm tarixi olan bədii sözü yaşadanlardan olması ilə fəxr edir. Vaqif, Vidadi, Abdulla bəy Divanbəyoğlu, Kazım ağa Salik, Hacıkərim Sanılı, Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Mirvarid Dilbazi, Hüseyn Arif, Nəriman Həsənzadə, Nüsrət Kəsəmənli və digərlərinin urvatlandırdıqları söz məşhur Damcılı bulaq kimi damla-damla axaraq Azərbaycan ədəbiyyatını zənginləşdirib. Bu gün də biz üzərimizə düşən bu missiyanı layiqincə davam etdirməyə çalışırıq.

Onun rəhbərliyi ilə AYB Qazax bölməsinin Ağstafa, Tovuz və Gədəbəydə də məhsuldar şaxələri var. Ənənəvi "Səməd Vurğun Poeziya Günləri"nin bərpası, almanaxların çapı, şair və nasirlərin yubileylərinin, kitab təqdimatlarının keçirilməsi ənənəvi hal alıb. Sələflərinin yolunu layiqincə davam etdirən yazarlar vaxtaşırı ədəbi orqanlarda, dövrü nəşrlərdə çap olunur, bir-birindən maraqlı kitablarını oxuculara ərmağan edirlər.

**Söhbətimiz zamanı Barat Vüsal yenə də özündən çox qələm dostlarından danışdı:**

– Bölgənin ədəbi aləmində İsa Cavadoğlu, Saqif Qaratorpaq, Mustafa Rasimoğlu, Səhlədar Hidayətoğlu, Mübariz Qaragözlü, Məzahir Yaqub, Məzahir Alıyev, Bilal Qoca, Əli Cəfəroğlu, Aydın İbrahimoğlu, gənc şairlər Rüfət Axundlu və Nuranə Təbrizin yaradıcılıq uğurlarını diqqətlə izləyir və görürəm ki, hər birinin əsərlərindən Aveydən, Göyəzəndən əsən küləklərin səsi, ana Kürün harayı eşidilir.

Beynəlxalq Muğam Mərkəzində Barat Vüsalın yubileyi münasibətilə keçirilən "Uzanan ömrüdü şair dünyanın" adlı ədəbi-bədii gecədə AYB-nin sədr müavini Rəşad Məcid haqlı olaraq bildirdi ki, Anar müəllimin təbirincə desək, Barat Vüsalın şairliyi öz yerində... Bizi razı salan məsələlərdən biri də onun uzun illərdən bəri yazıçıların Qazax bölməsinə layiqincə rəhbərlik etməsidir.

Ötən günlərdə Qazax rayonu Ədəbiyyat Muzeyində "Yaxşı ki, Qazağın Baratı varmış" adlı yubiley tədbiri keçirilib. Qeyd olunub ki, Barat Vüsal yaradıcılığı sözün zahiri gözəlliyindən daha çox, batini hikmətini üzə çıxaran bir aləmdir. Onun misralarında tarix danışır, insan taleyi nəfəs alır, mənəvi paklıq ilahi bir nur kimi oxucunun ruhuna süzülür. Bu poeziya yalnız oxunmur – duyulur, yaşanır və yaddaşlara köçür.

Vətən müharibəsində Böyük Qələbədən ruhlanan şair yazır:

***Yurdumun İlhamı salıb,***
***İgidlərin namı salıb,***
***Şəhidlərin qanı salıb –***
***Bu yol Şuşayacan gedir.***

Başqa bir şeirində şair ölüm qorxusunu poetik şəkildə yox edərək deyir:

***Ürəkmi, ölümdən qorxursa ürək,***
***Nə elə qorxuram, nə əsirəm mən.***
***Allah, yaşamağa tələsirmiştək,***
***Torpağa dönməyə tələsirəm mən!***

Göründüyü kimi, Barat Vüsalın poeziyası zamanın sınaqlarından mətanətlə keçərək saflaşmış, xalqın ruhunu yaşadan və gələcək nəsillərə əmanət edən əvəzsiz ədəbi irsdir.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Deməyi bizdən…*

# Süni intellekt həkim deyil

## *Gərək "zorən təbib"də olmasın...*

**Süni intellekt texnologiyalarının sürətli inkişafı bir çox sahədə olduğu kimi, tibb dünyasında da köklü dəyişikliklərə səbəb olur. Müasir klinika və laboratoriyalarda diaqnostika prosesi artıq yalnız insan amilinə deyil, həm də mürəkkəb alqoritmlərin analiz qabiliyyətinə əsaslanır.**



Rentgen, MRT və KT görüntülərinin oxunmasında, eləcə də qan analizlərindəki mikroskopik detalların müəyyən edilməsində süni intellekt (Sİ) insan gözünün qaçıra biləcəyi xırda detalları saniyələr ərzində aşkar edir. Bu texnologiya diaqnozların qoyulmasını əhəmiyyətli dərəcədə tezləşdirir və mürəkkəb analizlərin sürətli emalında həkimlərə böyük dəstək verir. Bu isə xüsusilə onkoloji xəstəliklərin erkən diaqnostikasında və genetik pozuntuların öncədən müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Lakin bu tərəqqi maraqlı suallar doğurur: rəqəmsal zəka yaxın gələcəkdə həkimi tamamilə əvəz edə bilərmi, yoxsa o, həmişə yardımçı alət kimi qalacaq? Ümumiyyətlə, onun təqdim etdiyi nəticələrə tam güvənmək olarmı?

Müasir tibbi laboratoriyalarda Sİ sistemləri milyonlarla xəstəlik tarixçəsini və analiz nəticəsini eyni anda müqayisə etmək imkanına malikdir. Məsələn, laboratoriya cihazlarına inteqrasiya olunmuş proqram təminatı analiz nəticələrindəki kənarlaşmaları dərhal qeyd edir və potensial risklər barədə həkimə xəbərdarlıq göndərir. Bu, diaqnozun qoyulma sürətini artırmaqla yanaşı, tibbi personalın iş yükünü azaldır və səhv ehtimalını minimuma endirir. Bununla belə, texnologiyanın etibarlılıq dərəcəsi hələ də müzakirə mövzusudur. Alqoritmlər yalnız onlara öyrədilən məlumatlar çərçivəsində qərar verir, hər bir xəstənin fərdi orqanizm xüsusiyyətlərini və həyat tərzini tam nəzərə almaqda çətinlik çəkir. Üstəlik, alqoritmlərin qərarvermə mexanizmindəki qeyri-müəyyənlik məsələsi ciddi bir maneə kimi qarşıya çıxır. Belə ki, Sİ müəyyən bir diaqnozu qoyarkən bunu hansı məntiqlə etdiyinin həmişə izahını verə bilmir. "Qara qutu" problemi tibbi qərarların əsaslandırılması baxımından böyük risklər yaradır.

Texnoloji mükəmməllik axtarışı eyni zamanda etik və hüquqi dilemmaları da bərabərində gətirir. Əgər süni intellekt səhv diaqnoz qoyarsa, məsuliyyəti kim daşıyacaq – proqramı hazırlayan mühəndis, yoxsa həmin proqramın nəticəsinə güvənən həkim? Bu sual gələcək tibbi hüququn ən böyük mübahisə mövzusudur. Bəzi ekspertlər hesab edirlər ki, Sİ yaxın gələcəkdə həkimi əvəz etmək üçün deyil, onun ən yaxın köməkçisi olmaq üçün təkmilləşdirilir. Onların fikrincə, tibb elmi təkcə rəqəmlərdən və görüntülərdən ibarət deyil, bura həm də xəstə ilə qurulan emosional bağ və klinik təcrübə də daxildir. Digər tərəfdən, texnoloji tərəqqinin tərəfdarı olan mütəxəssislər vurğulayırlar ki, Sİ-nin xəta payı insan faktorundan daha aşağıdır və gələcəkdə bir çox standart diaqnostik prosedurlar tamamilə avtomatlaşdırılacaq. Bu sahədəki ən son yeniliklər göstərir ki, Sİ və həkim əməkdaşlığı müalicənin effektivliyini 30-40 faiz artırır, bu isə o deməkdir ki, gələcəyin tibbi nə texnologiyadan, nə də insan faktorundan imtina edə bilər.

Süni intellektin tibbə inteqrasiyası yalnız texniki tərəqqi deyil, həm də fərdi məlumatların təhlükəsizliyi ilə bağlı yeni bir mərhələnin başlanğıcıdır. Mütəxəssislər hesab edirlər ki, milyonlarla insanın gündəlik paylaşdığı məlumatlar əsasında unikal rəqəmsal profillərin yaradılması, xüsusilə səhiyyə sektorunda konfidensiallıq risklərini artırır. Hətta şəxsin adı və soyadı gizli saxlanılsa belə, xəstəlik tarixcəsinin özünəməxsusluğu fərdin kimliyini aşkar etməyə imkan verir ki, bu da datanın qorunması məsələsini strateji prioritetə çevirir.

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İctimai Şurasının üzvü, İT üzrə mütəxəssis Fərid Kazımov da təsdiq etdi ki, tibb sahəsində süni intellektin tətbiqi çətinliklərlə müşayiət olunur:**



– Ən böyük çətinliklərdən biri "qara qutu" problemidir. Mövcud sistemlər hər hansı bir diaqnoz və ya analiz göstəricisi təqdim etsə də, həmin qənaətə hansı məntiqlə gəlinməsi həm həkimlər, həm də pasiyentlər üçün qeyri-müəyyən qalır. Lakin hazırda bu problemin həlli üçün "Explainable AI" (İzah edilə bilən süni intellekt) texnologiyası sürətlə inkişaf edir.

Bu yeni sistem süni intellektin yalnız nəticə verməsini deyil, həm də həmin nəticəni hansı faktorlara əsaslanaraq çıxardığını şəffaf şəkildə izahını təmin edir. Yaxın illərdə bu texnologiyanın təkmilləşməsi ilə tibbdə süni intellekt daha etibarlı bir alətə çevriləcək və verdiyi qərarların elmi əsaslarını aydın şəkildə təqdim edə biləcək.

**Mütəxəssis süni intellektin xətalarına görə məsuliyyət məsələsinə də toxunaraq bildirdi ki, bu sahədə hüquqi tənzimləmə artıq müəyyən dərəcədə reqlamentləşdirilib:**

– Süni intellekt köməkçi vasitə olduğu üçün yanlış diaqnoz zamanı əsas cavabdehlik həkimin, klinikanın və müvafiq səhiyyə qurumlarının üzərinə düşür. Hətta sistem səhv məlumat versə belə, həkim həmin göstəricini təsdiqləyirsə, məsuliyyəti məhz o daşıyır. Xəta proqram təminatındakı texniki qüsurlardan qaynaqlanarsa, məsuliyyət həm də texnologiyanı yaradan şirkətin və proqramçıların üzərinə düşür. Avropadakı sərt reqlamentləşmə və ciddi sertifikatlaşdırma təcrübəsi göstərir ki, bu cür sistemli addımların tətbiqi gələcəkdə süni intellekt tərəfindən qoyulan yanlış diaqnoz hallarının qarşısını əhəmiyyətli dərəcədə ala bilər. Tibbi proqram təminatlarına nəzarətin gücləndirilməsi və onların ciddi sınaqlardan keçirilməsi texnologiyanın həm həkimlər, həm də pasiyentlər üçün daha təhlükəsiz və etibarlı alətə çevrilməsinə xidmət edir.

**Müsahibimiz qeyd etdi ki, süni intellekt texnologiyalarından istifadə zamanı fərdi məlumatların qorunması amili günümüzün diqqətçəkən problemlərindəndir. Bu məsələ yalnız səhiyyə sahəsini deyil, bütün rəqəmsal ekosistemi əhatə edir:**

– Milyonlarla insanın gündəlik paylaşdığı məlumatlar əsasında süni intellekt hər bir istifadəçinin unikal profilini yarada bilir. Xüsusilə tibb sahəsində hətta ad və soyad qeyd olunmasa belə, xəstəlik tarixcəsinin özünəməxsusluğu fərdin rəqəmsal kimliyini müəyyən etməyə imkan verir ki, bu məlumatların üçüncü tərəflərin əlinə keçməsi ciddi risklər yaradır. Bu təhdidlərin qarşısını almaq üçün hazırda bir neçə mühüm texnoloji yanaşma tətbiq olunur.

Bunlardan birincisi süni intellekt alqoritmlərinin proqram təminatında lokal istifadə edilməsidir. Məsələn, hər hansı bir klinikanın daxili serverlərində yerləşdirilən alqoritm pasiyent məlumatlarını mərkəzləşmiş qlobal bazalara ötürmədən yalnız həmin müəssisə daxilində təhlil edir ki, bu da informasiya sızması ehtimalını minimuma endirir. Hazırda dünyada proqram təminatının qlobal "bulud" sistemlərindən yenidən lokal serverlərə qayıdışı tendensiyası müşahidə olunur.

Digər bir perspektivli istiqamət isə pasiyentin xəstəlik profilindəki unikal detalların süni şəkildə "kölgələnməsi" və ya identifikasiya göstəricilərinin qəsdən dumanlandırılmasıdır. Bu zaman xəstəliyin mahiyyəti diaqnoz üçün əlçatan qalsa da, həmin məlumatların konkret şəxslə əlaqələndirilməsi qeyri-mümkün olur.

Lakin ən təsirli həll yolu məlumatların həm klinika, həm də ölkə səviyyəsində lokallaşdırılması hesab olunur. Nəzərə alsaq ki, güclü süni intellekt platformalarının yaradılması milyardlarla dollar investisiya tələb edir, büdcəsi az olan ölkələrin qlobal nəhənglərin alqoritmlərindən istifadə etməsi labüddür. Bu halda ən uğurlu model qlobal alqoritmləri yerli məlumat mərkəzlərinə inteqrasiya etməkdir. Yəni tibbi datanın ölkə sərhədlərindən kənara çıxmadan vahid mərkəzlərdə saxlanılması və emal olunması həm müasir texnologiyalardan geri qalmamağa, həm də vətəndaşların konfidensiallığını tam qorumağa imkan verəcək.

**Süni intellektin gələcəkdə həkimləri tamamilə əvəz edib-etməyəcəyi sualına da münasibət bildirən mütəxəssis söylədi ki, bu texnologiyanın insan amilini tamamilə sıradan çıxarması mümkün deyil:**

– Həkim və pasiyent arasındakı bağ, sadəcə, müayinədən ibarət deyil, bu münasibətin mərkəzində sağalma prosesində böyük rol oynayan qarşılıqlı inam və canlı ünsiyyət dayanır. Süni intellekt isə bu prosesdə həkimi əvəzləyən deyil, onun fəaliyyətini tamamlayan ən etibarlı köməkçi rolunu oynayacaqdır.

Müasir dünyada tibbi məlumatların və elmi yeniliklərin sürətlə artması səbəbindən bir mütəxəssisin bütün elmi məqalələri və yeni müalicə metodlarını izləməsi qeyri-mümkündür. Bu nöqteyi-nəzərdən saniyələr ərzində milyonlarla datanı təhlil edə bilən süni intellekt həkimi informasiya yükündən azad edən mühüm bir alətə çevrilir. Ona görə də mütəxəssislər süni intellektlə işləməyi öyrənməlidirlər.

Gələcəyin həkimi təkcə dərin tibbi bilikləri ilə deyil, həm də texnologiyadan, süni intellektin imkanlarından düzgün istifadə bacarığı ilə seçiləcəkdir. Süni intellekti rəqib deyil, işin keyfiyyətini və dəqiqliyini artıran bir vasitə kimi qəbul etmək səhiyyə sistemində yeni, daha səmərəli bir dövrün qapılarını açacaqdır.

**Azərbaycan Həkimləri İctimai Birliyinin sədr müavini, radioloq Aydın Əliyev də hesab edir ki, süni intellektin radioloji görüntülərin təhlilindəki uğurları nə qədər maraq doğursa da, bu texnologiya hələ peşəkar həkim səviyyəsində deyil:**



– Süni intellekt radioloji görüntülərin təhlilində hələ peşəkar həkim səviyyəsinə çatmayıb və fəaliyyətini daha çox standart qaydalar üzərində qurur. Halbuki hər bir pasiyentin vəziyyəti və xəstəlik tarixçəsi unikal olduğu üçün fərdi yanaşma tələb edir. Məhz bu məqamda diaqnozun dəqiqliyi üçün həkimin yüksək peşəkarlığı və insan faktoru həlledici rol oynayır. Təcrübəli mütəxəssislər görüntüləri süni intellektdən qat-qat dəqiq şərh edirlər, bu səbəbdən peşəkar radioloqun yazdığı protokollar daha üstündür.

Müasir texnologiyalar gənc mütəxəssislərin diqqətindən qaçan xırda detalları tapmaqda bəzən daha sürətli olsa da, həkimlərin biliyi və illərlə topladığı təcrübə görüntüləri dərindən anlamağa kömək edir. Çünki təcrübəli radioloq yalnız görüntüyə baxmaqla kifayətlənmir, o, pasiyentin ümumi vəziyyətini, xəstəlik tarixçəsini və laborator analizlərini birləşdirərək yekun qərar verir. Məhz bu səbəbdən, süni intellektin nəticələrinə tam güvənib müalicəyə başlamaq, hələ ki, riskli və yanlış addımdır. Peşəkar radioloqların hazırladığı rəylər bu gün də diaqnostikada ən etibarlı istinad mənbəyi hesab olunur.

Gələcəkdə süni intellektin radioloqların işini tamamilə əvəz edib-etməyəcəyini indidən söyləmək çətindir, çünki bu, həm texnoloji, həm də etik tərəfləri olan mürəkkəb bir prosesdir. Hazırda bu texnologiyanın verdiyi nəticələrə tam etibar etmək məsləhət görülmür. Çünki süni intellekt bir görüntünü eyni anda bir neçə fərqli və ziddiyyətli ehtimalla təhlil edə bilir ki, bu da xəstələrdə ciddi narahatlıq və yanlış təsəvvür yaradır.

Bir sözlə, süni intellekt nə qədər inkişaf etsə də, bugünkü reallıqda o, peşəkar həkimin biliyini və təcrübəsini əvəz edəcək səviyyədə deyil. O, yalnız köməkçi bir vasitə ola bilər, lakin son qərar və məsuliyyət hər zaman mütəxəssisin üzərinə düşür.

Ekspert rəylərindən də göründüyü kimi, süni intellekt tibb sahəsində inqilabi yeniliklər vəd etsə də, rəqəmsal zəkanın insan təfəkkürünü üstələməsi imkansızdır. Çünki ən ağıllı robot belə bir həkimin xəstəsinə verdiyi inamı və şəfqəti əvəz edə bilməz. Müasir diaqnostikada sürət və analiz qabiliyyəti baxımından əvəzsiz olan alqoritmlər, mürəkkəb tibbi qərarların verilməsində hələ də insan təcrübəsinə, intuisiyaya ehtiyac duyur. Süni intellekti həkimə rəqib deyil, onun imkanlarını genişləndirən güclü bir alətdir.

Bir zamanlar dolayı üsullarla müalicə aparanlar "zorən təbib" adlandırılmışdı. Süni intellekti hər bir xəstə ilə fərdi müalicə üsulu quran həkimin canlı fəaliyyəti ilə müqayisə edəsi olsaq, bu texnoloji-informativ vasitəni də çağdaş "zorən təbib" kimi qəbul etməliyik. Təəssüf ki, son vaxtlar özünü süni intellekt reseptləri ilə sağaltmaq istəyənlərin sayı çoxalıb. Unutmaq olmaz ki, belə "zorən təbib"lik ağır nəticələrə səbəb olur.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Bağbanlara məsləhət*

# Bağların qayğı çağı



**Respublikamızın Quba-Xaçmaz, Şəki-Zaqatala və digər bölgələrində tumlu (alma, armud, heyva) meyvə bağları geniş sahələri əhatə edir. Belə bağlar son illərdə aran yerlərdə də salınır. Hazırda ölkəmizdə 24 min 581 hektara qədər alma, 6 min 672 hektar armud və 4 min 408 hektar heyva bağları becərilir.**

Xatırladaq ki, intensiv texnologiyalar əsasında alma, armud və heyva bağları ilk dəfə 2005-ci illərdə Quba-Xaçmaz bölgəsində salınıb və bu müsbət tendensiya digər bölgələrə də yayılıb.

Meyvəçilik sahəsində çalışan fermerlər və bağbanları "Tumlu meyvə bağlarında zərərvericilərə qarşı səmərəli mübarizə necə aparılmalıdır" sualı çox maraqlandırır. Onların bu marağını **təcrübəli alim-aqronom, biologiya elmləri üzrə fəlsəfə doktoru Mədət Qurbanov** belə cavablandırır:

– İlin bu fəslində alma, armud və heyva bağlarında baş qaldıra biləcək bir sıra qorxulu və məhsuldarlığa ciddi ziyan vura biləcək xəstəlik və zərərvericiləri vaxtında aşkar etmək və onlara qarşı inteqrir mübarizə tədbirlərini həyata keçirmək çox vacibdir. İnteqrir mübarizə tədbirləri dedikdə, xəstəlik və zərərvericilərə qarşı ayrı-ayrılıqda yox, kompleks şəkildə, yəni zəruri kimyəvi məhlulların xüsusiyyətlərini nəzərə almaq şərti ilə, bir yerdə istifadə etmək nəzərdə tutulur.

May ayında tumlu meyvə bağlarında ən qorxulu xəstəliklərdən biri dəmgil və monilioz sayılır. Xəstəliyin törədicisi göbələk və onun ayrı-ayrı növləridir. Xəstəliyin törədiciləri bitkilərin zoğ, yarpaq, çiçək və meyvələrini yoluxdurur. Nəticədə bitkilər zəifləyir, yoluxmuş meyvələr isə öz əmtəəlik qabiliyyətini itirirlər. Cari ilin yaz aylarının olduqca rütubətli, temperaturun isə aşağı olması nəticəsində bu xəstəliyin bağlarda kütləvi artması müşahidə edilir.

Hazırda bağlarda monilioz xəstəliyindən başqa unlu şeh, fillostiktoz, septarioz və digər xəstəliklər də müşahidə edilir. Bu xəstəliklərlə yanaşı, may ayında tumlu meyvə bağlarında alma meyvəyeyəni, alma güvəsi, minalayıcı güvələr, uzunburun böcəklər, yarpaqbükənlər, qarışçılar, alma və armud ballıcaları, meyvə gənələri, mənənələr və bir sıra digər zərərvericilər də müşahidə edilir.

Bu zərərvericilərin hər biri ayrı-ayrılıqda bitkilərin yarpaq, çiçək, zoğ, meyvə və s. orqanlarına böyük zərər vura bilirlər. Bu zərərvericilər arasında alma meyvəyeyəni xüsusilə təhlükəlidir. Belə ki, alma meyvəyeyəni mayın ortalarından başlayıb alma və armudun təzə əmələ gəlmiş meyvələrini deşərək yumurtalığa daxil olur və orada inkişaf etməyə başlayır. Həşəratlar sinfinin pulcuqqanadlılar dəstəsinə daxil olan dişi kəpənək 150-yə qədər yumurta qoya bilir. Yumurtadan çıxan hər bir tırtılın 4 ədədə qədər meyvəni zədələyə biləcəyini nəzərə alsaq, o zaman bağa dəyəcək ziyanın miqyasını təsəvvür edə bilərik.

Bütün bunları nəzərə alaraq, xəstəlik və zərərvericilərə qarşı kompleks şəkildə mübarizə aparılmalıdır. Belə ki, çiçəkləmənin sonunda (ləçəklərin 90 faizi töküldükdə) xəstəliklərə qarşı krezoksim-metil, siprodinil, dodin, difenokonazol fungisidlərindən biri ilə lambda-siqalotrin, deltametrin, alfa-sipermetrin insektisidlərindən birinin qarışığı çilənməlidir.

Yeri gəlmişkən, hava şəraitini nəzərə alaraq növbəti mübarizə tədbirini çiçəkləmənin sonunda aparılmış kimyəvi mübarizədən 8-10 gün sonra aparmaq lazımdır.

Mayın ortalarında alma meyvəyeyəni zərərvericisinin I nəslinin, həmçinin dəmgil, unlu şeh xəstəliklərinin inkişafını nəzərə alaraq, zərərverici və xəstəliklərə qarşı emamektin-benzoat, deltametrin, lambda-siqalotrin insektisidlərindən biri ilə difenokonazol, ditianon, kaptan fungisidlərindən biri və eləcə də penkonazol, 80 faizli kolloid kükürd fungisidlərindən birinin qarışıqlarını istifadə etmək lazımdır. Armud bağlarında armud ballıcasının I nəslinə qarşı 1 ton suya 5 l mineral yağ + 1,5 l abamektin, yaxud 0,5 l asetamiprid + 0,5 l lambda-siqalotrin + 1,5 l abamektin qarışığından istifadə edildikdə yaxşı nəticə alınır.



Meyvə gənələrinin bağlarda 7 növünün yayıldığı və əksəriyyətinin 8-9 nəsil verdiyi nəzərə alınsa, mübarizə tədbirləri aparıldıqda səciyyəvi akarisidlərdən (abamektin, etoxazol və s.) də istifadə edilməlidir. Qeyd edək ki, xəstəlik və zərərvericilərə qarşı kompleks mübarizə aparmaqla may ayı ərzində tumlu meyvə bağlarında fitosanitar vəziyyəti normal saxlamaq mümkündür.

Xəstəlik və zərərvericilərə qarşı kimyəvi mübarizənin aparılması ilə yanaşı, bu dövrdə bağların gübrələnməsi və suvarılmasına da ciddi fikir verilməlidir. Belə ki, damcı suvarma sistemi olan bağlara hər həftə 20-25 kiloqram azot, 15-20 kiloqram monoammonium-fosfat və 12-15 kiloqram kalium-nitrat gübrələri verilməlidir.

Beləliklə, mayda tumlu meyvə sahələrində qeyd etdiyimiz becərmə tədbirlərini həyata keçirməklə bağlarda bol məhsulun yetişdirilməsinin əsasını qoya bilərik.

***Söhbəti yazdı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

*Ümummilli hədəf*

# Azərbaycanda həyat rəqəmsallaşır

## *Hərbi xidmətdə də xüsusi süni intellekt bölmələri yaradılır*

**Son illərdə dünyada geniş tətbiq olunan rəqəmsallaşma ilə bağlı prosesə Azərbaycan da uğurla inteqrasiya etməkdədir. Bu istiqamətdə artıq böyük işlər görülür.**



Rəqəmsallaşma həyatımızın, demək olar ki, bütün sahələrinə daxil olmaqdadır. Bu sahənin daha geniş tətbiqi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev də keçən il xüsusi sərəncam imzalamışdır. "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" sərəncamda bildirilir ki, bu qərar ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqinin və yerli istehsal potensialının genişləndirilməsi, habelə dövlət idarəetməsinin və infrastrukturun yüksək səviyyədə rəqəmsallaşdırılması əsasında dayanıqlı, rəqabətqabiliyyətli inkişafın təmin edilməsi məqsədilə qəbul edilib.

Günümüzdə rəqəmsal bacarıqlara yiyələnmək cəmiyyətin bütün üzvləri üçün vacib əhəmiyyət daşıyır. Hazırda bütün dünyada müxtəlif fəaliyyət sahələrində rəqəmsallaşmaya doğru tendensiya mövcuddur. Ona görə də bu günün insanları yeni rəqəmsal dövrün tələblərinə hazır olmalıdırlar. Bununla belə, sözügedən texnologiyaların genişləndirilməsini dəstəkləmək və insanların əmək bazarının tələblərini ödəmək üçün rəqəmsal bacarıqlara sahib olmasını təmin etmək məqsədilə texniki, hüquqi və təşkilati bazalara ehtiyac duyulur.

Bu məsələyə əslində bütün Avropa məkanında yüksək diqqət göstərilir. Təşkilat Azərbaycanın da daxil olduğu altı Şərq Tərəfdaşlığı ölkəsində rəqəmsal bacarıqlara dair strategiyaların icrasını dəstəkləyir. Xüsusi proqram vasitəsilə Şərq Tərəfdaşlığı ölkələrində rəqəmsal bacarıqlara yiyələnən kadrların sayının artması dəstəklənir və gələcəkdə rəqəmsallaşma səviyyəsinin uyğunlaşdırılması və sərhədlərin hiss olunmadığı əlaqələrin qurulması ilə Aİ-nin Vahid Rəqəmsal Bazarının faydalarını Şərq Tərəfdaşlığı ölkələrinə qədər genişləndirmək nəzərdə tutulur.

Bütün bunlarla bərabər, bu gün rəqəmsallaşma Avropanın özündə də hələ lazımi səviyyədə tətbiqini tapmayıb. Elə Azərbaycanda da oxşar mənzərə müşahidə olunur. Statistik təhlillərə əsasən, bizim ölkə əhalisinin təqribən 53 faizini rəqəmsal savadlı hesab etmək olar. Bu rəqəmlər inkişaf etmiş ölkələrin göstəricilərinə yaxındır. Bunu Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində də təsdiq edirlər. Bununla belə, ölkəmizdə əhalinin yerdə qalan nəzərəçarpan hissəsi müasir texnologiyalardan faydalanmaq baxımından lazımi bacarıqlara malik deyil.

Artıq Azərbaycanda sözügedən istiqamətdə lazımi tədbirlər görülür. Ölkəmizdə hər il müxtəlif əhali kateqoriyaları üçün rəqəmsal bacarıqların inkişafı istiqamətində layihə və proqramlar həyata keçirilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İKT Tətbiqi və Tədrisi Mərkəzi (İKT LAB) həm Bakıda, həm də regionlarda olan mərkəzlərində mütəmadi əsaslarla əhali üçün layihələr həyata keçirir və təlimlər təşkil edir. Buna misal olaraq, "Gənclər üçün Elektron Hökumət", "Hamı üçün İKT" və "Rəqəmli Qızlar – Milli Təlim Proqramı" adlı layihələri qeyd etmək olar. Keçirilən təlimlərdə iki mindən çox, seminarlarda isə beş mindən çox insan iştirak edib. Son illər peşəkar İKT mütəxəssislərinin hazırlandığını və yeni rəqəmsal peşələrin ölkəmizdə tanındığını müşahidə edirik. Ölkəmizin aparıcı universitetlərində də İKT yönümlü ixtisas proqramları yaradılıb.

Yaxın gələcəkdə, hesab olunur ki, tamamilə rəqəmsallaşmış bir dünyada yaşayacağıq. Artıq dünya ölkələri arasında vahid biznes əlaqələrinin, elektron ticarət və kommersiyanın, rəqəmsal maliyyə strukturlarının, nəqliyyat dəhlizinin, məlumatlar bazasının və şəbəkələrin qurulmasını planlaşdırır. Bu, o deməkdir ki, rəqəmsal texnologiyalar həyatımızdakı bütün sahələri – təhsil, səhiyyə, maliyyə, biznes münasibətləri və ticarət sektorunu əhatə edəcək. Bu texnologiyalara yiyələnmək artıq seçimdən çox tələbə çevrilib.

Bu baxımdan, hesab edirik ki, Azərbaycan Prezidentinin yuxarıda qeyd etdiyimiz sərəncamı ölkəmizdə rəqəmsal bacarıqların artırılmasında mühüm rol oynayır. Artıq Müdafiə Nazirliyi də bu istiqamətdə ciddi addımlar atmaqdadır. Bu yaxınlarda nazirlikdən məlumat verilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan islahatlar çərçivəsində Azərbaycan Ordusunda intellektual qabiliyyətli bölmələr yaradılıb. Məlumata görə, bu bölmələr artıq rəqəmsal biliklərə malik gənclərin cəlb olunması ilə formalaşdırılıb və Milli Müdafiə Universitetinin tərkibində fəaliyyətdədir.

Təhsildə fərqlənən istedadlı gənclərin bilik və bacarıqlarından daha səmərəli faydalanmaq, eyni zamanda, onların karyera inkişafına töhfə vermək məqsədilə Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı yeni konsepsiya tətbiq edilir. Yeni təlim-təcrübə konsepsiyasına əsasən, hərbi xidmətdə olan yüksək intellektə malik istedadlı çağırışçılar gənc əsgərlərin hazırlığı proqramını başa çatdırdıqdan sonra öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunmaları məqsədilə hərbi xidmətlərini Milli Müdafiə Universitetinin tərkibində yaradılmış bölmələrdə xüsusi şəraitdə davam etdirəcəklər.

Yeni yaradılan İntellektual qabiliyyətli bölmələrdə Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinə qəbul imtahanından 600 və yuxarı bal toplamış, Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli, 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"nın şərtlərinə uyğun olan qaliblər, eləcə də cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə, beynəlxalq reytinqi 500-cü yerdən aşağı olmayan sırada yer alan xarici ali təhsil müəssisələrinin bakalavriat və ya magistratura proqramlarının məzunları olan çağırışçılar xidmət edəcəklər.

Göstərilən kateqoriya üzrə müddətli həqiqi hərbi xidmətə çağırılmış gənclərdən informasiya texnologiyaları sahəsində müvafiq ixtisasa sahib olanlar orduda rəqəmsal bacarıqların inkişafına və yeni imkanların yaradılmasına əhəmiyyətli töhfə verəcəklər. Müasir texnologiyaları və yanaşmaları tətbiq edə biləcək mühüm bacarıqlara malik insan kapitalının formalaşdırılmasının ölkəmiz üçün əhəmiyyəti nəzərə alınaraq, xüsusi istedadlı gənclərin həqiqi hərbi xidmət müddətində öz peşə sahələri üzrə faydalı iş təcrübəsi qazanmaları təmin ediləcəkdir.

Göründüyü kimi, Azərbaycanda həyat sürətlə rəqəmsallaşır. İnanırıq ki, istedadlı və intellektual qabiliyyətli gənclərimiz başqa sahələrdə olduğu kimi, Silahlı Qüvvələrimizin sıralarında da mühüm texnoloji nailiyyətlərə imza atacaqlar.

***Paşa ƏMİRCANOV***
***XQ***

## "GİLƏZİ-YEM" ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**manatla**

| ***AKTİVLƏR*** | **2025-ci il** | **2024-cü il** |
|---|---|---|
| Bina, torpaq, tikili avadanlıqlar | 384 351.64 | 413 281.33 |
| Maşın və avadanlıqlar | 555 951.59 | 694 939.48 |
| Nəqliyyat vasitələri | 87 805.85 | 117 074.47 |
| **Cəmi uzunmüddətli aktivlər** | **1 028 109.08** | **1 225 295.28** |
| Ehtiyatlar | 26 311.47 | 26 311.47 |
| Qısamüddətli debitor borcları | 191.20 | 191.20 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 79 917.09 | 83 262.11 |
| **Cəmi qısamüddətli aktivlər** | **106 419.76** | **109 764.78** |
| **Cəmi aktivlər** | **1 134 528.84** | **1 335 060.06** |
| Nizamnamə kapitalı | 497 452.20 | 497 452.20 |
| Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət (zərər) | 83 809.19 | 83 809.19 |
| **Cəmi kapital** | **581 261.39** | **581 261.39** |
| Sair qısamüddətli öhdəliklər | 553 267.45 | 753 798.67 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **553 267.45** | **753 798.67** |
| **Cəmi öhdəliklər** | **553 267.45** | **753 798.67** |
| **Cəmi kapital və öhdəliklər** | **1 134 528.84** | **1 335 060.06** |

### Mənfəət, zərər və məcmu gəlirlər haqqında hesabat

| | **2025-ci il** | **2024-cü il** |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 115 098.24 | 113 767.02 |
| Satışın maya dəyəri | 24 298.24 | 1 421.58 |
| **Ümumi mənfəət** | **90 800.00** | **112 345.44** |
| İnzibati xərclər | 64 232.79 | 40 681.72 |
| Kommersiya xərcləri | 13 667.63 | 17 351.40 |
| Amortizasiya xərcləri | 197 186.20 | 243 866.89 |
| **Əməliyyat zərəri** | **-184 286.62** | **- 189 554.57** |
| **Vergiqoymadan əvvəlki mənfəət/zərər** | **-184 286.62** | **- 189 554.57** |
| **Hesabat dövründə xalis mənfəət** | **-184 286.62** | **- 189 554.57** |
| **Dövr ərzində xalis zərər** | **-184 286.62** | **- 189 554.57** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | **Nizamnamə kapitalı** | **Kapital ehtiyatları** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|---|
| **2025-ci il yanvarın 1-nə qalıq** | **497 452.20** | | **83 809.19** | **581 261.39** |
| **2025-ci il dekabrın 31-nə qalıq** | **497 452.20** | | **83 809.19** | **581 261.39** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | **2025-ci il** |
|---|---|
| **Əməliyyat fəaliyyəti** | **-3 345.02** |
| Amortizasiya xərcləri | 197 186.20 |
| Sair uzunmüddətli öhdəliklərdə artım (azalma ) | -200 531.22 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis hərəkəti** | **-3 345.02** |
| **Dövrün əvvəlinə pul vəsaitləri** | **83 262.11** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis hərəkəti** | **-3 345.02** |
| **Dövrün sonuna pul vəsaitləri** | **79 917.09** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"GİLƏZİ-YEM"** ***ASC-nin*** rə***hbərliyinə və təsisçilərinə***
MÜSBƏT RƏY

Biz **"GİLƏZİ-YEM"** ***ASC-nin*** (bundan sonra cəmiyyət) 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətinə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

***Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

Mən auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

## "Bakıxanov-Çörək" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11:00-da Bakıxanov-Çörək" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2025-ci il üzrə illik hesabatının müzakirəsi və təsdiqi.
2. 2025-ci ilin nəticələri üzrə dividendlərin verilməsi.
3. Cəmiyyətin müşahidə şurasının müfəttişinin seçilməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi ilə bağlı materiallarla Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi 26 B nömrəli ünvanda iş günləri saat 10:00-dan 16:00-dək tanış ola bilərlər.

Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

Səhmdarların ümumi yığıncağı Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi 37A nömrəli ünvanda "Badukubə" şadlıq evində keçiriləcəkdir.

***Müşahidə şurası***

## "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 11.00-da "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı, Xətai rayonu, N.Rəfiyev küçəsi 29 nömrəli ünvanda müəssisənin inzibati binasında keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Müəssisənin 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabatı.
2. "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC-nin nizamnaməsinin yeni redaksiyada təsdiqi.
3. Cəmiyyətin fəaliyyətinə aid digər məsələlərin müzakirəsi.

Ümumi yığıncağa bütün səhmdarlar şəxsiyyət vəsiqəsini, varisliyi təsdiq edən sənədi, etibarnamə ilə iştirak edənlər isə notarial qaydada təsdiqlənmiş etibarnaməni təqdim etməlidirlər.

Əlaqə telefonu: 012-489-34-60.

***"Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC-nin direktoru***

## "Xətai-Çörək"ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 14.00-da, Bakı, Zığ şosesi, 29/29 nömrəli ünvanda yerləşən "NUR" mərasim zalında "Xətai-Çörək" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı (Naxçıvanski adına hərbi məktəbin yanında) keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Xətai-Çörək" ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq olunması.
2. Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10:00-dan 16:00-dək Bakı şəhəri, Xətai rayonu, Zığ şosesi, 18 nömrəli ünvanda idarə heyyətinin sədrinə müraciət etməklə tanış ola bilərlər.

Əlaqə telefonları: (+994) 50 268 45 59, 050 542 86 84.

***"Xətai-Çörək" ASC-nin Müşahidə Şurası***

## "Ağsu Konserv–1" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2026-cı il saat 12.00-da "Ağsu Konserv-1" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Səhmdar cəmiyyətin 2025-ci ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
2. Təşkilati məsələlər.
3. Cari məsələlər.

Yığıncaqda iştirak etmək vacibdir.
Telefon: 050-352-21-82.
Ünvan: Ağsu şəhəri, M.Ə.Rəsulzadə küçəsi 47.

***İdarə heyəti***

## "Bakı Ayaqqabı-2" ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**(manatla)**

| **Aktivlər** | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentləri** | **8,819** | **316,938** |
| **Banklarda yerləşdirilmiş müddətli depozitlər** | **401,600** | **-** |
| **İnvestisiya əmlakı** | **9,120,000** | **8,750,000** |
| **Əmlak və avadanlıqlar** | **15,722** | **20,421** |
| **Digər aktivlər** | **735** | **51** |
| **Cəmi aktivlər** | **9,546,876** | **9,087,410** |
| **Öhdəliklər və kapital** | | |
| **Öhdəliklər** | | |
| **Büdcə ilə hesablaşmalar** | **11,900** | **12,867** |
| **Digər öhdəliklər** | **6,000** | **8,000** |
| **Cəmi öhdəliklər** | **17,900** | **20,867** |
| **Kapital** | | |
| **Səhmdar kapitalı** | **5,588,288** | **5,588,288** |
| **Bölüşdürülməmiş mənfəət** | **3,940,688** | **3,478,255** |
| **Cəmi kapital** | **9,528,976** | **9,066,543** |
| **Cəmi öhdəliklər və kapital** | **9,546,876** | **9,087,410** |

## "Azəroksigen"ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 12:00-da, Bakı, Zığ şosesi, 29/29 nömrəli ünvanda yerləşən "NUR" mərasim zalında (Naxçıvanski adına hərbi məktəbin yanında) "Azəroksigen" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı
keçiriləcəkdir

Ümumi yığıncağın gündəliyi:

1. "Azəroksigen" ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq olunması.
2. Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10:00-dan 16:00-dək Bakı şəhəri, Xətai rayonu, Zığ şosesi, 18 nömrəli ünvanda baş direktora müraciət etməklə tanış ola bilərlər.

Əlaqə telefonu: (+994) 50-268-45-59.

***"Azəroksigen" ASC-nin müşahidə şurası***

## "Bakı Şərab-2" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.00-də Bakı şəhəri, A.Hacıyev küçəsi 136 nömrəli ünvanda yerləşən "Bakı Şərab-2" ASC səhmdarlarının 2025-ci ilin yekunlarına həsr olunan növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2025-ci il üzrə müəssisə hesabatlarının və yekun mühasibat balansının təsdiqi.
2. Cəmiyyətdə ünvan dəyişikliyi ilə əlaqədər cəmiyyətin nizamnaməsinin yeni redaksiyada təsdiqi.
3. İdarə heyətinin və onun sədrinin yenidən seçilməsi.
4. Müşahidə şurasının və onun sədrinin yenidən seçilməsi.

Qeyd: səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə Bakı şəhəri, Nərimanov rayonu, Arif Hacıyev küçəsi 136 nömrəli ünvanda əyani surətdə hər bir səhmdar tanış ola bilər.

Telefon: 012-566-44-60 .

***Müşahidə şurası***

## "Bakı Dəmir-Beton-7" ASC səhmdarlarının nəzərinə!

"Bakı Dəmir-Beton-7" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 25 iyun 2026-cı il saat 11.00-da, Bakı şəhəri, Nizami rayonu, Davud Aslan küçəsi 2A nömrəli ünvanda keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1."Bakı Dəmir-Beton-7" Açıq Səhmdar Cəmiyyətinin 2025-ci il üzrə maliyyə təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq edilməsi.

Səhmdarların və ya nümayəndələrinin etibarnamə ilə həmin yığıncaqda iştirakı zəruridir.

***"Bakı Dəmir-Beton-7" ASC-nin idarə heyəti***

## "YEVLAX-MƏİŞƏT" ASC səhmdarlarının nəzərinə!

Səhmdarların növbəti ümumi yığıncağı 24 iyun 2026-cı il saat 16.00-da Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 115, "Arena Plaza", 4-cü blok, 10-cu mərtəbə, 62-ci otaqda keçirləcəkdir. Materiallarla tanış olmaq istəyən səhmdarlar iclasın keçirilməsinə 3 (üç) gün qalmış cəmiyyətin icra orqanına müraciət edə bilərlər.

1. Cəmiyyətin 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına görə hesabatlarının təsdiq edilməsi, mənfəət və zərərin bölüşdürülməsi.
2. Cəmiyyətin icra orqanının təyin olunması və müvafiq qaydada qeydiyyata alıması.
3. Cəmiyyətin yenidən təşkili qaydasında təşkilati- hüquqi formasının dəyişdirilərək açıq səhmdar cəmiyyətindən məhdud məsuliyyətli cəmiyyətinə çevrilməsi, təhvil aktının tərtib olunması və elanın mətbuatda dərc edilməsi.
4. Cəmiyyətin yenidən təşkili qaydasında təşkilati- hüquqi formasının dəyişdirilərək açıq səhmdar cəmiyyətindən məhdud məsuliyyətli cəmiyyətinə çevrilməsi ilə əlaqədar dövriyyədə olan adi, adlı, sənədsiz səhmlərinin ləğv edilməsi.
5. Səhmlərin ləğv edilməsi üçün Azərbaycan Respublikasının Mərkəzi Bankına və Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinə müraciət edilməsi.
6. Cəmiyyətin təşkilati-hüquqi formasının dəyişdirilərək məhdud məsuliyyətli cəmiyyətə çevrilərkən təsisçilərin nizamnamə kapitalındakı payları, pay miqdarı və paylara mütənasib faiz nisbətinin müəyyən edilməsi.
7. Cəmiyyətin təşkilati-hüquqi formasının dəyişdirilərək məhdud məsuliyyətli cəmiyyətə çevrilərkən icra orqanıın təyin edilməsi.
8. Cəmiyyətin nizamnaməsinin təsdiq olunması və təsis sənədlərində edilmiş dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə müraciət edilməsi.

## İDMAN

### “Heydər Əliyev Kuboku”nda 45 medal

**Bakıda yeniyetmə boksçular arasında “Heydər Əliyev Kuboku-2026” beynəlxalq turnirinə yekun vurulub. Boks Mərkəzində keçirilən yarışda 8 ölkənin 185 idmançısı qüvvəsini sınayıb. Altı gün davam edən yarışda oğlanların mübarizəsində 14, qızlarda 9 çəki dərəcəsi üzrə qaliblər müəyyənləşib.**




Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, dünən baş tutan final döyüşlərini federasiya rəsmiləri ilə yanaşı, Olimpiya və dünya çempionatının mükafatçıları izləyiblər. Onlar mükafatlandırma mərasimində də iştirak ediblər.

Turnirdə parlaq çıxışı ilə yadda qalan Azərbaycan millisi 45 medal qazanıb. Boksçularımız 11 qızıl, 12 gümüş və 22 bürünc medalla turniri başa vurublar.

Yarışda komanda hesabında Azərbaycan millisi birinci yeri tutub və Heydər Əliyev Kubokuna sahib olub. İkinci pilləyə Gürcüstan (4-2-4) yiyələndiyi halda, “üçlüy”ü Qazaxıstan (3-5-7) qapayıb.

Turnirdə ən yaxşı boksçu adına Aliimran Aliyev (Qazaxıstan) layiq görülüb. İlqar Qasımzadə (Azərbaycan) isə ən yaxşı hakim seçilib.

### “Ədalətli idman ayı”

**Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşəbbüsü ilə keçirilən “Ədalətli İdman Ayı – 2026” çərçivəsində idman federasiyalarının baş katibləri ilə görüş keçirilib.**



“Ümumdünya Antidopinq Məcəlləsi 2027: Əsas yeniliklər və institusional dəyişikliklər” adlı tədbirdə 40-dək federasiyanı təmsil edən nümayəndələr iştirak ediblər. Görüşün əsas məqsədi 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək Ümumdünya Antidopinq Məcəlləsində və beynəlxalq standartlarda nəzərdə tutulan yenilikləri diqqətə çatdırmaq, bu dəyişikliklərin tətbiqi ilə bağlı federasiyaların rolunu və öhdəliklərini izah etmək olub.

Açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov antidopinq sahəsində aparılan sistemli tədbirlərin əhəmiyyətini vurğulayaraq, federasiyalarla sıx əməkdaşlığın təmiz idman mühitinin formalaşdırılmasında mühüm rol oynadığını qeyd edib.

AMADA-nın İcraçı direktoru Təhminə Tağı-zadə isə çıxışında yeni Məcəllənin tətbiqinin idman idarəçiliyində şəffaflığın və məsuliyyətin daha da gücləndirilməsinə xidmət edəcəyini bildirib, federasiyaları bu istiqamətdə fəal iştirak etməyə çağırıb.

Sonda federasiya nümayəndələrini maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb və gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

### “Neftçi Socar” 1/4 finalda

**Qadınlar arasında keçirilən 3x3 basketbol üzrə Dünya Seriyasının Manila mərhələsində ölkəmizi təmsil edən “Neftçi Socar” klubu qrup birincisi olaraq 1/4 finala vəsiqə qazanıb. Təmsilçimiz B qrupunda Polşanı 22:14, Çini isə 19:17 hesabı ilə üstələyib.**

Komandamız bu gün 1/4 finalda Monqolustan millisi ilə qarşılaşacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Onkologiya Mərkəzinin kollektivi mərkəzin həkimi

**ASİF NƏSİRLİNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin iqtisadi nəzəriyyə və marketinq kafedrasının əməkdaşları kafedranın dosenti Əbülfət Kərimova bacısı

**GİLAS XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*8 May Beynəlxalq Talassemiya Günüdür*

# İnsanlığın ümid və dəstək aləmi

**Hər il mayın 8-i dünyada Beynəlxalq Talassemiya Günü kimi qeyd olunur. Bu günün əsası 1994-cü ildə Beynəlxalq Talassemiya Federasiyası tərəfindən qoyulub. Məqsəd talassemiya xəstəliyi haqqında məlumatlılığı artırmaq, erkən diaqnostikanın əhəmiyyətini vurğulamaq və bu xəstəlikdən əziyyət çəkən insanlara dəstək göstərməkdir.**

Hazırda ölkəmizdə 4 min nəfərdən çox talassemiyalı xəstə var. Son illər ölkəmizdə talassemiya xəstəliyinin müalicəsi və diaqnostikası sahəsində mühüm tədbirlər görülüb. “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında” Qanun həmin xəstələrin donor qanına və dəmirqovucu dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaradıb. Azərbaycanda talassemiyalı xəstələrin aşkarlanması və müalicəsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilib. Belə ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Respublika Talassemiya Mərkəzinin (Milli Hematologiya və Transfuziologiya Mərkəzi) yaradılması nəticəsində bu xəstələrin müalicəsinin müasir səviyyədə təşkili mümkün olub. Artıq talassemiyanın radikal müalicə üsulu olan sümük iliyi transplantasiyasının da həyata keçirilməsinə başlanılıb.

Prezident İlham Əliyevin 2015-ci il fevralın 10-da imzaladığı sərəncamla təsdiq etdiyi “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” xəstəliyin profilaktikasının gücləndirilməsinə, əhali arasında maarifləndirmə işlərinin aparılmasına və talassemiyalı xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsinə yönəlib. Dövlət Proqramının məqsədi ölkəmizdə talassemiya xəstəliyinin profilaktikası və müalicəsinin təkmilləşdirilməsi yolu ilə xəstələnmə, əlillik və ölüm hallarının azaldılmasından ibarətdir. Görülən tədbirlər nəticəsində talassemiyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunub, xəstəlikdən əlillik və ölüm halları azalıb.

**Mövzu ilə bağlı Azərbaycan Tibb Universiteti II daxili xəstəliklər kafedrasının hematoloqu, Səhiyyə nazirliyinin həkim eksperti Şəhla Şabanova bildirdi ki,** talassemiya autosom-resessiv tipdə ötürülən irsi qan xəstəliyidir və bu zaman eritrositlərdə – yəni qırmızı qan hüceyrələrində olan hemoqlobinin alfa və ya beta zəncirlərinin sintezində pozğunluq baş verir. Nəticədə qanda oksigenin daşınması zəifləyir və müxtəlif dərəcəli qanazlığı inkişaf edir.

Həkimin sözlərinə görə, talassemiyanın iki əsas növü mövcuddur: alfa və beta talassemiya. Ölkəmizdə daha çox rast gəlinən forma beta talassemiyadır: “Bu zaman hemoqlobinin tərkib hissəsi olan beta-qlobin zəncirinin sintezində qismən və ya tam pozulma müşahidə olunur və bu pozulmanın dərəcəsi xəstəliyin ağırlığını müəyyən edir.

Həkim-hematoloq diqqətə çatdırdı ki, talassemiyanın genetik xüsusiyyətləri nəzərə alınaraq ailə qurarkən tibbi-genetik məsləhət mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, daşıyıcı fərdlərin sağlam şəxslərlə nikahından doğulan uşaqlarda genlərin paylanmasından asılı olaraq həm sağlam, həm daşıyıcı, həm də xəstə övladların doğulması mümkündür. O əlavə edib ki, sağlam fərdlə talassemiya xəstəsi arasında nikahdan isə əsasən daşıyıcı övladlar dünyaya gəlir.

Müsahibimiz sonda bildirdi ki, 2015-ci ildən etibarən “nikahdan əvvəl tibbi müayinə sistemi”-nin tətbiqi talassemiyanın qarşısının alınmasında mühüm rol oynayır: “Bu sistem çərçivəsində cütlüklər talassemiya daşıyıcılığına görə icbari şəkildə yoxlanılır. Son illərdə genetik skrininq və



prenatal diaqnostika imkanları genişləndirilmiş, beynəlxalq əməkdaşlıq gücləndirilmiş, maarifləndirmə kampaniyaları və donor hərəkatı daha da inkişaf etdirilmişdir. Həyata keçirilən bu kompleks tədbirlər nəticəsində xəstəliyin erkən aşkarlanması artmış, yeni doğulan ağır halların sayında nisbi azalma müşahidə olunmuşdur”.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# Azərbaycanın ukraynalı dostu əbədiyyətə qovuşub



**Ukraynanın İrpen şəhərindəki Akademik Zərifə Əliyeva adına 12 saylı Humanitar “Linqvist” liseyinin direktoru Valentina Antonenkonun dünyasını dəyişməsi xəbəri soydaşlarımızı da kədərləndirib.**

Mərhum təhsil xadimi ilə İrpenin mərkəzi meydanında keçirilən vida mərasimində şəhər meriyasının rəhbərliyi, məktəbin kollektivi, Azərbaycanın Ukraynadakı səfirliyinin, Azərbaycan Dövlət Neft Şirkətinin bu ölkədəki nümayəndəliyinin təmsilçiləri, diaspor fəallarımız iştirak ediblər.

Ölkəmizin Ukraynadakı səfiri Seymur Mərdəliyev bildirib ki, Valentina Antonenko Azərbaycanın böyük dostu idi: “Onun Azərbaycan və Ukrayna arasında təhsil sahəsində əməkdaşlığın inkişafında xidmətləri olub. Məhz onun bu xidmətlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2022-ci il yanvarın 12-də ölkəmizin “Dostluq” ordeni ilə təltif olunub. Valentina Antonenkonun əziz xatirəsi tək ukraynalıların deyil, azərbaycanlıların da qəlbində daim yaşayacaq”.

İrpen şəhər merinin birinci müavini Oleksandr Paşinski, liseyin direktor müavini Nina Qnedyuk və digər çıxış edənlər Valentina Antonenkonun xidmətlərindən, Azərbaycan və Ukrayna arasında əməkdaşlığın inkişafına verdiyi töhfələrdən danışıblar.

***XQ***


## “Nadir Quliyev adına Bakı-Taxıl” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 10:00-da Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 2096-cı məhəllədə, “Nadir Quliyev adına Bakı-Taxıl” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2025-ci il üçün illik hesabatlarının və yekun mühasibat balansının təsdiq edilməsi.
2. Mənfəətin istifadəsinə aid.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə “Nadir Quliyev adına Bakı-Taxıl” ASC-nin inzibati binasında (AZ1108, Bakı şəhəri, Dərnəgül qəsəbəsi, 2096-cı məhəllə), 22 nömrəli otaqda tanış olmaq mümkündür.

## “Bakı Beynəlxalq Dəniz Limanı” Məhdud Məsuliyyətli Cəmiyyəti

**“Generatorların cari və əsaslı təmiri xidmətləri”nin satın alınması üçün AZCON-un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (mal, iş, xidmətlərin) vahid satın alınması Qaydalarına əsasən kotirovka sorğusu elan edir.**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Təkliflərin təqdim edilməsi üçün son tarix 22.05.2026-cı saat 18:00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140*

**Əlaqə telefonu:** *+(994 12) 599 00 03 (daxili 1803)*

## “Gəncə Mehmanxana” ASC səhmdarlarının nəzərinə!

25 may 2026-cı il saat 10.00-da “Gəncə Mehmanxana” ASC səhmdarlarının onlayn iclası keçiriləcəkdir.

İclasda bütün səhmdarların iştirakı vacibdir.

✓ ***Dövlət Gömrük Komitəsi tərəfindən Bəxtiyarlı Sahib Tahir oğlunun adına verilmiş 2690 seriya nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

✓ ***“ROLD AKTİV QRUP” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. (VÖEN-1306435091)***

✓ ***İsayeva Türkan İmran qızına məxsus nəqliyyat vasitəsinin 99DA083 nömrəli qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.***


# Aranda yağış və dolu, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, səhər və gündüz saatlarında bəzi yerlərdə yağış yağacağı proqnozlaşdırılır.**

Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensivləşəcəyi ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-15, gündüz 17-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-70, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14, gündüz 17-20, dağlarda gecə 7-12, gündüz 18-20 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***


## “GƏNCƏ MEHMANXANA” ASC-nin 31 dekabr 2025-ci il tarixə balans hesabatı

| GƏNCƏ MEHMANXANA ASC | VÖEN | | 2300020851 | |
|---|---|---|---|---|
| 31 dekabr 2025-ci il tarixə BALANS HESABATI | | | | |
| | | | | Azərbaycan manatı ilə |
| Maddənin №-si | | Qeyd | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
| | Aktivlər | | | |
| 1 | *Uzunmüddətli aktivlər* | | 660045.38 | 654864.34 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 111-112+113 | 660045.38 | 654864.34 |
| 12 | Qeyri-maddi aktivlər | 101-102 | | |
| 17 | Uzunmüddətli debitor borclar | 17X | | |
| 19 | İnvestisiyalar | 19X | | |
| | CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 660045.38 | 654864.34 |
| 2 | *Qısamüddətli aktivlər* | | 922173.55 | 989480.11 |
| 20 | Ehtiyatlar | 20X-208 | 15274.80 | 15274.80 |
| 21 | Qısamüddətli debitor borcları | 21X-218 | 14480.74 | 18349.74 |
| 22 | Pul vəsaitləri və onların ekvi | 22X | 175.02 | 0.02 |
| 23 | Sair qısamüddətli maliyyə ak | 23X-235 | 892242.99 | 955855.55 |
| 24 | Sair qısamüddətli aktivlər | 24X | | |
| | CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 922173.55 | 989480.11 |
| | CƏMİ AKTİVLƏR | | 1582218.93 | 1644344.45 |
| | KAPİTAL | | | |
| 30 | Ödənilmiş nominal (nizamna | 301-302 | 355842.00 | 355842.00 |
| 31 | Kapital ehtiyatları | 31X | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ö | 34X-344 | | |
| | CƏMİ KAPİTAL | | 355842.00 | 355842.00 |
| | ÖHDƏLİKLƏR | | | |
| 4 | Uzunmüddətli öhdəliklər | | 0 | 0 |
| 42 | Təxirə salınmış vergi öhdəlik | 42X | | |
| 43 | Uzunmüddətli kreditor borcla | 43X | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | 44X | | |
| | CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 0 | 0 |
| 5 | Qısamüddətli öhdəliklər | | 1226376.93 | 1288502.15 |
| 52 | Vergi və sair məcburi ödəniş | 52X | 12299.52 | 6828.56 |
| 53 | Qısamüddətli kreditor borcla | 53X | 1214077.41 | 1281673.59 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 54X | | |
| | CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 1226376.93 | 1288502.15 |
| | CƏMİ ÖHDƏLİKLƏR | | 1226376.93 | 1288502.15 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 1582218.93 | 1644344.15 |

| Mənfəət və zərər haqqında hesabat | | | | |
|---|---|---|---|---|
| Maddənin №-si | | Qeyd | 2025-ci il | 2024-cü il |
| 60 | Əsas əməliyyat gəliri | 20 | 375791.48 | 187782.42 |
| 70 | Satışın maya dəyəri | 24 | 281641.62 | 236060.91 |
| | Ümumi mənfəət | | 94149.86 | -48278.49 |
| 61 | Sair əməliyyat gəlirləri | 21 | 20500.00 | 18763.00 |
| 72 | İnzibati xərclər | 25 | 6652.54 | 7187.27 |
| | Əməliyyat (zərəri) | | 107997.32 | -36702.76 |
| 63 | Pandemiya ilə əlaqəli maliyyə yardımı | 22 | | |
| 75 | Maliyyə xərcləri | 27 | | |
| | Keçmiş illərin mənfəətdən çıxılası zərəri | | 77819.58 | |
| | Fövqəladə gəlirlər | 23 | | |
| | Fövqəladə xərclər | 26 | | |
| | Vergitutmadan əvvəl mənfəət (zərər) | | 30177.74 | -36702.76 |
| 90 | Mənfəət vergisi | 28 | 6035.55 | 0.00 |
| 80 | Hesabat dövründə xalis mənfəət (zərəri) | | | |
| | Mənfəətdə iştirak payı: | | | |
| | Səhmdarların payı | | 24142.19 | -36702.76 |
| | Azlıqların payı | | x | x |
| | Səhmdarların payına düşən bir səhmin mənfəəti: bir səhmin əsas mənfəəti | 29 | 0.261188679 | -0.397078501 |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI | | | | | |
|---|---|---|---|---|---|
| | Azərbaycan manatı ilə | | | | |
| | Qeyd | Nizamnamə K | Kapital ehtiyat | Bölüşdürülm | Cəmi Kapital |
| 1 yanvar 2025 tarixə qalıq | | 355842 | 0 | | 355842 |
| 2024-cü il üzrə xalis mənfəət | | | | | 0 |
| Mülkiyyətçilərin kapital qoyul | 19 | | | | 0 |
| Elan edilmiş dividendlər | | | | | |
| Keçmiş illərin zərərin bağlanması | | | 0 | | 0 |
| 31 dekabr 2024 tarixə qalıq | | | | | |
| 2025-ci il üzrə xalis mənfəət | | | | | 0 |
| Mülkiyyətçilərin kapital qoyul | 19 | | | | 0 |
| Təsisçinin borcunun əvəzləşdirilməsi | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| 31 dekabr 2025 tarixə qalıq | | 355842 | 0 | 0 | 355842 |
| Rəhbər | | Baş mühasib | | | |


DİREKTOR – BAŞ REDAKTOR

ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3160
SİFARİŞ 571
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00